Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 263 (7990) CÜMƏ AXŞAMI, 22 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Azərbaycan qlobal sərmayələr üçün geniş imkanlar məkanıdır

### İlham Əliyevin yeni iqtisadi strategiyasına uyğun yaradılan müasir sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə də mühüm töhfə verirlər

Son illərdə zamanın tələblərinə uyğun olaraq ölkəmizdə aparılan iqtisadi islahatlar, uğurla həyata keçirilən dövlət proqramları, genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı surətdə yaxşılaşdırılması, özəl sektora dövlət dəstəyi və makroiqtisadi sabitlik Azərbaycanda güclü sənayenin formalaşdırılması üçün əlverişli şərait yaradıb.
"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən proseslər öz bəhrəsini verməkdədir. Ölkəmizdə xeyli sayda müasir sənaye müəssisəsinin fəaliyyətə başlaması, yeni sənaye sahələrinin yaradılması, tələbatın ödənilməsində yerli məhsulların payının əhəmiyyətli dərəcədə artması və ixracın həcminin yüksəlməsi bunu təsdiqləyir.

#### İnnovativ sənayenin inkişafına yeni təkan verilir

Həyata keçirilən uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq bu il də innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafına təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və sənaye məhəllələrinin yaradılması prosesi uğurla davam etdirilib.

Prezident İlham Əliyev fevralın 27-də Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin, iyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun və sentyabrın 18-də Masallı Sənaye Məhəlləsinin açılışını edib.

Ümumiyyətlə, müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması, həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.

#### Bir gündə 3 zavodun açılışı

Noyabr ayının 16-da isə dövlət başçısı Sumqayıt Kimya Sənaye Parkında daha 3 müəssisənin "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin, "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun və İnşaat kimyəviləri zavodunun açılışlarını edərək xeyir-duasını verdi.

Hər 3 müəssisə ölkənin ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkının rezidentidir.

Dövlət başçısının 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılmış və 2013-cü ildə açılışı olmuş bu sənaye parkının idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 74 faiz məskunlaşma qeydə alınıb. İndiyədək 18 sahibkarlıq subyektinə rezident statusu verilib. Parkın mövcud rezidentlərinin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır. Bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda mövcud layihələr üzrə istehsalatda və tikintidə 7000-dək işçi çalışır.

Hazırda parkda 12 müəssisə fəaliyyət göstərir və bu müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac edilir.

#### Bu il 2, gələn il isə 4 müəssisə fəaliyyətə başlayacaq

Sumqayıt Kimya Sənaye Parkında bu il daha 2 müəssisə fəaliyyətə başlayacaq. Gələn il əlavə 4 müəssisə işə düşəcək və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Ardı 10-cu səh.

### Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

## Azərbaycan-Türkmənistan əlaqələri uğurla inkişaf edir

#### Aşqabad beynəlxalq hava limanında qarşılanma




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistana rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı Aşqabad beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər yüksək vəzifəli şəxslər qarşıladılar.

## Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət edib.

Kompleksdə 1948-ci ildə baş vermiş zəlzələ zamanı həyatlarını itirmiş və Göytəpə döyüşlərində şəhid olmuş insanların xatirəsinə abidələr ucaldılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Əbədi şöhrət" abidəsinin önünə əklil qoydu.

Sonra dövlətimizin başçısı "Vətən müqəddəsliyi" muzeyi ilə tanış olub.

Ardı 2-ci səh.



## Azərbaycan ədliyyəsi bir əsrlik inkişaf yolunda

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə təsis edilmiş 22 noyabr ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə qeyd olunur.

Ulu öndərin "tariximizin hər səhifəsi bizim üçün əzizdir" fikrinə sadiq qalaraq yubiley günündə Azərbaycan ədliyyəsinin tarixindən və zəngin inkişaf yolundan bəhs etmək olduqca fərəhlidir.

Azərbaycan ərazisində qədim dövrlərdə yaranmış dövlətlərdə ədliyyə işinə xüsusi diqqət yetirilmişdir. Məhkəmələrin fəaliyyətində çoxpilləlilik, müstəqillik, tərəflərin bərabərliyi və çəkişmə prinsiplərinin elementləri mövcud olmuşdur. Həmçinin məhkəmə presedentlərindən istifadə edilmiş, hakim olmaq üçün tələblərə və onların təminatına xüsusi əhəmiyyət verilmişdi.

XIII-XIV əsrlərdə Azərbaycanda Qazan xan tərəfindən hüquqi sahədə həyata keçirilən islahatlar məhkəmələrin müstəqilliyinin təmin olunmasına, onların kənar müdaxilədən qorunmasına, işlərə baxılarkən ədalətin gözlənilməsinə yönəlmişdi.

Ardı 7-ci səh.

## Prezident İlham Əliyev Minskdə yeni meqoiqtisadi modellər irəli sürdü

Azərbaycan artıq beynəlxalq aləmdə tolerantlığa, dayanıqlı sülhə və bütün ölkələrlə iqtisadi əlaqələrin dinamik inkişafına səy göstərən müasir və islahatçı ölkə kimi böyük nüfuz sahibidir. Prezident İlham Əliyevin Belarusa növbəti rəsmi səfəri zamanı iki ölkənin dövlət başçılarının və geniş tərkibdə nümayəndə heyətlərinin müzakirə etdiyi iqtisadi mövzular və imzaladıqları sənədlər toplusu bir daha onu təsdiq edir ki, Azərbaycan nəinki regional iqtisadi liderə çevrilmək, həm də qlobal dünya iqtisadiyyatına nüfuz etmək, ortaya yeni meqoiqtisadi modellər qoymaq gücünə qadirdir. Yeri gəlmişkən qeyd edək ki, bu il diplomatik münasibətlərin qurulmasının 25 illik yubileyini qeyd edən Azərbaycan və Belarus arasında ümumilikdə 119 sənəd imzalanmışdır.

İki ölkənin sarsılmaz dostluğunu, davamlı və getdikcə genişlənən iqtisadi əlaqələrini təsdiqləyən amillərdən biri də "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında" Müqavilənin və onun Proqramının təsdiq olunması barədə Azərbaycan Respublikasının Qanununun qəbul edilməsidir. 2015-ci il noyabrın 28-də Minskdə imzalanmış müqavilə və onun proqramı Azərbaycan Prezidenti tərəfindən 12 fevral 2016-cı ildə təsdiq olunmuşdur.

Azərbaycanla Belarus arasında iqtisadi əməkdaşlıqda xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində bir sıra sahələrin (normativ hüquqi bazanın inkişafı; ticarət-iqtisadi münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı şərtlərlə daha da genişləndirilməsi; istehsalın artımı; investisiyaların yatırılması; elmin son nailiyyətlərinin və qabaqcıl texnologiyaların tətbiqi, innovativ əməkdaşlığın inkişafı) qarşılıqlı inkişafına üstünlük verilirdi. Eyni zamanda aqrar-sənaye kompleksinə xüsusi diqqət ayrılmışdı. Aqrar-sənaye sektoruna aid qurumlar arasında birbaşa əlaqələrin yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və qarşılıqlı təchizatı üzrə yeni texnologiyalar və elmi-texniki əməkdaşlıq 10 il ərzində diqqət mərkəzində olmuşdur.

Ardı 5-ci səh.

## Yüksəliş və quruculuq ünvanı




### Bu gün 69 yaşı tamam olan Sumqayıt Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində sürətlə inkişaf edir

Tək Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mühüm sənaye mərkəzi və ən gözəl ünvanlarından biri kimi şöhrətini gündən-günə artıran Sumqayıtın tarixi ötən əsrin 30-cu illərindən başlayır. Sovet hökumətinin Abşeron yarımadasında növbəti sənaye mərkəzi yaratmaq barədə qərarından irəli gələrək 39-40-cı illərdə burada Sintetik Kauçuk, Boru yayma və Kimya zavodlarının bünövrəsi qoyulur. 1941-ci ildə istilik elektrik stansiyası işə salınır. 1944-cü ildə kimya və metallurgiya zavodları tikilir. 1949-cu ildə isə Sumqayıta şəhər statusu verilir. Bununla da müasir Sumqayıtın şəhər kimi tarixi başlayır. Bu gün həmin tarixdən 69 il ötür…

#### Heydər Əliyevin hər səfəri böyük tarixi hadisəyə çevrilirdi

Sumqayıtın inkişaf tarixində bir sıra əlamətdar hadisələr var. Bu sırada şəhərin müəyyən dövrlərdə əsl tikinti meydanını xatırlatması xüsusilə diqqəti çəkir. Sumqayıt ötən əsrin 40-cı illərində salınsa da, məhz ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi illərində şəhərə yeni nəfəs verilir. Azərbaycana birinci rəhbərliyi illərində sumqayıtlılar ulu öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss etmişlər. Sumqayıtın sosial-iqtisadi inkişafında, sənayesinin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində ulu öndərin əvəzsiz xidmətləri danılmaz bir faktdır. Rəhbərliyi dövründə 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin yaddaşında böyük tarixi hadisə olmuşdur.

Ardı 8-ci səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

# Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət







*Əvvəli 1-ci səh.*

Muzeydə Göytəpə döyüşlərinin maketi quraşdırılıb, eyni zamanda, Göytəpə qalası, həmin döyüşlərin qəhrəmanları, döyüşlər zamanı istifadə olunan silah və libaslar, həmçinin digər eksponatlar nümayiş olunur.

Dövlət başçısı 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxdı. Muzeydə, eyni zamanda, İkinci Dünya müharibəsi, onun qəhrəmanları, həmçinin həmin müharibə zamanı hərbçilərin istifadə etdikləri geyimlər, silah-sursat və digər eksponatlar sərgilənir. Muzeyin növbəti bölməsi 1948-ci ildə Aşqabadda baş verən zəlzələyə həsr olunub. Burada həmin zəlzələ zamanı dağılan binaların qalıqları təqdim edilir. Türkmənistanın inkişafına həsr olunan bölmədə müasir Aşqabadın görkəmini əks etdirən fotolar nümayiş etdirilir. Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

# Prezident İlham Əliyev Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, 2017-ci ildə Aşqabadda keçirilən qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının ən əsas idman obyektləri bu kompleksin ərazisində yerləşir. Ümumi ərazisi 157 hektar olan Olimpiya Kompleksində qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının açılış və bağlanış mərasimləri, bütün yarışlar, o cümlədən mükafatlandırma tədbirləri təşkil olunub. Kompleksdə ümumilikdə 30-dan çox müxtəlif təyinatlı idman qurğusu, həmçinin 45 min tamaşaçı tutumu olan Olimpiya stadionu, paralimpiya kompleksi və tibbi bərpa mərkəzi yerləşir.

Ərazidə, eyni zamanda, üzgüçülük arenası, voleybol, basketbol, futbol meydançaları, Olimpiya kəndi, qapalı velotrek, döyüş sənəti üzrə idman kompleksi, yüngül atletika arenası və tennis kortu, eləcə də idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün çoxfunksiyalı zal inşa olunub. Aşqabad Olimpiya Kompleksində, həmçinin biznes-mərkəz, mehmanxanalar və sağlamlıq mərkəzi də fəaliyyət göstərir.

# Aşqabaddakı Türkmən milli xalça muzeyi xoş təəssürat yaradır









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Türkmən milli xalça muzeyi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, bu muzey Türkmənistan Prezidentinin sərəncamı ilə 1993-cü ildə yaradılıb. Məqsəd Türkmənistanın xalçaçılıq sənətini qorumaq və inkişaf etdirməkdir. Muzeyin yaradıldığı gün hər il ölkədə Türkmən Xalçası Günü kimi qeyd olunur.

Burada muzeylə yanaşı, "Türkmənxalı" Dövlət Birliyinin inzibati binası da var. Muzey binasının ümumi sahəsi 5 min kvadratmetrdən çoxdur.

Bu muzeydə 2 mindən çox xalça nümunəsi toplanılıb. Onların sırasında nadir eksponatlar da var. Burada miniatür xalça nümunələri ilə bərabər, əl ilə toxunan ən böyük xalça kimi Ginnesin rekordlar kitabına düşmüş ümumi sahəsi 301 kvadratmetr olan "Altın asır" xalçası da nümayiş etdirilir. Bu böyük xalça Türkmənistanın müstəqilliyini bərpa etməsinin 10 illiyi münasibətilə toxunulub. Muzeydə köhnə xalçaların bərpası da həyata keçirilir.

Burada, həmçinin müxtəlif səpkili mədəni tədbirlər, sərgilər, beynəlxalq forumlar və konfranslar da təşkil olunur. Bu muzey Türkmənistanın mühüm mədəniyyət mərkəzlərindən biri hesab edilir.

Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

## Livan Respublikasının Prezidenti zati-aliləri cənab Mişel Auna

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2018-ci il*

## Ç.Ə.Fərzəliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Çingiz Əbdül Məcid oğlu Fərzəliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2018-ci il*

## Əfqanıstan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Əşrəf Qaniyə

Hörmətli cənab Prezident!

Kabil şəhərində törədilmiş partlayış nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi son dərəcə kədərləndirdi.

Biz bu dəhşətli terror aktından olduqca hiddətlənir, terrorizmə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2018-ci il*

# “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12, maddə 2236; 2018, N 7, maddə 1388, N 8, maddə 1673) aşağıdakı dəyişikliklər edilsin:

1. Mətn üzrə ismin müvafiq hallarında “notariat kontoru” və “notariat kontorları” sözləri ismin müvafiq hallarında “notariat ofisi” və “notariat ofisləri” sözləri ilə əvəz edilsin.

2. Mətn üzrə ismin müvafiq hallarında “vətəndaş” sözü (89-cu maddə istisna olmaqla) ismin müvafiq hallarında “şəxs” sözü ilə əvəz edilsin.

3. 3-cü maddə üzrə:

3.1. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

“Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 3 ildən az olmayaraq iş stajına, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik Azərbaycan Respublikasının vətəndaşı notarius ola bilər.”;

3.2. səkkizinci hissəyə “tələblərinə” sözündən sonra “və müvafiq icra hakimiyyəti orqanının metodiki tövsiyələrinə” sözləri əlavə edilsin.

4. 4-cü maddə üzrə:

4.1. birinci hissənin ikinci cümləsi çıxarılsın;

4.2. beşinci hissə aşağıdakı redaksiyada verilsin:

“Müvafiq icra hakimiyyəti orqanının notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumunda və dövlət notariat ofislərində ali hüquq təhsili tələb olunan inzibati vəzifələrdə və ya xüsusi notariusun köməkçisi vəzifəsində 3 ildən az olmayaraq işləyən və bu qanunun tələblərinə cavab verən şəxslər, habelə hakimlər şəhadətnamə almaq üçün yalnız notariat fəaliyyəti üzrə peşə hazırlığına dair müsahibədən keçməlidirlər.”;

4.3. altıncı hissə ləğv edilsin.

5. 5-ci maddə üzrə:

5.1. birinci hissəyə “şəxsin” sözündən sonra “, habelə xüsusi notariusun köməkçisi vəzifəsinə namizədlərin” sözləri əlavə edilsin;

5.2. dördüncü hissədə “icbari təlimdən azad edilmiş şəxslərin” sözləri “icbari təlimin nəticələrini qiymətləndirir,” sözləri ilə əvəz edilsin;

5.3. doqquzuncu hissə ləğv edilsin.

6. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 7. Şəhadətnamənin ləğv edilməsi. Xüsusi notariusun fəaliyyətinə xitam verilməsi**

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən aşağıdakı hallarda notariusun şəhadətnaməsi ləğv edilir:

1) notarius öz arzusu ilə şəhadətnaməsinin ləğv olunması barədə yazılı ərizə verdikdə;

2) şəhadətnamə almış şəxs notarius andını qəbul etmədikdə;

3) notariusun şəhadətnamə almaq üçün təqdim etdiyi sənədlərdə biləbilə rəkdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

4) xüsusi notarius şəhadətnaməni aldıqdan sonra bu qanunun 24-cü maddəsində nəzərdə tutulmuş müddətlər keçdikdən sonra notariat fəaliyyətinin həyata keçirilməsinə başlamadıqda;

5) növbəti dəfə şəhadətnamə verilmədikdə;

6) notarius 65 yaşa çatdıqda;

7) qanunvericiliyin tələblərini dəfələrlə və kobudcasına pozmaqla notariat hərəkətləri apardıqda;

8) dövlət notariusu tutduğu vəzifədən azad edildikdə;

9) xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması üçün əsas olmuş hallar aradan qalxmadıqda;

10) notarius əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirdikdə (tibbi rəy əsasən);

11) notariusun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda, notarius tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə işləməyə qadir olmadıqda;

12) notariusun Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya notarius Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

13) notarius cinayət törətməyə görə məhkum edildikdə və ya onun barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

14) notarius barəsində bəraətverici əsaslar olmadan cinayət işinin xitam olunması haqqında qərar çıxarıldıqda;

15) notarius vəfat etdikdə;

16) notarius məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Şəhadətnaməsi ləğv edilmiş notariusun notariat fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən xitam verilir.

Fəaliyyətinə xitam verilmiş xüsusi notariusun qeydiyyat vəsiqəsi ləğv edilir.

Xüsusi notariusun fəaliyyətinə xitam verildikdə, onun işlədiyi notariat ofisi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edilə bilər.

Fəaliyyətinə xitam verilmiş xüsusi notarius aparılmış notariat hərəkətləri barədə sənədləri bir aydan gec olmayaraq dövlət notariat arxivinə təhvil verməlidir.

Notariat sənədləri dövlətə məxsusdur. Xüsusi notarius işləmiş şəxs notariat hərəkətləri barədə sənədlərin təhvil verilməməsinə görə inzibati məsuliyyət daşıyır.”.

7. Aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**“Maddə 7-1. Xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması**

Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə aşağıdakı hallarda xüsusi notarius vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılır:

1) qəsdən cinayət törətməyə görə təqsirləndirilən şəxs qismində cəlb edildikdə;

2) notarius 6 ayadək müddətdə əmək qabiliyyətini fasiləsiz olaraq itirdikdə;

3) notarius sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;

4) notarius siyasi partiyada öz fəaliyyətini dayandırmadıqda.

Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış xüsusi notarius notariat fəaliyyətinin icrasına buraxılmır və bu qanunun 25-1-ci maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən onu əvəz edən şəxs təyin edilir.

Notarius sahibkarlıq fəaliyyəti ilə məşğul olması və siyasi partiyada öz fəaliyyətini dayandırması halları ilə bağlı vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıldıqda, bu halları 10 gün müddətində aradan qaldırmalıdır.

Xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması üçün mövcud olan əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notarius vəzifələrinin icrasına buraxılır.”.

8. 10-cu maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 10. Notariusun şəxsi möhürü, ştampı və blankları**

Azərbaycan Respublikasında hər bir notariusun, habelə vakant xüsusi notarius vəzifəsini icra edən köməkçinin ona məxsus gerbli möhürü, təsdiq qeydləri ştampları, işlədiyi notariat ofisinin künc ştampı və blankları olmalıdır.

Notariusun möhüründə notariusun soyadı, adı, atasının adı və işlədiyi notariat ofisinin adı göstərilməlidir.

Notarius müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariat hərəkətlərinin aparılması üçün müəyyən edilən, Dövlət gerbinin təsviri əks olunmuş blanklardan istifadə etməlidir.

Notariusun elektron imzası olmalıdır.

Xüsusi notariusun möhürü, ştampları, blankları, o cümlədən etibarnamə və müqavilə blankları, habelə elektron imzası onun müvəqqəti olmadığı dövrdə yalnız onu əvəz edən köməkçiyə verilə bilər.

Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış xüsusi notariusun möhürü və elektron imza sertifikatı bu qanunun 25-1-ci maddəsinin ikinci hissəsində göstərilən hal istisna olmaqla, saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına təhvil verilir.

Korlanmış, qüvvədən düşmüş, yaxud istifadə olunmayan möhür, ştamp və blanklar müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhv edilir.”.

9. 14-cü maddə üzrə:

9.1. beşinci hissə müvafiq olaraq altıncı hissə hesab edilsin və aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Yoxlamanın və ya şikayətin araşdırılmasının nəticəsindən asılı olaraq, xüsusi notarius barəsində intizam icraatı başlanıla bilər, dövlət notariusuna münasibətdə isə bu qanunun 16-cı maddəsinə uyğun olaraq ədliyyə orqanları işçisinin intizam məsuliyyətinə cəlb edilməsi qaydası tətbiq olunur.”;

9.2. aşağıdakı məzmunda yeddinci və səkkizinci hissələr əlavə edilsin:

“Xüsusi notariusun işçisi tərəfindən qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edildikdə, onun barəsində intizam tədbirlərinin görülməsi, o cümlədən əmək müqaviləsinə xitam verilməsi barədə müvafiq icra hakimiyyəti orqanı notariusa göstəriş verir.

Xüsusi notariusla işçiləri arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi və bu qanunla tənzimlənir.”.

10. 16-cı maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Dövlət notariusu vəzifəsi vakant olduqda, həmin vəzifənin icrası müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən digər ədliyyə işçisinə 18 ay müddətinə həvalə edilə bilər.”.

11. 17-ci maddənin birinci hissəsinin 13-cü bəndinə “ərizələrini” sözündən sonra “və sənədlərini” sözləri əlavə edilsin.

12. 20-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Dövlət notariat ofisinin ştat cədvəlini və iş qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.”.

13. 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 22. Xüsusi notariusun peşə məsuliyyətinin icbari sığortası**

Xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsi zamanı vurula biləcək ziyanın ödənilməsini təmin etmək məqsədilə belə fəaliyyətlə məşğul olmaq istəyən şəxs öz məsuliyyətini sığortalamalıdır.

Notarius baş vermiş sığorta hadisəsi barədə 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.”.

14. 23-cü maddə üzrə:

14.1. birinci hissədə “5” rəqəmi “1” rəqəmi ilə əvəz edilsin;

14.2. ikinci hissədə “sığorta girovundakı vəsait” sözləri “bu qanunun 22-ci maddəsinə əsasən müəyyən edilmiş sığorta məbləği” sözləri ilə əvəz edilsin.

15. 24-cü və 25-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**“Maddə 24. Xüsusi notariusun təyin olunması və qeydiyyatı**

Notariat fəaliyyətinin həyata keçirilməsi üçün şəhadətnamə almış və icbari sığorta müqaviləsini bağlamış şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notarius təyin edilir və ona qeydiyyat vəsiqəsi verilir.

Müvafiq icra hakimiyyəti orqanı xüsusi notariusun qeydiyyat vəsiqəsini şəhadətnaməyə malik olan şəxsdən müvafiq ərizəni, xüsusi notarius kimi fəaliyyət göstərəcəyi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış yer barədə sənədi və icbari sığorta müqaviləsinin surətini qəbul etdikdən sonra 10 gün müddətində verməlidir.

Xüsusi notariusun qeydiyyat vəsiqəsində onun etibarlılıq müddəti göstərilməlidir.

Müvafiq icra hakimiyyəti orqanı xüsusi notariusa qeydiyyat vəsiqəsinin verilməsindən dərhal sonra onun iş yeri üzrə müvafiq icra hakimiyyəti orqanına bu barədə müvafiq məlumat verməlidir.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariusun fəaliyyət göstərdiyi ərazi dairəsində dəyişiklik edilə bilər.

Xüsusi notarius qeydiyyat vəsiqəsini aldıqdan sonra 1 ay ərzində üzrlü səbəb olmadan və bu müddətin sonuncu günü müvafiq icra hakimiyyəti orqanı tərəfindən ona yazılı surətdə edilmiş rəsmi xəbərdarlığı nəzərə almadan 10 gün ərzində göstərilmiş iş yeri üzrə notariat fəaliyyətinin həyata keçirilməsinə başlamazsa, onun şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edilir.

**Maddə 25. Xüsusi notariusun işinin təşkili**

Xüsusi notarius öz fəaliyyətini notariat hərəkətlərinin aparılması üçün münasib olan, özünə məxsus və ya icarəyə götürülmüş və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış ayrıca yerdə həyata keçirməlidir.

Hər bir xüsusi notariusun ofisi olmalıdır. İki və ya daha çox notarius müvafiq icra hakimiyyəti orqanının razılığı ilə aralarında bağlanılmış müqavilə üzrə bir ofisdə fəaliyyət göstərə bilərlər. Bu müqavilədə notariat ofisinə rəhbərlik edilməsi, notariat hərəkətlərinin aparılmasına dair iş bölgüsü, notariusların vahid və ya hər bir notariusun cari bank hesabının açılması, kargüzarlıq və mühasibatlığın aparılması, habelə birgə fəaliyyət ilə bağlı digər məsələlər əks olunur.

Xüsusi notarius mülki-hüquqi müqavilələr və əmək müqavilələri (kontraktlar) bağlaya bilər, banklarda hesablaşma və digər hesablar, o cümlədən valyuta hesabı aça bilər.

Xüsusi notarius ödənişli əsaslarla müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariat hərəkətlərinin aparılması üçün tətbiq edilən blanklardan və bu qanunun 43-cü maddəsində göstərilmiş notariat hərəkətlərinin qeydi üçün reyestrlərdən istifadə edir.

Notariat ofisinin işçilərinin əməyinin ödənilməsi, istirahət vaxtı və məzuniyyət hüquqları Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun müəyyən edilir.

Xüsusi notariusun ezamiyyətə və ya məzuniyyətə getməsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

Xüsusi notariusun iş rejimi, xüsusi notariat ofisinin ştat cədvəli və xüsusi notarius tərəfindən işə qəbul olunan namizədlər müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

Xüsusi notariusun köməkçisinin təyin olunması bu qanunun 25-1-ci maddəsi ilə tənzimlənir.

Notariat fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməyə yönəlmir.

Vergilər və digər məcburi ödəmələr ödənildikdən sonra notariat hərəkətlərinin aparılmasına görə tutulan haqdan və bu qanunun 20-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş xidmətlərə görə alınan haqdan qalan pul vəsaitləri xüsusi notariusun sərəncamında qalır.

Xüsusi notarius tərəfindən müraciət edən şəxslərin xahişi ilə onlarla notariat hərəkətlərinin iş vaxtından sonra, istirahət və ya bayram günlərində aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Notariat ofisinə gəlmədən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində notariat hərəkətlərinin aparılmasına görə haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş meyarlar əsasında hər bir xüsusi notariusun özü tərəfindən müəyyən edilir.”.

16. Aşağıdakı məzmunda 25-1-ci maddə əlavə edilsin:

**“Maddə 25-1. Xüsusi notariusun köməkçisinin təyin olunması və xüsusi notariusun əvəz edilməsi**

Xüsusi notarius köməkçi vəzifəsinə bu qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən namizədlə bağlı müvafiq icra hakimiyyəti orqanına müraciət edir. Bu qanunun 5-ci maddəsinə uyğun olaraq keçirilmiş imtahan və müsahibədən müvəffəqiyyət qazanmış namizəd xüsusi notarius tərəfindən işə qəbul edilir.

Xüsusi notarius köməkçisinə aşağıdakıları həvalə edə bilər:

1) notariat hərəkətinin aparılması üçün sənədlərin hazırlanmasında iştirak etmək;

2) notariat ofisinin əməkdaşları tərəfindən əmək müqaviləsi ilə müəyyən edilmiş şərtlərin, öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək;

3) notariat hərəkətinin aparılması ilə bağlı müraciət etmiş şəxsləri qəbul etmək və qanunvericiliyin tələblərini izah etmək;

4) xüsusi notariusun verdiyi digər tapşırıqları icra etmək.

Xüsusi notarius 5 gündən artıq müddətdə ezamiyyətə və ya məzuniyyətə getdikdə müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla həmin müddətdə əvəz olunmasını köməkçisinə həvalə edə bilər. Xüsusi notarius 5 gündən 6 ayadək müddətdə əmək qabiliyyətini fasiləsiz itirdikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin müddətdə onun əvəz olunması həmin notariat ofisində işləyən köməkçiyə həvalə oluna bilər.

Xüsusi notariusun müvəqqəti olmadığı dövrdə köməkçi əvəz etdiyi xüsusi notariusun adından və onun möhüründən istifadə etməklə notariat hərəkətlərini aparır.

Əvəz edən köməkçinin əməyi xüsusi notariusun hesabına ödənilir.

Köməkçinin vurduğu ziyana görə əvəz etdiyi xüsusi notarius onunla birlikdə subsidiar məsuliyyət daşıyır.

Xüsusi notariusun əvəz olunduğu müddət onun şəhadətnaməsinin qüvvədə olduğu müddətlə məhdudlaşır.

Əvəz olunduğu müddət ərzində xüsusi notarius vəzifə səlahiyyətlərinin icrasını həyata keçirə bilməz.

Xüsusi notarius vəzifəsi vakant olduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu vəzifənin icra edilməsi 1 ildən artıq olmamaqla, həmin ofisdə köməkçi vəzifəsində ən azı 3 il işləyən şəxsə və ya digər xüsusi notariusa həvalə edilə bilər.

Vəzifəni icra edən köməkçi:

1) səlahiyyətlərinin icrasına başlamazdan əvvəl xüsusi notarius kimi and içməli;

2) notariat hərəkətlərini bu qanuna riayət etməklə, öz adından və özünə məxsus möhürdən istifadə etməklə aparmalı;

3) vurduğu ziyana görə xüsusi notarius üçün müəyyən edilmiş qaydada peşə məsuliyyətini icbari sığorta etdirməlidir.

Onun əməyinin ödənilməsi bu qanunun 25-ci maddəsinin onuncu hissəsi ilə müəyyən edilmiş vəsait hesabına həyata keçirilir.

Vəzifəni icra edən köməkçi notarius olmaq istədikdə, bu qanunun 4-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq peşə hazırlığına dair müsahibədən keçməlidir.”.

17. 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 26. Xüsusi notariusun apardığı notariat hərəkətləri**

Xüsusi notarius bu qanunun 17-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərini aparır.”.

18. Aşağıdakı məzmunda 26-1-ci və 26-2-ci maddələr əlavə edilsin:

**“Maddə 26-1. Xüsusi notariusun intizam məsuliyyətinə cəlb edilməsi**

Xüsusi notarius notariat hərəkətlərinin aparılması zamanı tətbiq edilən qanunvericiliyin tələblərini, habelə əmək və icra intizamını pozduğuna görə onun barəsində intizam tənbehinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyət verdiyi vəzifəli şəxs tərəfindən həyata keçirilir.

İntizam pozuntusunun mövcudluğuna dair məlumat olduqda müvafiq icra hakimiyyəti orqanı tərəfindən araşdırma aparılır, xüsusi notariusdan yazılı izahat alınır. Xüsusi notariusun izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiq edilməsinə mane olmur. İntizam pozuntusu ilə bağlı əsaslı şübhələr olduqda və yerində araşdırılması zəruri olan hallar yarandıqda müvafiq icra hakimiyyəti orqanı notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumu vasitəsilə yoxlama təyin edir. Yoxlama bu qanunun 14-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş qaydalara uyğun aparılır.

Aparılan araşdırmanın nəticəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notariusa vəzifə funksiyalarının pozulması dərəcəsindən asılı olaraq intizam tənbehi kimi töhmət verilə, min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə tətbiq edilə, həmçinin bu qanunun 7-ci maddəsində nəzərdə tutulmuş hallara müvafiq olaraq xüsusi notariusun şəhadətnaməsi ləğv edilə bilər.

Cərimə üzrə məbləğlər bu qanunun 26-2-ci maddəsində nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün Notariat Palatasının bank hesabına köçürülür.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən cərimə tətbiq edilməsinə dair verilmiş bildiriş üzrə borc ödənilmədikdə xüsusi notariusun milli və ya xarici valyutada cari və ya digər hesablarından vəsaitin müvafiq hesaba köçürülməsi haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verilir.

Xüsusi notariusa intizam tənbehi bu maddədə nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən iki ay keçənədək verilə bilər. Xüsusi notariusun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

İntizam tənbehinin tətbiqinə əsas yaradan əməl törədildiyi gündən bir il keçdikdən sonra xüsusi notariusa intizam tənbehi verilə bilməz.

Töhmət intizam tənbehi verildiyi gündən bir il müddətində qüvvədə olur.

İntizam tənbehinin verilməsi əmrlə rəsmiləşdirilir. Verilmiş əmr üç gün ərzində xüsusi notariusa elan olunur və əmrin surəti ona təqdim edilir.

Xüsusi notarius intizam tənbehi tətbiq edilməsi barədə əmrdən inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

Aparılan araşdırmanın nəticəsinə uyğun olaraq xüsusi notariusa intizam tənbehi tətbiq olunmadan yazılı və ya şifahi xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi hesab edilmir.

**Maddə 26-2. Notariat Palatası**

Notariat Palatası (bundan sonra - Palata) notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə, notariusların məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

Palatanın möhürü, emblemi, bank hesabı, müvafiq ştampları və blankları vardır.

Palata bu qanun və nizamnaməsi əsasında fəaliyyət göstərir.

Nizamnamə Palatanın Ümumi yığıncağında qəbul edilir və müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

Palatanın idarə olunması qaydası onun nizamnaməsi ilə müəyyən edilir.

Palatanın aşağıdakı səlahiyyətləri vardır:

1) müvafiq icra hakimiyyəti orqanına notariat fəaliyyətinin səmərəli təşkilində yardım etmək;

2) notariusların peşə hazırlığının artırılması məqsədilə təlimlərin və notarius olmaq istəyən şəxslərin hazırlığının təşkilində iştirak etmək;

3) notariat təcrübəsinin formalaşdırılması üçün notariat hərəkətləri üzrə ümumiləşdirmələr aparmaq;

4) notariat fəaliyyətini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanına təkliflər vermək;

5) digər ölkələrin notariusları, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

Müvafiq icra hakimiyyəti orqanı Palatanın üzvünü notariat fəaliyyətinin yoxlanılmasına cəlb edə bilər.

Palatanın üzvləri üçün üzvlük haqqının məbləği, bu məbləğin ödənilməsi müddəti və qaydaları Palatanın nizamnaməsi ilə müəyyən olunur.

Palata müvafiq icra hakimiyyəti orqanına illik hesabat verir.

Müvafiq icra hakimiyyəti orqanının rəhbəri Palatanın qanunvericiliyə zidd qərarına düzəliş edilməsini tövsiyə edə bilər.

Palata notariusların beynəlxalq təşkilatlarına üzv ola bilər.”.

19. 29-cu maddə üzrə:

19.1. birinci hissədə “Dövlət notariusları” sözləri “Notariuslar” sözü ilə, “6-cı və 8-ci” sözləri “6-8-ci” sözləri ilə əvəz edilsin;

19.2. ikinci-altıncı hissələr müvafiq olaraq dördüncü-səkkizinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

“Notariuslar bu qanunun 17-ci maddəsinin birinci hissəsinin 1-ci və 7-ci bəndlərində nəzərdə tutulmuş notariat hərəkətlərinin ölkə ərazisində real vaxt rejimində videoyazı vasitəsilə (bundan sonra - videoyazı vasitəsilə) rəsmiləşdirilməsinə görə həmin hərəkətlərin aparılması üçün müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar.

Notariuslar bu qanunun 49-cu və 67-ci maddələrində nəzərdə tutulan notariat hərəkətlərinin xaricdə olan şəxslə videoyazı vasitəsilə həyata keçirilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 16.6.1-ci və 16.6.6-cı maddələri ilə müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar.”.

20. 32-ci maddənin onuncu, on birinci və on ikinci hissələri müvafiq olaraq on ikinci, on üçüncü və on dördüncü hissələr hesab edilsin və aşağıdakı məzmunda onuncu və on birinci hissələr əlavə edilsin:

“Kredit büroları haqqında” Azərbaycan Respublikası Qanununun 16.1.10-cu və 16.1.11-ci maddələrində nəzərdə tutulmuş neqativ məlumatlar notariusların fəaliyyətlərinə aid olan hissədə müvafiq icra hakimiyyəti orqanı vasitəsilə “Elektron hökumət” portalında yerləşdirilir.

Lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, lisenziyanın və icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin elektron qaydada həyata keçirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məlumatlar lisenziya və icazə verən orqan tərəfindən müvafiq icra hakimiyyəti orqanının “Elektron notariat” informasiya sistemi vasitəsilə yoxlanılır.”.

21. 33-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 33. Notariat hərəkətlərinin aparıldığı yer**

Notariat hərəkətləri qanunvericiliyə əsasən dövlət notariusunun, xüsusi notariusun, müvafiq icra hakimiyyəti orqanının və ya Azərbaycan Respublikası konsulluqlarının vəzifəli şəxslərinin müvafiq yerdə aparmalı olduğu hallar istisna edilməklə, Azərbaycan Respublikasının bütün ərazisində aparıla bilər.

Notariat hərəkətləri notariat ofisində, müvafiq icra hakimiyyəti orqanı və Azərbaycan Respublikasının konsulluqları yerləşən binada aparılmalıdır.

Şəxs notariat ofisinə gəlmədən, əvvəlcədən verilmiş bildiriş üzrə dövlət rüsumu və haqlar ödənilməklə notariat hərəkətləri notariat ofisindən kənarda da aparıla bilər.

Şəxs notariat ofisinə gələ bilmədiyi hallarda verilmiş bildiriş əsasında notariat hərəkətinin aparılması vaxtı (tarix və saat) razılaşdırıldıqdan, dövlət rüsumu və haqq ödənildikdən sonra bu qanunla müəyyən edilmiş notariat hərəkətləri notariat ofisindən kənarda olan müraciət etmiş şəxslə videoyazı vasitəsilə aparıla bilər.

Notariuslar müvafiq icra hakimiyyəti orqanının “Elektron notariat” informasiya sistemindən istifadə edirlər.”.

22. 34-cü maddənin birinci hissəsinə “təqdim olunduğu” sözlərindən sonra “, habelə informasiya sistemlərindən əldə edildiyi” sözləri əlavə edilsin.

23. 45-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Notariuslar “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə almaqla, müqavilələrin elektron formada tərtib edilməsinə və imzalanmasına, onların, habelə videoyazı vasitəsilə əqdlərin təsdiq edilməsinə dair notariat hərəkətlərini bu qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.”.

24. 46-cı maddənin beşinci hissəsi ləğv edilsin.

25. 49-cu maddənin ikinci-altıncı hissələri müvafiq olaraq üçüncü-yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Notariuslar videoyazı vasitəsilə etibarnamələrin təsdiq edilməsinə dair notariat hərəkətlərini bu qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.”.

26. 67-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Notariuslar tərəfindən videoyazı vasitəsilə ərizələrdə imzanın həqiqiliyinin təsdiq edilməsi ilə bağlı notariat hərəkətlərini bu qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.”.

27. 73-cü maddə üzrə:

27.1. adında “ərizələrinin” sözündən sonra “və sənədlərinin” sözləri əlavə edilsin;

27.2. birinci hissədə “ərizələrini” sözü “kağız və ya elektron daşıyıcıda olan ərizələrini və ya sənədlərini” sözləri ilə əvəz edilsin;

27.3. ikinci hissəyə “Ərizələr” sözündən sonra “və sənədlər kağız daşıyıcıda” sözləri əlavə edilsin və həmin hissənin ikinci cümləsi çıxarılsın;

27.4. üçüncü hissə ləğv edilsin;

27.5. aşağıdakı məzmunda üçüncü-beşinci hissələr əlavə edilsin:

“Kağız daşıyıcıda təqdim olunan ərizələr və ya digər sənədlər notarius tərəfindən başqa şəxslərə, həmçinin texniki vasitələrdən istifadə etməklə informasiya sistemləri vasitəsilə də verilə bilər. Bu halda notarius kağız daşıyıcıda təqdim olunmuş ərizə və ya digər sənəd əsasında onun elektron nüsxəsini hazırlayır. Kağız daşıyıcıda olan ərizə və ya digər sənəd ilə hazırlanmış sənədin elektron nüsxəsinin eyniləşdirilməsi notariusun elektron imzası ilə təsdiq edilir.

Elektron formada təqdim olunan ərizələrin və ya digər sənədlərin məzmunu notarius tərəfindən hazırlanan kağız daşıyıcıya keçirilərək eyniləşdirilə bilər. Bu halda notarius ərizəni və ya digər sənədi göndərən şəxsin elektron imzasını “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlayır, onu kağız daşıyıcıda çap edərək imzası və möhürü ilə təsdiq edir. Elektron ərizə və ya digər sənəd kağız daşıyıcıya keçirildikdən sonra bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş qaydada göndərilir.

Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamə verilir.”.

28. 74-cü maddədə dördüncü, beşinci və altıncı hissələr müvafiq olaraq beşinci, altıncı və yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Daşınmaz əmlaka və daşınar əmlakın rəsmi reyestrlərində qeydə alınan əmlaka sərəncam verilməsi, habelə pul bağışlanılması, beh və borc verilməsi, eləcə də ilkin müqavilə üzrə ödənilən məbləğlə bağlı müqavilələr notariat qaydasında təsdiq edilərkən, pul vəsaitinin tərəflərdən birinin digərinə verilməsi və qaytarılması notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin on birinci hissəsinə uyğun olaraq, xüsusi notarius tərəfindən müraciət edən şəxslərin xahişi ilə notariat hərəkətlərinin iş vaxtından sonra, istirahət və ya bayram günlərində aparılması qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin qanunun 25-ci maddəsinin on ikinci hissəsinə uyğun olaraq, notariat ofisinə gəlmədən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində notariat hərəkətlərinin aparılmasına görə haqqın məbləğinin xüsusi notariuslar tərəfindən müəyyən edilməsi meyarlarını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin on birinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin qanunun 3-cü maddəsinin səkkizinci hissəsində (ikinci halda), 4-cü maddəsinin beşinci hissəsində, 7-ci maddəsinin birinci, ikinci, dördüncü hissələrində, 7-1-ci maddəsinin birinci, ikinci, dördüncü hissələrində, 10-cu maddəsinin üçüncü, altıncı, yeddinci hissələrində, 14-cü maddəsinin yeddinci hissəsində, 16-cı maddəsinin üçüncü hissəsində, 20-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin ikinci hissəsində, 24-cü maddəsinin birinci, ikinci (hər iki halda), dördüncü (birinci halda), beşinci və altıncı (hər iki halda) hissələrində, 25-ci maddəsinin birinci, ikinci, dördüncü, altıncı, yeddinci, on birinci, on ikinci hissələrində, 25-1-ci maddəsinin birinci hissəsində, üçüncü hissəsinin birinci və ikinci cümlələrində, doqquzuncu hissəsində, 26-1-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci və üçüncü cümlələrində, üçüncü, beşinci hissələrində, 26-2-ci maddəsinin dördüncü hissəsində, altıncı hissəsinin 1-ci və 4-cü bəndlərində, yeddinci, doqquzuncu, onuncu hissələrində, 32-ci maddəsinin onuncu, on birinci (ikinci halda) hissələrində, 33-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.3. həmin qanunun 24-cü maddəsinin dördüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Vergilər Nazirliyinin yerli qurumları həyata keçirirlər;

3.4. həmin qanunun 33-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri həyata keçirirlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2018-ci il*

# Türkdilli Ölkələrin Parlament Assambleyasının plenar iclası İzmir Bəyannaməsinin qəbul olunması ilə başa çatıb

## Azərbaycan Milli Məclisi Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib

Noyabrın 21-də Türkiyənin İzmir şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 8-ci plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Nizami Cəfərov, İlham Əliyev, Sevinc Hüseynova, Sədaqət Vəliyeva, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil olub.





Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Binəli Yıldırımın sədrliyi ilə keçirilən iclasa təşkilata digər üzv ölkələrin - Türkiyə, Qazaxıstan və Qırğızıstanın, həmçinin Macarıstan və Özbəkistan parlamentlərinin nümayəndə heyətləri, o cümlədən türk dünyasının birliyi və inkişafı istiqamətində fəaliyyət göstərən, eləcə də TÜRKPA-ya tərəfdaş olan təşkilatların rəhbərləri qatılıblar.

Çıxışında türk dünyasının birliyi və əməkdaşlığının faydalarından danışan TBMM-in sədri Binəli Yıldırım qeyd edib ki, uzun illər bir-birindən aralı düşən türkdilli xalqların həyatında baş verən fərqlilik xalqlarımızın zənginliyinə çevrilib. TÜRKPA-nın iclasında digər dəyərli qonaqlarla bərabər, Macarıstan və Özbəkistan parlamentlərinin nümayəndə heyətlərinin də iştirakı assambleyanın gələcəkdə daha uğurlu fəaliyyətinə olan inamı artırır. Parlament sədri deyib ki, birlikdə qüvvət var. Əminəm ki, yaxın gələcəkdə sıralarımız genişlənəcək və daha böyük uğurlara imza atacağıq. Ötən on ildə böyük inkişaf yolu keçən TÜRKPA tarixi əhəmiyyətli hədəflərə doğru irəliləyir.

Çıxışında türkdilli dövlətlərin siyasi fəallığının dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərdiyini diqqətə çatdıran Milli Məclisin Sədri Oqtay Əsədov qeyd edib ki, tarixin ən qüdrətli dövlətlərinə həyat vermiş, eyni zamanda, Şərq və Qərb mədəniyyətləri və sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlayıblar. Sədr deyib: "Müasir dünya ölkələrinin, o cümlədən türkdilli dövlətlərin hər birinin özünəməxsus parlament diplomatiyası tarixi var. Azərbaycanda ilk parlament XX əsrin əvvəllərində yaradılıb. Bu parlamentin fəaliyyəti müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və hüquqi təməlini qurmaqla yanaşı, ölkəmizdə parlamentarizm ənənələrinin inkişafında son dərəcə mühüm rol oynayıb. O dövrdə "parlament diplomatiyası" termini olmasa da, Azərbaycan dövlətinin xarici siyasətində parlament diplomatiyası vasitələrindən geniş istifadə edilirdi. Təkcə bir faktı qeyd edim ki, 1919-1920-ci illərdə Paris Sülh Konfransında Azərbaycanı təmsil edən nümayəndə heyətinə parlamentin sədri Əlimərdan bəy Topçubaşov başçılıq edirdi".

TÜRKPA-ya üzv olan hər bir dövlətin uğurunun digər dövlətlərin də uğuru olduğunu vurğulayan Milli Məclisin Sədri qeyd edib ki, bizim dövlətlərimiz siyasi, iqtisadi və hərbi cəhətdən nə qədər güclü olarlarsa, onların ümumi işimizə verə biləcəyi töhfələr də bir o qədər böyük olar.

Azərbaycanda həyata keçirilən siyasətin ölkəmizi müasir dünyanın dinamik inkişaf edən dövlətlərinin sırasına qoşduğunu vurğulayan Oqtay Əsədov qeyd edib ki, Xəzər neftini və qazını dünya bazarlarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri istifadəyə verilib. Azərbaycanın və Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi vasitəsilə dünya bazarlarına nəql edilir. Avropanın enerji xəritəsi yenidən formalaşdırılır. Dünya tarixində ilk transkontinental ticarət-kommunikasiya marşrutu olan Böyük İpək yolu bərpa edilir. Ötən il İpək yolunun fəaliyyəti üçün böyük önəmi olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Araşdırmalar göstərir ki, bu layihə Çindən Avropaya tranzit müddətini 30-35 gündən iki həftəyə qədər azalda bilər.



Beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı məsələlərin müzakirəsində nümayəndə heyətimizi dəstəkləyən bütün ölkələrin, xüsusən türkdilli dövlətlərin təmsilçilərinə bir daha təşəkkürünü bildirən Milli Məclisin Sədri, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üçün səylərimizdə daim bizimlə birlikdə olan qardaş Türkiyəyə minnətdarlıq ifadə edib.

Ötən dövrdə TÜRKPA-nın böyük inkişaf yolu keçdiyini diqqətə çatdıran Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin qeyd edib ki, əməkdaşlıq əlaqələrinin genişlənməsi, həyata keçirilən hər bir layihə növbəti layihələrin əsasını qoyur. Bu mənada TÜRKPA və onun bütün strukturlarının fəaliyyəti türkdilli dövlətlər arasında əməkdaşlığın genişlənməsi, daha böyük faydalar əldə olunmasına əhəmiyyətli təsir göstərir.

Türkdilli dövlətlər arasında əməkdaşlığın bütün üzv ölkələrin maraq və mənafelərini təmin etdiyini söyləyən Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekov qeyd edib ki, türkdilli dövlətlər arasında əlaqələrin inkişafının qorunması üçün parlament diplomatiyasının gücləndirilməsinə böyük ehtiyac var. Bu diplomatiya türkdilli xalqlar arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirir.

Türkdilli dövlətlərlə əməkdaşlığın əhəmiyyətindən bəhs edən Macarıstan parlamentinin sədri Laszlo Köver bildirib ki, ölkəsi xarici siyasətində türkdilli xalqlarla dostluq və əməkdaşlığa xüsusi diqqət yetirir. Macarların türkdilli xalqların ənənələrinə önəm verməsi təkcə mədəni və tarixi yaxınlıqla deyil, həmçinin mənəvi, geosiyasi və iqtisadi maraqlarla bağlıdır.

TÜRKPA-nın plenar iclasında qonaq statusu ilə iştirak etməkdən məmnunluğunu ifadə edən Özbəkistanın Qanunçuluq Palatası Sədrinin müavini Xatamjan Dexgonov qurumun ali orqanının iclasında iştiraka dəvətə görə təşəkkürünü bildirib. Ötən dövrdə TÜRKPA-nın mühüm inkişaf yolu keçərək üzv ölkələrə fayda gətirdiyini diqqətə çatdıran Xatamjan Dexgonov təşkilatın gələcək fəaliyyətinə uğurlar arzulayıb. O, əminliklə deyib ki, parlamentlər arasında əlaqələrin inkişafı türkdilli xalqların maraqlarını təmin edir.

Rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi layihələr barədə məlumat verən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Bağdad Amreev TÜRKPA ilə Türk Şurasının əlaqələrinin əhəmiyyətindən danışıb. Baş katib əminliklə ifadə edib ki, Türkiyənin sədrliyi dövründə hədəflərə çatmaq üçün fəaliyyət istiqamətləri daha da genişlənəcək.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) baş katibi Asəf Hacıyev qeyd edib ki, bölgə üçün olduqca böyük layihələrin həyata keçirilməsinə baxmayaraq, inkişaf və tərəqqi üçün mane olan təhlükəli məsələlər var. Münaqişələr, qaçqın və məcburi köçkün problemləri əməkdaşlıq üçün başlıca problemə çevrilib. Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün var, Türkiyə üç milyon qaçqına sığınacaq verib, hökumətlər onların gündəlik xərcini qarşılayır. Dünya ictimaiyyəti bunları görmürmü? Müasir dünyanın sürətlə dəyişdiyini və yeniləndiyini qeyd edən Asəf Hacıyev bildirib ki, kənar təsirlərə davam gətirməyin yolu yüksək elm və təhsildən keçir. Bu mənada elm və təhsil sahəsində əlaqələrin genişlənməsi birgə əməkdaşlığın əsasıdır.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) həyata keçirdiyi layihələrin əhəmiyyətindən danışan qurumun baş katibinin müavini Firat Purtaş diqqətə çatdırıb ki, TÜRKSOY ortaq dil, mədəniyyət, tarixi mirasların qorunması və inkişafı baxımından böyük uğurlar qazanıb. Bu baxımdan təşkilatın həyata keçirdiyi ən mühüm strategiyalardan biri "Türk dünyası mədəniyyət paytaxtı" layihəsidir. Astanadan başlanan bu proses çərçivəsində hazırda Türkiyənin Kastamonu şəhəri dünyaya tanıdılır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə bağlı sənədlərin təsdiq üçün üzv ölkələrin parlamentlərinə göndərildiyini diqqətə çatdıran qurumun prezidenti Günay Əfəndiyeva bu prosesin sürətləndirilməsinin zəruriliyini bildirib. O qeyd edib ki, rəhbərlik etdiyi fond türkdilli xalqların mədəniyyəti və mirası məsələləri ilə bağlı problemləri zamanında ortaya çıxararaq, onların səbəblərini müəyyən edərək problemləri aradan qaldırmağı qarşısına məqsəd qoyub. Türk dünyasına sahib olduğu mədəni irsi araşdırmaq, onları dünyada tanıtmaq və gələcək nəsillərə çatdırmaq Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun başlıca məqsədidir. Azərbaycan Milli Məclisinin TÜRKPA-nın inkişafına böyük töhfələr verdiyini diqqətə çatdıran Günay Əfəndiyeva təbriklərini çatdıraraq bu il Azərbaycan parlamentinin 100 illiyi qeyd edildiyi kimi, 90 il sonra da TÜRKPA-nın 100 illiyinin qeyd olunmasını arzulayıb.

İslam Əməkdaşlıq Təşkilatının, Xoca Əhməd Yasəvi Beynəlxalq Türk-Qazax Universitetinin, Türk Dünyası Mühəndislər və Memarlar İctimai Birliyinin, Dünya Türk Gəncləri Birliyinin nümayəndələri də yubiley təbriklərini çatdıraraq TÜRKPA ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiklərini vurğulayıblar.

Çıxışlarda Türkdilli Ölkələrin Parlament Assambleyasının ötən dövrdəki fəaliyyəti yüksək qiymətləndirilib.

Plenar iclasda təşkilati məsələlərə də baxılıb.

Sonra TÜRKPA-nın komissiyalarının hesabatları, o cümlədən Türkdilli Ölkələrin Parlament Assambleyasının ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri, Azərbaycan Milli Məclisinin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və qurumun sosial, mədəni və humanitar komissiyasının sədr müavini Sevinc Hüseynovanın hesabatları dinlənilib və qəbul olunub.

Qərara alınıb ki, Türkdilli Ölkələrin Parlament Assambleyasının 9-cu plenar iclası 2019-cu ilin sentyabrında Azərbaycanda keçirilsin.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırım, Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov, Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin Sədri Dastanbek Cumabekov birgə mətbuat konfransı keçiriblər.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə təsis olunan TÜRKPA-nın ötən dövrdə böyük inkişaf yolu keçdiyini xatırladan parlament sədrləri təşkilatın qarşıya qoyduğu məqsədlərə doğru əzmlə irəlilədiyini söyləyiblər. Bildirilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Bakıda TÜRKPA üçün hərtərəfli şəraitin yaradılması təşkilatın səmərəli fəaliyyətinə böyük təsir göstərir. Vurğulanıb ki, Türkdilli Ölkələrin Parlament Assambleyasının sırasının genişlənməsi bütün üzvlərin arzu və maraqlarını əks etdirir. Əminliklə bildirib ki, gələcəkdə Özbəkistan və Türkmənistan TÜRKPA və türkdilli ölkələrin və xalqların birliyi naminə çalışan digər təşkilatlarda üzv kimi təmsil olunacaqlar.

# Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin altıncı görüşü keçirilib





Noyabrın 21-də Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

Görüşün gündəliyinə Əfqanıstan İslam Respublikasındakı vəziyyət, həmin ölkədə fəaliyyət göstərən terrorçu təşkilatların MDB-nin üzvü olan dövlətlərin təhlükəsizliyinə törətdiyi təhdidlər, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə əməkdaşlıq, MDB məkanında bioloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlər daxil olunmuşdu.

Tədbir çərçivəsində, həmçinin informasiya və kommunikasiya texnologiyalarından cinayətkar məqsədlər üçün istifadənin qarşısının alınması sahəsində təşəbbüslər, faşizmin qəhrəmanlaşdırılmasının yolverilməzliyi və bir sıra digər məsələlərə dair məruzələr dinlənilib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tədbirdə məruzə ilə çıxış edib, müzakirə olunan sahələr üzrə Azərbaycan Respublikasının müsbət təcrübəsi barədə məlumat verib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, həmçinin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə təhlükəsizliyin təmin edilməsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib.

# BMT-nin Sivilizasiyalar Alyansının Nazirlər Konfransında "Bakı Prosesi"nin təqdimatı olub



BMT-nin Sivilizasiyalar Alyansının Nyu Yorkda keçirilən Nazirlər Konfransı çərçivəsində "Bakı Prosesi"nin təqdimatı olub.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, konfransda BMT-nin baş katibi, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi və üzv ölkələrdən yüksək səviyyəli rəsmilər iştirak ediblər.

Konfransda çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev müasir dünyada gedən proseslər, Azərbaycanın dünya miqyasında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr, həyata keçirdiyi layihələrə diqqət çəkib. Nazir çıxışında Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə "Bakı Prosesi"nin, 2010-cu ildə isə BMT-nin Baş Assambleyasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun irəli sürüldüyünü bildirib. O qeyd edib ki, bu gün "Bakı Prosesi" BMT-nin dörd ixtisaslaşmış beynəlxalq təşkilatının tərəfdaşlıq etdiyi yeganə platformadır. Bu fakt 2017-ci ildə BMT-nin baş katibi tərəfindən xüsusi qeyd olunaraq ötən ilin dekabr ayında BMT-nin qəbul etdiyi qətnamədə əksini tapıb.

Sonra "Bakı Prosesi"nin 10 illik yubileyinə həsr olunan film nümayiş etdirilib.

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü ilə bağlı tədbir keçirilib








Yeni Azərbaycan Partiyasının yaradılmasının (YAP) 26 illiyi münasibətilə partiyanın rəhbərliyi və üzvləri noyabrın 21-də Fəxri xiyabana gələrək YAP-ın qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri və əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

***

Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında partiyanın yaradılmasının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov YAP-ın yaranma tarixi, keçdiyi şərəfli yol və bu gün qazandığı möhtəşəm nailiyyətlər barədə danışıb. O bildirib ki, YAP-ın yaranması, keçdiyi şərəfli tarixi yol Azərbaycanın ən önəmli hadisələri sırasındadır. YAP təkcə Azərbaycan tarixində deyil, müasir dünyada ən uğurlu siyasi təşkilatlardan biri hesab oluna bilər.

Yeni Azərbaycan Partiyasının yaranma səbəblərini və həmin dövrün ictimai-siyasi xarakterini izah edən Baş nazirin müavini vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi. Belə bir vəziyyətdə Azərbaycanın xilas yolunu ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görən ziyalılar ulu öndərin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaranması təşəbbüsünü irəli sürdülər. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi.

Bildirilib ki, Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın sonrakı inkişafını şərtləndirən əsas amil olub. YAP-ın əldə etdiyi qələbələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır.

Vurğulanıb ki, Azərbaycan hazırda regionun lider dövlətidir. Ölkəmizin beynəlxalq aləmdə mövqeyi xeyli güclənib. Azərbaycan iqtisadiyyatının inkişaf etməsi, müasirləşməsi ölkəmizin həm regionda, həm də dünyada mövqeyini ciddi şəkildə möhkəmləndirib. Azərbaycan neçə ildir ki, bölgənin lideri statusunu daşıyır və bu statusu heç zaman əlindən verməyəcək.

Sonra çıxış edən Baş nazirin müavini, YAP İdarə Heyətinin üzvü Hacıbala Abutalıbov partiyanın yaranması dövrünə nəzər salaraq o zamanlar xalqımızın çox çətin sınaqlarla üz-üzə qaldığını xatırladıb. Qeyd edib ki, məhz belə bir vaxtda Azərbaycanın gələcəyini düşünən ziyalılar ümummilli lider Heydər Əliyevə müraciət etdilər. YAP-ın yaranmasından qısa müddət sonra ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığını deyən Baş nazirin müavini ümummilli liderin Azərbaycanı bütün təhlükələrdən xilas etdiyini söyləyib.

Qeyd edilib ki, ulu öndər ölkədə ictimai-siyasi sabitliyi təmin etdikdən sonra Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət bu gün partiyamızın sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət nəticəsində Azərbaycan dünyanın nüfuzlu ölkələri sırasındadır.

Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova da çıxışında Yeni Azərbaycan Partiyasının ötən 26 il ərzində keçdiyi şərəfli yol, cəmiyyətdəki mövqeyi və qazandığı uğurlar barədə danışıb. YAP-ın yaranmasının çətin dövrə təsadüf etdiyini deyən parlament sədrinin müavini o dövrdə partiyanın yaradılması uğrunda mübarizə aparan insanların fədakarlığını xüsusilə qeyd edib.

Bahar Muradova Heydər Əliyev ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb. O əlavə edib ki, qazanılan uğurlarda partiya üzvlərinin özünəməxsus rolu var.

Sonra çıxış edən YAP-ın gənc üzvü Mehman Musayev Heydər Əliyev irsinin Azərbaycan gəncliyi üçün böyük məktəb olduğunu bildirib.

***AZƏRTAC***

## *Bahar MURADOVA:* "Belarusa rəsmi səfər Azərbaycan Prezidentinin xarici siyasətinin növbəti uğurudur"

Belarusa rəsmi səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətinin növbəti uğurudur.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib.

Azərbaycanın və Belarusun strateji tərəfdaşlar olduğunu xatırladan Bahar Muradova qeyd edib ki, dövlətlərimiz bir çox vacib məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Bir çox məsələlərdə mövqe birliyi var. Bu səfər zamanı da bildirildi ki, hər iki dövlət bir-birinin maraqlarını qarşılıqlı şəkildə bütün müstəvilərdə qoruyur. Bunun nümunələri bugünə qədər göstərilib.



Milli Məclisin Sədr müavini deyib ki, bu səfər həm müzakirə olunan məsələlər, həm imzalanan sənədlər, həm də hər iki prezidentin verdiyi bəyanatın ruhu ilə diqqəti cəlb etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən digər bu kimi münaqişələrin beynəlxalq hüququn prinsipləri, dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll olunmasının vacibliyinin vurğulanması onu göstərir ki, getdikcə dünyada bu mövqeni dəstəkləyən ölkələrin sayı çoxalır. Azərbaycan və Belarus da bu kimi məsələlərdə öndə gedən dövlətlərdir. Eyni zamanda, xalqlarımızın, müvafiq dövlət qurumlarımızın yaxşı münasibətlərinin, o cümlədən prezidentlərimizin möhkəm dostluğunun əlaqələrə çox müsbət təsir göstərdiyinin şahidi oluruq.

## Prezident İlham Əliyev Minskdə yeni meqoiqtisadi modellər irəli sürdü

*Əvvəli 1-ci səh.*

Sonuncu səfər zamanı Minskdə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması isə aqrar münasibətlərin yeni perspektivlərini təyin etmişdir.

Nəqliyyat və informasiya texnologiyaları sahəsi üzrə sərnişin və yük daşımalarının genişləndirilməsi, tranzit imkanlarının səmərəli istifadəsi, eləcə də İKT sahəsində əməkdaşlığın dərinləşməsi istiqamətində iki dövlət 10 ildir əməkdaşlıq edir. Bu illər ərzində geoinformasiya və qlobalizasiya (QİS, GPS) sistemlərindən istifadədə təcrübə mübadiləsi, kosmik sahədə əməkdaşlığın həyata keçirilməsi də diqqətdə saxlanılmışdır. Bu baxımdan, "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarus Respublikasının Rabitə və İnformasiya Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nun imzalanması özündə 25 illik münasibətlərin yeni mərhələsini ehtiva edir.

Faktiki olaraq Azərbaycan Prezidentinin Minskə budəfəki səfəri Azərbaycan-Belarus münasibətlərinin 25 illik tarixinə nəzər salmağa və təxminən 10 il bundan əvvəl təsdiqlənən "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında" müqavilə və onun proqramı təsdiqləndikdən sonra qarşılıqlı iqtisadi əlaqələrin intensivliyini və qazanılan uğurları nəzərdən keçirməyə imkan yaradır. Belə ki, dövlətlərarası qarşılıqlı münasibətlərin inkişafında iqtisadi əlaqələrin geniş spektrdə inkişafı xüsusi diqqət çəkir. Sonuncu görüşdə görülən işlərə verilən qiymət, perspektivlərə köklənən iqtisadi əməkdaşlıq planları artıq Azərbaycanın dünya iqtisadiyyatında ən mürəkkəb islahatlara belə, hazır olduğundan xəbər verir.

İki ölkə arasında iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu sübut edən konkret faktlardan biri də Gəncə Avtomobil Zavodunda 11 il ərzində 10 mindən çox "Belarus" traktorunun və onların bazasında xüsusi texnikanın yığılması, 3500-dən çox MAZ avtomobili və qoşquların buraxılması, Azərbaycana Belarusun ilk "Qomselmaş"ının gətirilməsidir. Bunu qarşılıqlı səmərəli əməkdaşlığın əla nümunəsi kimi qiymətləndirən Belarus Prezidenti A.Lukaşenko öz bəyanatında ikitərəfli iqtisadi əməkdaşlığın bir qədər də genişləndiyini vurğulamışdır: "...məhsul nə qədər keyfiyyətli olsa da, onu səmərəli satmaq, həm də yaxşı olar ki, ixrac etmək lazımdır. Buna görə də Minsk Traktor Zavodu və Gəncə Avtomobil Zavodu hazırda Türkiyədə traktorların yığılması ilə bağlı bizim ümumi layihə üzərində işləyir. Biz bu mühüm perspektivli istiqaməti inkişaf etdirəcəyik və bu, Azərbaycan Prezidentinin mövqeyi sayəsində mümkün olub".

Azərbaycan Prezidentinin Minsk səfərində müzakirə olunan məsələlərdən biri də nəqliyyat-logistika sahəsinin qarşılıqlı inkişafının perspektivləri ilə bağlı olmuşdur. Belarus Azərbaycanın infrastruktur layihələrində - yeni dəmir yollarının, dəniz limanlarının, logistika mərkəzlərinin tikintisində iştirak etməyə, iki ölkə arasında digər irimiqyaslı maraqlı layihələrin gerçəkləşməsində iştiraka böyük maraq göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə hər iki dövlət başçısı yeni təklif və ideyalarla çıxış edərək qarşılıqlı iqtisadi əməkdaşlığın dərinləşməsini, bu əməkdaşlığa yeni ölkələrin cəlb edilməsini dəstəklədiklərini bildirmişlər. Aleksandr Lukaşenko Minsk və Gəncə zavodlarının iştirakı ilə Türkiyə üçün traktorların buraxılışı layihəsinin yüksək hazırlıq səviyyəsində olduğunu, Azərbaycana elektrobuslar, liftlər, taxılyığan kombaynlar və digər kənd təsərrüfatı texnikası göndərilməsi və onların orada yığılması kimi perspektivlərin mövcudluğunu, hətta bu texnikaların Azərbaycanda birgə istehsalını yaradıb üçüncü ölkələrə çıxışa işləməyə hazır olduqlarını açıqlamışdır. Azərbaycan Dövlət Neft Şirkətinin "Qrodno-Azot" şirkətinin modernləşdirilməsinə sərmaye qoyması imkanlarının müzakirə edilməsini alqışlayan A.Lukaşenko nəqliyyat-logistika sahəsindəki ehtiyatlara diqqət ayırmış, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin yaradılmasında və "İpək Yolu Iqtisadi Kəməri" təşəbbüsü çərçivəsində dəmir yollarının çəkilişi layihələrinə qoşulduqlarını bildirmiş, habelə informasiya-kommunikasiya texnologiyaları, elm və mədəniyyət sahələrində səylərin əlaqələndirilməsinin perspektivli olacağını qeyd etmişdir.

Azərbaycan Prezidenti də bildirib ki, sənaye sahəsində əməkdaşlıq potensialını bundan sonra da artırmağın yollarını düşünmək lazımdır: "Fikrimcə, bizim gələcək əməkdaşlığımızın əsas istiqamətlərindən biri nəqliyyat sahəsi ilə bağlı olacaq. Siz çıxışınızda "Şimal-Cənub nəqliyyat dəhlizi"ni qeyd etdiniz. Azərbaycan öz ərazisində bu dəhlizin fəaliyyəti ilə əlaqədar bütün işləri başa çatdırıb. İndi biz bu gün xeyli yük daşımağa qabil olan nəqliyyat infrastrukturumuzun daha da modernləşdirilməsi məsələləri ilə məşğuluq. Azərbaycan həm də "Şərq-Qərb nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Düşünürəm ki, bu iki mühüm nəqliyyat marşrutu üzrə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi əməkdaşlıq üçün tamamilə yeni şərait yaradacaq, on minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaq, ölkələrimiz arasında yük axınını xeyli artıracaq".

Biz Azərbaycan Prezidentinin ölkəmizin beynəlxalq aləmdə nüfuzunu necə artırdığını, ən gərgin, bəzən isə sülhlə savaş arasında sədlərin itdiyi məqamda Rusiya və Türkiyə kimi böyük güclərin barışa gəlməsində oynadığı müstəsna rolu görmüşük. Eyni zamanda, İlham Əliyevin sayəsində Bakının nüfuzlu dövlət nümayəndələrinin etibarlı görüş yerinə çevrildiyini də bilirik. Bu dəfə isə Prezident İlham Əliyevin Minskdə iqtisadi əlaqələrin coğrafiyasına Şərq ölkələrini və Türkiyəni əlavə etdiyini gördük. Bütün bunlar belə nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan qlobal iqtisadi əlaqələrin inkişafında yeni qələbələrə köklənən ölkəyə çevrilir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ümumxalq partiyası



Yeni Azərbaycan Partiyasının yaranmasından 26 il ötür. Yüz minlərlə insanı ətrafında birləşdirən, sayı milyonu ötən təəssübkeş dəstəyə malik olan bir təşkilatın fəaliyyətində bu tarix əhəmiyyətli məqam olmaqla yanaşı, həmçinin ölkəmizin siyasi tarixində əlahiddə hadisə kimi səciyyələnir. Ən azı o baxımdan ki, YAP Azərbaycanda əldə edilən misilsiz uğurların şəriksiz müəllifi olan mövcud iqtidarın siyasi istinadgahı və hakim komandanı bilavasitə təşkil edən özəkdir.

### Azərbaycanın siyasi flaqmanı

1990-1992-ci illər yaxşı xatirimizdədir. Böhran içində olan, müstəqilliyindən bəhrələnə bilməyən, Qarabağda erməni işğalı ilə, təxribatlarla üzləşən, vətəndaş müharibəsinin ərəfəsində olan respublikamız ümidsizlik ovqatında idi. Vətəndaşlarımız birmənalı olaraq anlayırdılar ki, Azərbaycanı məhv olmaqdan xilas edəcək yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Yüz minlərlə insan məhz ulu öndərin yaradacağı və rəhbərlik edəcəyi yeni siyasi gücdə təmsil olunmağı arzulayırdı. Bu mənada 26 il əvvəl YAP-ın yaranması xalqın və zamanın tələbi, sosial sifariş olaraq meydana çıxdı. Bu siyasi təşkilatın fəaliyyət salnaməsi isə əslində, elə müstəqil Azərbaycan dövlətinin tarixidir.

1993-cü ilin məlum iyun hadisələri xalqın tələbi ilə o vaxtkı iqtidarı Heydər Əliyevi Bakıya - ölkənin taleyini həll etmək üçün çağırmağa vadar etdi. Beləliklə də tarixi proseslər Heydər Əliyevə ölkə rəhbəri, Yeni Azərbaycan Partiyasına isə hakim partiya statusu həvalə etdi. Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşması və vətəndaş cəmiyyətinin qurulması prosesi başlandı. Bu, partiyalaşma prosesinə də öz ciddi təsirini göstərdi. Partiyamızın sədri Heydər Əliyevin uğurlu siyasi xətti ilk gündən YAP-ı Azərbaycanın siyasi səhnəsinin ön sırasına çıxardı.

Yeni Azərbaycan Partiyasının sıralarında 700 mindən artıq üzvün birləşməsi, nəinki ölkənin, hətta regionun aparıcı siyasi təşkilatına çevrilməsi ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi və hər zaman partiyanın fəaliyyətinə bələdçilik etdiyi "Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə, hörmətə malik olan siyasi partiyadır" fikrinin təsdiqidir. Fəxrlə deyə bilərik ki, YAP həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır.

2003-cü ildən sonra ulu öndər Heydər Əliyevin siyasi yolunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin ötən 15 ildəki əzmkar fəaliyyəti Azərbaycanın onilliklərə bərabər inanılmaz bir inkişaf yolu keçməsini təmin etməklə yanaşı, Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki alternativsiz qüvvə statusunu möhkəmləndirib. Bu baxımdan, YAP-ın fəaliyyətini həm ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin fəaliyyətləri çərçivəsində təhlil etmək lazımdır. Bu gün Azərbaycan dövlətinin inkişafında əldə olunan misilsiz nailiyyətlər, siyasi proseslərdə bərqərar olan mühüm təkmilləşmələr və demokratikləşmə də qüdrətli sədrlərimizin - ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin fəaliyytlərinin nəticəsi və həm də YAP-ın siyasi töhfələri kimi səciyyələnməlidir.

YAP həm də uğur partiyasıdır. Bunu partiyamızın indiyədək keçirilmiş bütün seçkilərdəki qələbələri təsdiq edir. Bəli, bu illərdə keçirilən 6 prezident, 5 parlament, 4 bələdiyyə seçkilərinin qalibi YAP-ın namizədləri olmuşdur. Hər bir seçkidəki qələbə bir tərəfdən YAP-ın seçki kampaniyasının uğurunu, digər tərəfdən ölkəmizin siyasi-ictimai həyatındakı mövqeyini və rolunu bir daha nümayiş etdirir.

### Son seçkilər YAP-ın möhtəşəm qələbəsi kimi tarixə düşdü

YAP bu gün ölkənin ən qabaqcıl siyasi avanqardı, müstəqil dövlətimizin kamil ideya, fikir məktəbidir. Bu ilin aprel ayında keçirilən prezident seçkiləri də bütün siyasi nəticələri ilə yanaşı, həm də YAP-ın qələbəsi və siyasi nailiyyəti kimi yaddaşlara həkk olundu. Bu seçkidə bir daha sübut olundu ki, Azərbaycan demokratiya yolu ilə inamla inkişaf edən dövlətdir. Eyni zamanda, prezident seçkilərinin nəticələri göstərdi ki, Azərbaycan ictimaiyyətinin mütləq əksəriyyəti mövcud siyasi kursu dəstəkləyir və ölkədəki inkişafın davamlı olmasını arzulayır. Hazırda Azərbaycan dövləti və xalqı qarşısında öz missiyasını ləyaqətlə davam etdirən YAP bundan sonra da Prezident İlham Əliyevin siyasətinə uyğun olaraq Azərbaycanın qüdrətlənməsinə, dövlətçiliyimizin inkişafına xidmət edəcək.

YAP-ın Ağdaş rayon təşkilatı da yarandığı gündən böyük inkişaf yolu keçmiş, öz sıralarını daim genişləndirmiş, partiyamızın proqram və prinsiplərinə uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirmişdir. Hazırda Ağdaş rayon təşkilatı partiyanın proqram vəzifələrinin həyata keçirilməsində, rayonun sosial-iqtisadi inkişafında fəal iştirak edir. İldən-ilə fəaliyyətini daha da canlandıran təşkilatımız hər seçkidə fəal olub. Həm seçicilər arasında maarifləndirmə işlərinin aparılmasında, həm də YAP-ın təbliğatının həyata keçirilməsində təşkilat tərəfindən mühüm tədbirlər həyata keçirilmişdir. Bütün bunlar hər seçkidə Ağdaş rayonu üzrə YAP-ın qələbəsinin təmin edilməsində mühüm rol oynamışdır.

Hazırda təşkilatımızda birləşən YAP üzvlərinin sayı 17 min 336 nəfərdir. Onların 52 faizini qadınlar, 42,5 faizini isə gənclər təşkil edir. Müqayisə üçün qeyd etmək istərdim ki, bu gün dağıdıcı müxalifət partiyalarının ümumilikdə üzvlərinin sayı YAP-ın bir rayon təşkilatının üzvlərinin sayına çata bilməz. Ağdaş rayon təşkilatında birləşən üzvlərimiz ölkənin, o cümlədən rayonun ictimai-siyasi, iqtisadi, mədəni həyatında və s. sferalarda fəal iştirak edir, öz əməlləri ilə dövlətimizin inkişafına xidmət edirlər.

### Antiazərbaycançı şəbəkə iflasa məhkumdur

Başa çatmaq üzrə olan 2018-ci il Azərbaycan üçün bir sıra mühüm uğurlarla əlamətdardır. Qeyd etdiyimiz kimi, YAP-ın qələbəsi olan prezident seçkiləri həm də bu ilin əsas mühüm siyasi hadisəsi kimi tarixə düşdü. Bununla yanaşı, 2018-ci ildə respublikamızda iqtisadi sferada təqdirəlayiq inkişaf göstəriciləri qeydə alındı, qarşıya qoyulan vəzifələr yerinə yetirildi.

Lakin bir məsələni unutmamalıyıq ki, Azərbaycanın uğurları daim Qərbin bəzi siyasi mərkəzləri tərəfindən qısqanclıqla qarşılanır. Xüsusən, erməni təəssübkeşləri və Ermənistanın lobbiçiliyi ilə məşğul olanlar mütəmadi şəkildə Azərbaycana qarşı siyasi qarayaxma kampaniyası aparırlar. Respublikamızın sürətli inkişafından qıcıqlanan bu dairələr, onların təsiri altında olan bəzi avropalı siyasətçilər ölkəmizə qarşı apardıqları total informasiya müharibəsini son illərdə daha da genişləndiriblər. 2018-ci il də bu baxımdan istisna olmadı. Hələ prezident seçkiləri başlamazdan əvvəl ölkəmizə qarşı çirkin planlara start verildi.

Sosial şəbəkələr üzərindən başladılan bu kampaniyanın əsas iştirakçıları təəssüf ki, sapı özümüzdən olan baltalardır. Məsələ bundadır ki, antiazərbaycançı dairələr ölkəmizə qarşı növbəti çirkin planlarının icrasını Qərb ölkələrinə getmiş bəzi azərbaycanlılara, - əgər onlara azərbaycanlı demək mümkündürsə, - necə deyərlər, "yükləyiblər". Bir vaxtlar Bakıda AXCP-nin mitinqlərində əllərində plakat tutan və qondarma siyasi iddialarla xarici ölkələrdə yaşamaq istəyən azərbaycanlılar isə aldıqları bütün əmrləri icra etməyə məcburdurlar. Çünki əks təqdirdə, onları bir müddət sonra deportasiya olunmaq təhlükəsi gözləyir.

Bu adamlar onlara verilən əmrləri ən çirkin formada yerinə yetirirlər. Xaricdə Azərbaycanın səfirliyi qarşısında mitinq keçirmək Azərbaycan dövlətinə qarşı çıxmaq anlamına gəlir. Belə olan halda səfirliyimiz qarşısında mitinq keçirən azərbaycanlının ermənidən nə fərqi var? Antimilli hərəkətlərinin insanlar tərəfindən dəstəklənmədiyini, qınandığını və tənqid olunduğunu görən bu insanlar daha çirkin vasitələrə əl atır, dövlətimizi və xalqımızı təhqir etməkdən belə çəkinmirlər.

Hər kəs öz vicdanı qarşısında cavabdehdir. Bu antimilli ünsürlər, orduxanlar və digərləri isə vicdanlarını və milli heysiyyətlərini çoxdan satıblar, indi onlar mənəviyyatsız bir həyat sürürlər. Azərbaycan xalqı onlardan artıq imtina edib. İstifadə müddətləri başa çatdıqdan sonra üz tutduqları ölkələrdəki antiazərbaycançı dairələr də mütləq onlardan imtina edəcəklər. Bax, əsl məşəqqətləri ondan sonra başlayacaq.

Bu gün Avropa ölkələrindən öz tarixi vətəninə qarşı çağırışlar edən sapı özümüzdən olan baltalar daim qarşılarında Azərbaycan xalqını, dövlətimizin təəssübünü çəkən YAP üzvlərini görəcəklər. Necə ki YAP üzvü olan gənclər elə sosial şəbəkələr vasitəsilə həmin milli satqınları tamamilə ifşa ediblər, onların antiazərbaycançı və ermənipərəst dairələrin əlində alətə çevrildiklərini sübuta yetiriblər.

***Cavid OSMANOV,***
***Milli Məclisin deputatı,***
***YAP Ağdaş rayon təşkilatının sədri***

# Bakıda Azərbaycanın müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş qərargah rəislərinin iştirakı ilə üçtərəfli görüş olub



Noyabrın 21-də Bakıda Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaianın iştirakı ilə üçtərəfli görüş keçirilib.

Görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional sabitliyin, o cümlədən bölgədə həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstanın ordu rəhbərlərinin üçtərəfli toplantısı dövlətlərimizin strateji səviyyədə əməkdaşlığının bariz nümunəsidir. Bu toplantını üçüncü dəfədir keçiririk. Görüşün əsas məqsədi bölgədə sabitliyin və sülhün bərqərar olması, üç dost və qonşu dövlətin həyata keçirdiyi strateji-iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ölkələrimizin Silahlı Qüvvələri arasında əməkdaşlığın dərinləşməsidir. Əminəm ki, bu toplantı yüksək səviyyədə keçiriləcək.

Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia qeyd edib ki, bizim əlaqələrimizin böyük tarixi var. Biz regionda strateji tərəfdaşlarıq. Strateji tərəfdaşlıq çərçivəsində hərbi əməkdaşlığımız çox mühümdür. Regionda həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin edilməsi üçün bu əməkdaşlıq uğurla davam edir. Başa düşürük ki, bu, çox əhəmiyyətli görüşdür.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək deyib ki, bu gün üç dost və qardaş ölkənin Silahlı Qüvvələrinin komandanlığı mühüm toplantını keçirmək üçün bir araya gəliblər. Bu, bizim üçüncü görüşümüzdür. Bir-birimizlə həm ikitərəfli, həm də üçtərəfli görüşlər keçirərək bölgədəki vəziyyəti müzakirə edəcəyik. Hərbi əlaqələrimiz mükəmməl şəkildə genişlənir. Strateji səviyyəyə çatmış hərbi əlaqələrimizi daha da inkişaf etdirmək üçün üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışacağıq. İnanıram ki, bu gün keçirilən görüşdə çox vacib nəticələr əldə edəcəyik.

* * *

Bakıda üçtərəfli formatda keçiriləcək görüşdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaianın rəhbərlik etdikləri nümayəndə heyətləri noyabrın 21-də Şəhidlər xiyabanını ziyarət ediblər.

Nümayəndə heyətlərinin üzvləri vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın məzarları üzərinə gül dəstələri düzüb, şəhidlərimizin xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

*AZƏRTAC*

# Azərbaycanın müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş qərargah rəislərinin üçtərəfli görüşünün yekunlarına dair protokol imzalanıb

Noyabrın 21-də Azərbaycanın müdafiə nazirinin, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Bakıda keçirilən üçtərəfli görüşünün yekunlarına dair birgə protokol imzalanıb.



AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia imzalayıblar.

İmzalanma mərasimindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq təşkil olunub.

Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan ordu rəhbərlərinin görüşünün üç qardaş ölkənin dövlət başçılarının tapşırığı ilə təşkil olunduğunu bildirən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov toplantıda regiondakı hərbi-siyasi vəziyyətin müzakirə edildiyini vurğulayaraq deyib: "Bu görüş üç qardaş ölkə arasında əməkdaşlığın strateji səviyyədə olmasını təsdiq edir. Görüşün məqsədi üç dövlətin regionda həyata keçirdiyi strateji, iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsinə, bölgədə sülhün və sabitliyin qorunmasına dəstək verməkdir".

Z.Həsənov qeyd edib ki, görüşdə işçi qrupunun bir neçə il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi dinlənilib, gələn il üçün tədbirlər planı təsdiqlənib. Tədbirdə dövlətlərin ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının vacibliyi bir daha bəyan edilib. Üçtərəfli formatda hər üç ölkənin ordularının əməkdaşlığının inkişafının, hərbi, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub. İqtisadi layihələrin təhlükəsizliyinin təmin olunması baxımından üçtərəfli komanda qərargah təlimlərinin davamlı təşkilinə dair fikir mübadiləsi aparılıb. Hazırda bu təlimlər Türkiyə ərazisində keçirilir. İclasda növbəti üçtərəfli görüşün Türkiyənin təklifi əsasında bu ölkədə keçirilməsi qərara alınıb.

Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia qeyd edib ki, Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir.

Gürcüstanın üçtərəfli birgə hərbi təlimlərdə fəal iştirak edəcəyini deyən V.Çaçibaia bildirib ki, bu təlimlər hərbi qulluqçularımız arasında təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, hərbi təhsil və digər sahələrdə də fəal əməkdaşlıq edəcəyik. Regionda təhdidlərin artmasının müşahidə olunduğunu vurğulayan Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, səylərimizi birləşdirərək bu təhlükələri aradan qaldıra bilərik. Azərbaycan və Türkiyə hər zaman Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib, çətin günlərimizdə yanımızda olub. Biz bunu daim xatırlayırıq.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler isə deyib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli formatda əməkdaşlığın inkişafı bizi son dərəcə məmnun edir.

Azərbaycan müdafiə nazirinin, Türkiyə və Gürcüstan Silahlı Qüvvələri Baş Qərargah rəislərinin üçüncü üçtərəfli görüşünün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirən Y.Güler deyib: "Görüşdə bölgədə və dünyada sülhün, sabitliyin təmin olunmasının mühüm əhəmiyyət daşıdığı bu günlərdə yaxın regionda baş verən proseslərlə bağlı ətraflı fikir mübadiləsi apardıq. Toplantıdakı müzakirələrimizdə, eləcə də ikitərəfli görüşlərimizdə dost və qardaş ölkələrimizin mövqelərinin bir-birinə yaxın olduğu bir daha vurğulandı. Xüsusilə, regional təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq, mövcud problemlərin sülh yolu ilə həlli, ölkələrin beynəlxalq hüquq əsasında ərazi bütövlüyünün qorunması məsələlərində Türkiyə, Azərbaycan və Gürcüstan olaraq eyni mövqedəyik".

Ordu generalı Y.Güler bildirib ki, 2015-ci ildə Türkiyədə keçirilən ilk görüşdən sonra dost və qardaş ölkələrimiz arasında başlayan və gündən-günə güclənən üçtərəfli əməkdaşlıq bu gün uğurla davam etdirilir. Qonaq növbəti - dördüncü üçtərəfli görüşün Türkiyədə keçiriləcəyini bildirib, xoş arzularını diqqətə çatdırıb.

# Ali təhsil sistemində yeni mərhələ başlayır

## Təhsil naziri Ceyhun Bayramov bu sahədəki əsas hədəf və istiqamətləri açıqladı

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edilib. Bu sənəd "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın davamı hesab edilə bilər. Bu fikirləri dünən keçirdiyi mətbuat konfransında təhsil naziri Ceyhun Bayramov söylədi. Yeni dövlət proqramının ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, insan kapitalının inkişaf etdirilməsi, strateji əhəmiyyət kəsb edən sahələr üzrə milli kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayan nazir proqramın əsas hədəflərini də açıqladı.



### Yeni dövlət proqramının komponentləri

Dövlət proqramının əsas hədəfi elm sahəsindəki qabaqcıl nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Bildirildi ki, dövlət proqramının birinci komponentində ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları, xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsi, yeni akademik mühitin yaradılması nəzərdə tutulur. Proqramın ikinci komponenti isə ölkəmizin ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə milli kadrların hazırlanması üçün xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsini əhatə edir. Bu məqsədlə doktorantura səviyyəsi üzrə seçimin təkmilləşdirilməsi, təhsil nailiyyətlərinin monitorinqi sisteminin yaradılması, müxtəlif sahələr üzrə yerli ali təhsil və elm müəssisələri üçün peşəkar mütəxəssislərin yetişdirilməsi həyata keçiriləcək.

### 5 beynəlxalq ikili diplom proqramı təsis olunacaq

Ceyhun Bayramov qeyd etdi ki, dövlət proqramı çərçivəsində ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi üçün ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramı təsis olunacaq və onların icrasına dair monitorinqin nəticələrinə uyğun layihə davam etdiriləcək.

Bu məqsədlə nüfuzlu xarici tərəfdaş ali təhsil müəssisələrinin seçimi, xarici mütəxəssislərin cəlb olunması yolu ilə yerli ali təhsil müəssisələrində inzibati-akademik heyətin təlimi və tədris proqramlarının yenilənməsi, beynəlxalq ikili diplom proqramının maliyyələşdirilməsi həyata keçiriləcək.

Dövlət proqramı Dövlət Neft Fondunun vəsaiti və alternativ mənbələrin (dövlət büdcəsindən ayırmalar, beynəlxalq təşkilatların (fondların) texniki-maliyyə yardımları, kreditlər və qrantlar, mülkiyyət formasından asılı olmayaraq xarici və yerli hüquqi və fiziki şəxslərin ianələri) hesabına maliyyələşdiriləcək.

### İkili diplom proqramının istiqamətləri

İkili diplom proqramının istiqamətləri üzrə Təhsil Nazirliyinə bir sıra müraciət daxil olduğunu açıqlayan Ceyhun Bayramov bildirdi ki, ilkin olaraq kənd təsərrüfatı, informasiya texnologiyaları sahəsi üzrə, eyni zamanda təhsilin məzmunu, qiymətləndirmə, psixologiya, psixoloji xidmətin təşkili, təhsilin idarəolunması kimi bir sıra istiqamətlər üzrə ikili diplom proqramının təsis edilməsi ilə bağlı konkret müraciətlər mövcuddur.

Bütün müraciətlər dəyərləndiriləcək. Ali təhsildə ikili diplom proqramlarının tətbiqi zamanı Təhsil Nazirliyi tərəfindən Azərbaycan mütəxəssislərinin cəlb olunması üçün işlər görüləcək.

### 8 ildə 3558 gənc xaricdə təhsil alıb

Nazirin sözlərinə görə, "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3558 Azərbaycan gənci nüfuzlu xarici ali məktəblərdə ali təhsil səviyyəsi üzrə təhsil alıb.

Onların əksəriyyəti təhsillərini başa çatdıraraq ölkəyə qayıdıblar və müxtəlif sahələrdə çalışırlar. Həmin məzunların 60 faizi özəl, 40 faizi dövlət sektorunda çalışır. 20-dən artıq məzun isə Təhsil Nazirliyində işə götürülüb. Bu gün dövlət proqramı çərçivəsində təhsil alan yüzlərlə Azərbaycan gənci öz pedaqoji akademik fəaliyyətləri ilə ali təhsilə töhfə verirlər.

Nazir Azərbaycan gənclərinin süni intellekt istiqaməti üzrə təhsil alması məsələsinə toxunaraq dedi ki, bu gənclərimiz həmin sahə üzrə doktorantura səviyyəsində təhsil almaq üçün müraciət edərsə, əvvəlcə həmin təhsil proqramı haqqında məlumat toplamalıdır. Dövlət yalnız həmin proqramın maliyyələşməsinə yardım edə bilər.

### Tələbə krediti ilə bağlı alternativ mexanizmlər işlənilir

Nazir qeyd etdi ki, bir neçə ildir aztəminatlı tələbələrin təhsil haqlarının ödənilməsi üçün təhsil kreditləri verilir. Lakin Maarifçi Kredit Fondu tərəfindən verilən kreditlərin hesabına müraciət edən bütün tələbələrin ehtiyaclarını ödəmək mümkün deyil.

Onun sözlərinə görə, bu məsələ bir neçə dəfə parlamentdə də qaldırılıb. Maliyyə Nazirliyi əsas problem kimi təhsil kreditlərinin qaytarılma mexanizmində tam aydınlığın olmadığını deyir.

Təhsil Nazirliyində bu barədə söylənilən bütün rəylər nəzərdən keçirilir, alternativ mexanizmlər üzərində iş gedir. Yaxın müddətdə bunlar hökumətə təqdim ediləcək.

### Gözlənilən nəticələr

Yeni dövlət proqramının icrası ilə beynəlxalq ikili diplom proqramlarının həyata keçirildiyi yerli ali təhsil müəssisələrində ölkənin inkişaf prioritetlərinə uyğun yüksəkixtisaslı kadrların müasir standartlar səviyyəsinə hazırlığına nail olmaq prioritet məsələdir.

Bundan başqa, məqsəd ikili diplom proqramlarının həyata keçirildiyi ali təhsil müəssisələrinə əcnəbi professor-müəllim heyətini əmək fəaliyyətinə cəlb etməklə ali təhsil sistemində aparılan islahatların sürətləndirilməsinə, həmin ali təhsil müəssisələrinin müasir tələblərə uyğunlaşdırılmasına, idarəetmə və beynəlxalq əməkdaşlıq bacarıqlarının təkmilləşdirilməsinə nail olmaqdır.

Həmçinin universitetlərin beynəlxalq reytinqinin yüksəlməsinə və elm-tədqiqat profilli təhsil müəssisələrinə çevrilməsinə, eləcə də ölkənin əmək bazarının tələbatı əsasında müəyyən olunmuş peşə və ixtisaslar üzrə yüksəkixtisaslı kadr potensialının formalaşdırılmasına nail olmaq və qarşıya qoyulan digər məqsədlərə çatmaq gözlənilir.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# ADA Universiteti beynəlxalq mükafata layiq görülüb



ADA Universiteti akademik xidmətlərinin elektronlaşmasında beynəlxalq mükafata layiq görülüb.

Universitetdən AZƏRTAC-a bildirilib ki, mükafatlandırma mərasimi ali təhsil müəssisələrinin idarəetməsində informasiya texnologiyaları və elektron xidmətlər sahəsində aparıcı beynəlxalq şirkət olan "Ellucian"ın Dubayda dünyanın 500-ə yaxın universitetinin nümayəndəsinin iştirak etdiyi illik konfransında keçirilib. Azərbaycanın ali təhsil müəssisəsi "İnnovasiya" mükafatını "Tələbələrə xidmət" nominasiyasında alıb. Beynəlxalq mükafat ADA Universitetinin xidmətlərinin elektronlaşmasında "MyADA" sisteminin tətbiqi layihəsinin rəhbəri Rövşanə Səmədovaya təqdim edilib.

ADA Universiteti qəbul etdiyi onillik strateji planına uyğun bütün xidmətlərinin elektronalşmasını aparır. İlkin mərhələdə akademik xidmətlərə üstünlük verilərək 2016-2017-ci tədris ilində dünyanın aparıcı 1400 universitetinin istifadə etdiyi "Banner", tələbə məlumatı sistemi əsasında "MyADA" sistemi işlənilib tələbələrin istifadəsinə verilib. Daha sonra "Blackboard" tədrisin idarəedilməsi sistemi tətbiq olunaraq tələbə-müəllim təmasları daha da genişləndirilib. Hazırda ADA Universitetinin tələbələri ali təhsil ocağına sənədvermə mərhələsindən tutmuş məzun olana qədər öz akademik statusları, dərsləri, hesabları, universitetin bütün xidmətlərinə dair məlumatı şəffaf və ani şəkildə əldə edirlər. Bu, onların vaxtlarının və resurslarının daha səmərəli istifadəsi və daha uğurlu olması ilə nəticələnir. İnnovativ sistemlərin tətbiqi, eyni zamanda, ADA Universitetinə öz struktur və əməliyyatlarını təhlil edib sadələşdirməyə və müasir beynəlxalq təhsil standartlarına uyğunlaşdırmağa imkan yaradır.

ADA Universitetinin rektoru Hafiz Paşayev mükafatı şərh edərkən bildirib: "Ölkə rəhbərliyinin prioritet istiqamət kimi elan etdiyi dövlət xidmətlərinin elektronlaşmasına uyğun şəkildə, ali təhsil ocağımızda son iki ildə kommunikasiya sahəsində yeniliklər həyata keçirilir. Digər sahələrdə olduğu kimi, təhsil sahəsində də açıq idarəçilik və informasiya əldəetmə azadlığının təmin olunması tələbələrin akademik nailiyyətlərinə müsbət təsir göstərir".

# Konfransın praktiki əhəmiyyəti sənayenin inkişafı üçün böyük önəm kəsb edir

Noyabrın 21-də Təhsil Nazirliyi, Azərbaycan Texniki Universiteti (AzTU) və Rusiya Federasiyası Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə Bakıda "Ölçmə və keyfiyyət: problemlər və perspektivlər" mövzusunda beynəlxalq elmi-texniki konfrans işinə başlayıb.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin universitetin foyesindəki büstü önünə güllər düzüb, xatirəsini ehtiramla yad ediblər.

AZƏRTAC xəbər verir ki, konfransın işində Türkiyə, ABŞ, Rusiya, Almaniya, Polşa, Bolqarıstan, Çexiya, Ukrayna, Belarus və Qazaxıstanın tanınmış alimləri iştirak edirlər. Konfransa metrologiya və keyfiyyət problemləri ilə məşğul olan yerli və xarici ali təhsil müəssisələri, dövlət orqanları, biznes strukturları, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunublar.

AzTU-nun rektor vəzifəsini icra edən, professor Xalıq Yahudov Azərbaycanda ölçmə və keyfiyyətə nəzarət sahəsində qazanılan nailiyyətlərdən bəhs edib, bu sahədəki problemləri və perspektivləri iştirakçıların diqqətinə çatdırıb. O bildirib ki, konfransın məqsədi metrologiya və keyfiyyət məsələlərinin aktual problemlərini müzakirə etmək, perspektivləri müəyyənləşdirmək və beynəlxalq miqyasda bu sahədə aparılan elmi-tədqiqat işlərini ümumiləşdirməkdən ibarətdir.

Rusiya Metrologiya Akademiyasının akademiki, professor Aleksandr Kozlov, Rusiya Federasiyası Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutunun şöbə rəisi professor Valeriy Lısenko, AzTU-nun metrologiya və standartlaşdırma kafedrasının müdiri professor Elçin İsgəndərzadə, AzTU-nun və Almaniyanın Rostok Universitetinin əməkdaşı, dosent Cavid Səfərov plenar iclasda elmi məruzə ilə çıxış ediblər.

Bildirilib ki, konfransın praktiki əhəmiyyəti sənayenin bir sıra sahələri üçün böyük önəm kəsb edir. Konfransın yekununda Azərbaycanda maşınqayırma, neft-qaz istehsalı sənayesi, hərbi sənaye komplekslərinin, cihazqayırmanın və digər uyğun sahələrin daha da inkişaf etdirilməsinə dair elmi nəticə və təkliflər ümumiləşdirilərək istehsalata tətbiq ediləcək.

Konfrans işini üç gün davam etdirəcək və yeddi bölmədə 190-dan çox məruzə dinləniləcək. Bölmələrdə metrologiya, ölçmələr və keyfiyyətə nəzarətin müasir problemlərinə dair işgüzar müzakirələr aparılacaq. Plenar iclas və bölmələrdə keçirilən müzakirə və diskussiyalar, habelə məruzə və çıxışlardakı təklif və tövsiyələr ümumiləşdirilərək bəyannamə qəbul ediləcək.

## Azərbaycan Ədliyyəsi - 100

# Azərbaycan ədliyyəsi bir əsrlik inkişaf yolunda




*Əvvəli 1-ci səh.*

Həmin dövrlərdə tərəflər arasında vasitəçilik, başqa sözlə müasir mediasiya institutunun elementlərindən istifadə edilməsi olduqca maraqlıdır.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ədliyyə tariximizin yeni, şərəfli səhifəsi açılmışdır. Milli dövlət quruculuğunda ədliyyə fəaliyyətinə böyük önəm verilərək nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı gün - 1918-ci ilin may ayının 28-də təsis edilmiş və öz arxitekturası ilə Bakıya gözəllik verən, hazırda Səadət Sarayı adlanan binada fəaliyyət göstərmişdir.

Təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş və həmin ilin noyabr ayının 22-də - bu gün peşə bayramı kimi qeyd etdiyimiz gündə nazirliyin əsasnaməsi təsdiq edilmişdir.

Bu dövrdə Çar Rusiyasından miras qalmış ədliyyə sistemi iflic vəziyyətində olduğundan nazirlik öz işinə ilk növbədə ədliyyə, məhkəmə və istintaq strukturlarının bərpası ilə başlamışdır.

Kadrların hazırlanması məqsədilə hüquq kursları təsis edilmiş, qısa müddət ərzində Azərbaycan məhkəmə palatası yaradılmış, Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa olunmuşdur. Dövlət dilimizin geniş tətbiqinin təmin olunması məqsədilə Azərbaycan dilini bilən şəxslərin işə cəlb edilməsi üzrə tədbirlər görülmüşdür.

Ədliyyə Nazirliyi tərəfindən həmin dövr üçün ən mütərəqqi hesab edilən mühüm qanun layihələri, o cümlədən məhkəmə və istintaq fəaliyyəti, rüşvətxorluğa görə cəzaların gücləndirilməsi, amnistiyanın elan edilməsi, vətəndaşlıq barədə, habelə ictimai və dövlət əhəmiyyətli digər layihələr hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır.

Həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması məqsədilə 1919-cu ildə penitensiar xidmət Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verilmişdir.

Vəziyyətin mürəkkəbliyinə, ixtisaslı kadrların məhdudluğuna baxmayaraq ədliyyə işçiləri məhkəmə və hüquq sisteminin inkişafı naminə ölkənin süqutuna qədər şərəflə çalışmışlar.

1920-ci ilin aprel ayında Azərbaycan işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi də ləğv edilmişdir. Ədliyyə sistemində sovetlər birliyinin mahiyyətinə xas olan dəyişikliklər aparılaraq Xalq Ədliyyə Komissarlığı yaradılmış, ədliyyə və məhkəmə orqanlarından repressiya aləti kimi istifadə olunmuş, nazirlik 2 dəfə ləğv edilərək uzun illər fəaliyyət göstərməmiş, onun səlahiyyətləri ayrı-ayrı qurumlar arasında bölüşdürülmüşdür. Sabit struktura malik olmaması ədliyyə sisteminin inkişafına ciddi əngəllər törətmişdir.

Ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və ümumiyyətlə Ədliyyə Nazirliyinin əsaslı surətdə təsis edilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, dahi öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1970-ci ildə Ədliyyə Nazirliyi dövlət strukturu kimi bərpa olunmuş, bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır.

Ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Heydər Əliyev “ədaləti ədalətsizliklə bərpa etmək olmaz” - deyərək qanunun aliliyini əsas meyar kimi müəyyənləşdirmiş, cinayətkarlığa, rüşvətxorluğa qarşı SSRİ məkanında ilk dəfə aşkar və cəsarətli çıxış edərək, barışmaz münasibət nümayiş etdirmiş, insanlara hüquqi xidmətlərin yaxşılaşdırılmasını əsas prioritetlərdən biri kimi müəyyən etmişdi.

Bu baxımdan Ədliyyə Nazirliyinin də həmin dövrdə təşəkkülünü təbii hesab etmək olar. Bu illərdə Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını, hüquqi biliklərin təbliğini təmin etmişdir.

1972-ci ildə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmiş, ədliyyə işinin gələcək inkişafı üçün zəmin yaranmışdı. Həmin dövrdə nazirlik qanunların sistemləşdirilməsi və məcəllələşdirilməsi, hüquqi biliklərin artırılması, məhkəmələrə təşkilati, eləcə də notariat, məhkəmə ekspertizası, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və vəkillik fəaliyyətinə rəhbərliyi həyata keçirmək səlahiyyətlərinə malik olmuşdur.

1991-ci ildə xalqımız müstəqilliyini bərpa etsə də, ölkəmiz naşı siyasətçilərin vəzifə çəkişməsi, qeyri-ardıcıl, səriştəsiz siyasət, vətəndaş qarşıdurması, erməni təcavüzü nəticəsində müstəqilliyinin yenidən itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik”.

Məhz belə ağır bir vəziyyətdə xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müdrik siyasəti, dəmir iradəsi, zəngin bacarığı ilə milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırılmış, demokratik hüquqi dövlət quruculuğuna başlanılmış, dahi öndərin bilavasitə rəhbərliyi ilə ilk milli Konstitusiyamız qəbul olunmuşdur.

İslahatların hərtərəfli və kompleks həyata keçirilməsi məqsədilə müxtəlif komissiyalar yaradılmış, hüquqi sahəyə xüsusi önəm verən ulu öndər Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürmüş, qısa müddət ərzində mühüm qanunlar qəbul edilmişdir.

Azərbaycan ədliyyəsi yeni inkişaf mərhələsinə qədəm qoymuş, nazirliyin ənənəvi fəaliyyət istiqamətləri, o cümlədən normativ aktların dövlət qeydiyyatı və uçotu, ekspertizası, notariat və qeydiyyat, məhkəmə ekspertizası sahəsində iş yenidən qurulmuşdur. Cəzaların icrası sisteminin təkmilləşdirilməsi və islah-tərbiyə işinin humanistləşdirilməsi məqsədilə penitensiar müəssisələrin Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinə verilməsi işi başa çatdırılmış, istintaq aparatı, icra xidməti yaradılmış, bələdiyyələrlə işin təşkili və onların fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi və s. ilə bağlı nazirliyə yeni səlahiyyətlər verilmişdir.

Ölkəmizdə müasir məhkəmə sisteminin formalaşması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin rəhbərliyi ilə yeni üç pilləli məhkəmə sisteminin yaradılması, hakimlərlə ilk dəfə test üsulu ilə keçirilmiş şəffaf müsabiqə əsasında hakim korpusunun 60 faizə qədər təzələnməsi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə xidmət etmişdir. Ulu öndər 2000-ci ildə Vaşinqtonda beynəlxalq konfransda demişdir: “Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu”.

Dahi öndərin yüksək dövlətçilik amalları və siyasi kursu 2003-cü ildə keçirilmiş prezident seçkilərində xalqımızın böyük həmrəyliyi ilə dövlət başçısı seçilən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilərək bütün sahələrdə davamlı tərəqqiyə nail olunmuşdur.

2006-cı ildə ədliyyə fəaliyyətinin normativ hüquqi əsasları təkmilləşdirilmiş, nazirliyin yeni əsasnaməsi qəbul edilərək ona hüquq-mühafizə orqanı statusu verilmiş, ədliyyə orqanlarının inkişafı və məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə fərmanların, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” qanunun imzalanması, ədliyyənin inkişafına dair Dövlət Proqramının qəbulu xüsusi əhəmiyyət kəsb etmişdir.

Ədliyyə sahəsində həyata keçirilən islahatlara uyğun olaraq nazirliyin strukturu təkmilləşdirilmiş, yeni qurumlar - Ədliyyə Akademiyası, regional ədliyyə idarələri, müxtəlif reyestrlər, probasiya xidməti yaradılmışdır. Nazirlik tərəfindən fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə çoxsaylı normativ aktlar, 100-dək əsasnamə, təlimat və digər mühüm sənəd qəbul edilmiş, 300-dən çox təşkilati əmr verilmişdir.

Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi qanunların təkmilləşdirilməsində iştirak edir, normativ hüquqi aktların layihələrini hazırlayır, onların, habelə əhalinin və mətbu nəşrlərin, sahibkarlıq sahəsində aparılan yoxlamaların və qüvvədən düşmüş sənədlərin reyestrlərini, vətəndaşlıq vəziyyəti aktlarının, qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatını aparır, penitensiar sistemə rəhbərlik edir, ədalət mühakiməsi əleyhinə və bir sıra digər cinayətlər üzrə ibtidai istintaqın aparılmasını, notariat fəaliyyətini, məhkəmə ekspertizalarının keçirilməsini, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmələrin və digər orqanların qərarlarının icrasını və probasiya nəzarətini təmin edir. Həmçinin nazirlik bələdiyyələrə metodoloji yardım göstərir və inzibati nəzarət edir, Ədliyyə Akademiyasında ədliyyə və məhkəmə işçiləri, vəkillər, bələdiyyə üzvü və qulluqçularının və digər hüquqşünasların ixtisasartırmasını, habelə peşə fəaliyyətinə buraxılışı, ölkəmizin adından hüquqi yardım və əməkdaşlıq haqqında müqavilələrin bağlanmasını və onların icrasını, beynəlxalq sahədə hüquqi yardım göstərilməsini təmin edir və digər funksiyaları həyata keçirir.

Bütün bu fəaliyyət sahələrinin arxasında geniş həcmli konkret işlər dayanır.

Son 15 ildə nazirlik tərəfindən 32 mindən artıq qanunvericilik layihəsi ekspertizadan keçirilmiş, 6.500-dən çox layihə hazırlanmış, əhalinin təmənnasız istifadəsinə verilmiş milli qanunvericiliyin elektron bazalarına vətəndaşlar tərəfindən hər il yüz minlərlə, 2018-ci ildə isə artıq bir milyondan çox müraciət edilmişdir.

Notariat orqanlarının cəmiyyətdə rolu artmış, fəaliyyəti müasir İKT-lər tətbiq olunmaqla təkmilləşdirilmiş, universal elektron xidmət köşkləri yaradılmış, notariat əməliyyatların sayı 3 dəfə artaraq 4 milyona yaxınlaşmışdır.

Yeni çağırışlara uyğun olaraq elektron ədliyyə xidmətlərinin çeşidi mütəmadi artırılır, keyfiyyəti yüksəldilir. Elə bu günlərdə notariat haqqında qanuna mühüm dəyişikliklər edilərək notariat xidmətlərin məsafədən, video əlaqə vasitəsi ilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə sərhəddə, hava və dəniz limanlarında, dəmiryolu vağzallarında quraşdırılacaq xüsusi ədliyyə köşkləri vasitəsilə ilk dəfə olaraq, notariat sənədlərinin tərtib olunaraq əldə edilməsi mümkün olacaqdır. Həmçinin artıq səyyar elektron xidmətlər göstərmək üçün xüsusi çantalar hazırlanmışdır.

Qeyd olunmalıdır ki, bu sahədə nailiyyətlərimizə beynəlxalq aləmdə böyük maraq göstərilir, müsbət təcrübəmizinin öyrənilməsi ilə bağlı xarici həmkarlarımız tərəfindən müraciətlər edilir və ölkəmizin beynəlxalq tədris mərkəzi kimi seçilməsinə dair təşəbbüslər irəli sürülür.

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı işi təkmilləşdirilmiş, Əhalinin Dövlət Reyestri avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi yaradılaraq 75 il ərzində toplanmış 15 milyondan çox akt qeydi nəhəng iş sayəsində elektron formata keçirilərək bu sistemə daxil edilmişdir.

Əhalinin rifahının yaxşılaşması, yoxsulluğun azaldılmasına yönəlmiş dövlət siyasətinin müsbət nəticəsi olaraq son 15 ildə nikahların sayı xeyli çoxalmış, qeydə alınmış doğumların sayı isə 45 faiz artmışdır.

Doğumun qeydiyyatının bilavasitə tibb müəssisələrində səyyar qaydada aparılması, habelə nikahın təntənəli qeydiyyatı təşkil olunmuş, qeydiyyat prosedurunu asanlaşdıran, eləcə də Azərbaycan adları, onların mənası və izahı və s. barədə informasiya almaq üçün geniş axtarış sisteminə malik olan elektron xidmətlər istifadəyə verilmişdir.

Təsadüfi deyil ki, ölkə başçısının təşəbbüsü ilə yaradılmış və artıq bütün dünyada Azərbaycan brendi kimi məşhurlaşmış “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərən notariat və qeydiyyat orqanları tərəfindən 5 milyona yaxın əməliyyat aparılmış və verilən sənədlərin 40 faizdən çoxu məhz ədliyyə qurumlarının payına düşmüşdür.

Mülki və iqtisadi münasibətlərin sürətlə inkişafı, məhkəmələrdə baxılan işlərin ötən dövrdə dəfələrlə çoxalması icra xidmətində də iş həcminin ilbəil artmasına səbəb olmuş, icra sənədlərinin sayı 2003-cü illə müqayisədə 15 dəfə çoxalaraq 2017-ci ildə 870 min təşkil etmişdir.

Həmçinin nazirlikdə 2000-ci ildən fəaliyyət göstərən İstintaq idarəsinin səlahiyyətləri xeyli genişləndirilmiş, penitensiar müəssisələrdə qadağan olunmuş əşyaların qanunsuz dövriyyəsi, alimentin ödənilməsindən yayınma ilə bağlı cinayətlərin istintaqı nazirliyə həvalə olunmuşdur.

Ölkədə bütün növ (qeyri-tibb) məhkəmə ekspertizalarını aparan və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə töhfələr verən nazirliyin Məhkəmə Ekspertizası mərkəzinə məhkəmə və istintaq orqanlarından hər il daxil olan 30-35 min sənədə baxılır, 40-dan çox ixtisas üzrə 800 minədək suala cavab verilir, qaldırılan məsələlərin 99,5 faizi həll olunur. Ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Mərkəzin regional filialları yaradılmış, beynəlxalq əməkdaşlıq genişlənərək Mərkəz Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə üzv qəbul edilmiş, bir neçə ekspertiza növləri beynəlxalq sertifikatlara layiq görülmüşdür. Mərkəzin infrastrukturun müasirləşdirilməsi dövlət başçısının diqqət mərkəzində saxlanılmış, o cümlədən 11.06.2018-ci il tarixli sərəncamla Mərkəz üçün yeni binanın inşası ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur.

Ötən dövrdə yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət qaydasında yarım milyona yaxın bələdiyyə aktına baxılmış, 14 min bələdiyyə aktı ləğv edilmiş və ya dəyişdirilmiş, qanunsuz ayrılmış 50 min hektardan artıq torpaq sahəsi geri qaytarılmış, bələdiyyələrə 32 min tövsiyə göndərilmişdir.

Açıq hökumətin təşviqi və şəffaflıq prinsiplərinə uyğun olaraq nazirliyin 10 internet saytı fəaliyyət göstərir, 5 mətbu orqanı nəşr edilir, ədliyyə islahatlarının vüsət aldığı son dövrlərdə mətbuatda 3.200-ə yaxın məlumat yayımlanmış, ədliyyə naziri yanında QHT nümayəndələrindən ibarət İctimai Komitə müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunmuşdur.

Ötən dövrdə penitensiar sistemdə köklü islahatlar aparılmış, qanunvericilik təkmilləşdirilmiş, məhbusların hüquq və imtiyazları genişlənmiş, infrastruktur yaxşılaşdırılmış, o cümlədən Naxçıvanda, Şəkidə, Bakı şəhəri Zabrat qəsəbəsində yeni müasir komplekslər istifadəyə verilmişdir. Saxlanılma şəraitinin və tibb xidmətinin yaxşılaşdırılması nəticəsində 2003-cü illə müqayisədə penitensiar müəssisələrdə ölüm hadisələrinin sayı 40 faiz, vərəmdən ölənlərin sayı isə 16 dəfə azalmışdır.

Beynəlxalq Qırmızı Xaç Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə Azərbaycanın nailiyyətlərinin yayılmasını tövsiyə etmiş, Nazirliyin Vərəm üzrə Təlim Mərkəzinə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən beynəlxalq status verilmiş, 20 dövlətdən 230-dək nümayəndə Bakıya səfərlər edərək müsbət təcrübəmizdən bəhrələnmiş, bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılmışdır.

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının 10.02.2017-ci il tarixli sərəncamı bu sahədə ədliyyə və məhkəmə sistemi üçün “yol xəritəsi” olmuşdur. Sərəncama uyğun olaraq Cinayət Məcəlləsində dəyişikliklər edilərək bir sıra əməllər dekriminallaşdırılmış, yeni qanunun təsiri altına düşən 5.700-ə yaxın məhkumun cəzası yüngülləşdirilmiş, o cümlədən 1.700-dək şəxs azadlıqdan məhrumetmə və digər cəzalardan azad olunmuşdur.

Sərəncamın icrası nəticəsində istintaq təcridxanalarına daxil olan həbs olunmuş şəxslərin sayı 25 faiz azalmış, həmçinin məhkəmələr tərəfindən azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının sayı enmişdir. Eyni zamanda, həbs qətimkan tədbirinə dair prokurorlar tərəfindən məhkəmələrə verilmiş təqdimatların sayı təxminən 22 faiz, həbsdə saxlama müddətinin uzadılması barədə müraciətlərin sayı isə 37 faiz azalmışdır.

Sərəncama uyğun olaraq, həmçinin alternativ cəzaların icrasına effektiv nəzarətin təşkili məqsədilə Nazirlikdə yeni Probasiya xidməti yaradılmış, cinayət qanunvericiliyinə dəyişikliklər edilərək yeni cəza növü - azadlığın məhdudlaşdırılması cəzası müəyyən olunmuşdur.

Həmin cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi təmin olunmuş, bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmiş, xarici və yerli şirkətlərin nəzarət qurğuları sınaqdan keçirilmiş və yerli istehsalçıya üstünlük verilmişdir. Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş, məhkumları fasiləsiz izləməyə və operativ əlaqə qurmağa imkan verən Elektron monitorinq mərkəzi yaradılmış, mərkəzin imkanları və “elektron qolbağ”ın funksiyaları barədə geniş ictimai təqdimatlar keçirilmişdir. İstifadəsinə bir neçə aydır başlanılmış bu elektron nəzarət vasitələri artıq 500 şəxsə tətbiq olunmaqla səmərəli probasiya nəzarəti həyata keçirilir. Qısa müddətdə yaranmış müsbət təcrübəmizə maraq göstərilərək elektron nəzarət vasitələrinin tətbiqi digər dövlətlər tərəfindən yerində öyrənilir.

Təbii ki, ədliyyə işinin təkmilləşdirilməsində beynəlxalq tərəfdaşlarla səmərəli əlaqələrə, mütərəqqi təcrübələrin öyrənilməsinə xüsusi əhəmiyyət verilir. Ədliyyə Nazirliyi 16 çoxtərəfli mühüm konvensiya üzrə əlaqələndirici və ya səlahiyyətli orqan kimi müəyyən olunmuş, 30-dan çox beynəlxalq müqavilə və 32 dövlətin ədliyyə qurumları ilə əməkdaşlıq haqqında sazişlər üzrə xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq edir. Son 5 ildə nazirliyə 65 mindən çox beynəlxalq sənəd və sorğu daxil olmuş, xarici dövlətlərə 55 mindən artıq sənədlər göndərilmiş, 4 minədək beynəlxalq sənəd layihəsinin hüquqi ekspertizası keçirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən, həmçinin bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT, Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Avropa Ümumi Hüquq Təşkilatı (EPLO), Almaniyanın Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu (İRZ) ilə uğurlu əməkdaşlıq həyata keçirilmiş, birgə layihələr müvəffəqiyyətlə icra olunmuş, nazirliyin məsul təmsilçiləri Avropa Şurasının təsisatlarına, BPA, IAACA və digər mötəbər beynəlxalq qurumların rəhbər orqanlarına seçilmişlər.

Eyni zamanda, ədliyyə orqanlarının sağlam mənəviyyata, yüksək hazırlığa və peşəkarlığa malik işçilərlə möhkəmləndirmək üzrə məqsədyönlü tədbirlər görülür, açıq müsabiqələr əsasında test üsulu ilə şəffaf seçim aparılır. Yüksək tələbkarlıqla keçirilmiş müsabiqələr əsasında ümumilikdə 2.600 mütəxəssis nazirliyə qulluğa qəbul edilmişdir.

Ədliyyə Akademiyasında peşə fəaliyyətinə buraxılış institutu tətbiq olunaraq ilk dəfə ədliyyə orqanları işçisi, prokuror və müstəntiq vəzifələrinə, habelə vəkilliyə namizədlərin icbari təlimi həyata keçirilir.

Ədliyyə xidmətlərin səviyyəsinin yüksəldilərək müasir tələblərə uyğun qurulması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə yeni iş metodları, elm və texnikanın müasir nailiyyətləri tətbiq edilir.

Hazırda nazirlik tərəfindən 14 informasiya resursu, o cümlədən elektron notariat, əhalinin və qüvvədən düşmüş sənədlərin, habelə hüquqi aktların dövlət reyestrləri, elektron məhkəmə, elektron icra və digər informasiya sistemləri yaradılmışdır. Həmin resurslar müxtəlif dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya olunaraq hər gün on minlərlə sənəd üzrə məlumat mübadiləsi keçirilir. Eyni zamanda, nazirlik tərəfindən fiziki və hüquqi şəxslərə 31 növ elektron xidmət göstərilir, bu xidmətlərdən istifadələrin sayı 11 milyonu ötmüşdür.

Beynəlxalq təcrübədə yalnız bir neçə inkişaf etmiş dövlətlərdə rast gəlinən bu informasiya sistemlərinin tətbiqi nəticəsində ədliyyə orqanlarının fəaliyyətində şəffaflıq, insanların müraciət etmə, o cümlədən elektron yazışma imkanları genişləndirilmiş, vətəndaş-məmur təmasları azaldılmışdır.

Ədliyyə sahəsində islahatların davam etdirilməsi daim diqqət mərkəzində saxlanılaraq fəaliyyətin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan ədliyyəsinin inkişafına dair yeni Dövlət Proqramı hazırlanmışdır.

Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsinə xüsusi əhəmiyyət verilmiş, bu sahədə mütərəqqi qanunvericilik bazası yaradılmış, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı - Məhkəmə-Hüquq Şurası təsis edilmişdir. Məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi məqsədilə qanunvericiliyə 50-dək dəyişiklik edilmiş, şuranın səlahiyyətləri ilbəil genişləndirilmiş, o cümlədən hakimlərin müstəqilliyinin təmini və fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması həvalə edilmiş, hakimlərin təyinatında, səlahiyyətinə xitam verilməsində şuranın rolu artırılmışdır. Azərbaycanda hakimlərin maaşının məbləğini qanunla konkret müəyyən etməklə yanaşı, onun azaldılması qadağan olunmuşdur.

Ədalət mühakiməsinin səmərəliliyində məhkəmə infrastrukturunun müasirləşdirilməsi də az əhəmiyyət kəsb etmir. Son illər ərzində dövlət büdcəsi hesabına və Dünya Bankı ilə birgə 50-dək məhkəmə üçün müasir bina və komplekslərin layihələri hazırlanmış, 9 məhkəmə binası və 6 məhkəmənin yerləşdiyi 2 məhkəmə kompleksi tikilərək istifadəyə verilmişdir. Hazırda 5 məhkəmə üçün bina və komplekslərin inşası davam etdirilir.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatala rayon məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə vermişdir. Bununla yanaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi üçün yeni inzibati binanın inşası başa çatdırılmışdır.

Təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlulardan biri kimi qiymətləndirərək 2012-ci və 2017-ci illərdə “Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün innovativ üsulların yaradılması və tətbiqi” nominasiyalarının qalibi elan etmişdir.

Məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən islahatlar çərçivəsində “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında dövlət başçısının sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoymuşdur. Bu sistem məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Artıq bu sistemin ayrı-ayrı komponentləri - elektron sənəd dövriyyəsi, işlərin elektron qaydada bölgüsü, elektron idarəetmə və elektron məlumatlandırma proqramları, proseslərin elektron qeydiyyatı tətbiq olunur.

Təsadüfi deyil ki, 2017-ci ildə Azərbaycan Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində “Məhkəmənin nəbzi: İdarəetmədə inqilab” adlı layihə ilə iştirak etmiş və ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə “Ədliyyənin Kristal Tərəzisi” mükafatına layiq bilinmişdir.

Mütərəqqi islahatlarımıza beynəlxalq marağın nəticəsidir ki, ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) məhkəmə sisteminin inkişafına görə Azərbaycanı öncül ölkə kimi qiymətləndirmişdir.

Eyni zamanda, Avropa Şurasının və Dünya Bankının müraciətləri əsasında mütəxəssislərimiz xarici dövlətlərdə müsbət təcrübəmizi həmkarlarına aşılamış, digər ölkələrin məhkəmə hakimiyyətinin mötəbər nümayəndələri Azərbaycana gələrək nailiyyətlərimizdən bəhrələnmişlər.

Həmçinin hakimlərin iş yükünün həddən artıq çox olması ilə əlaqədar qanunvericilik və institusional tədbirlər görülmüş, icrası edilmiş məhkəmə qərarları üzrə icraata xitam verilməsi və icra işi üzrə icraatın dayandırılması səlahiyyətləri icra məmurlarına, habelə mülki xarakterli işlərin təxminən üçdəbirini təşkil edən əmr icraatı qaydasında baxılan mübahisəsiz tələblərin həllinin notariat orqanlarına həvalə edilməsi və mediasiya institutunun geniş təşviqi məhkəmələrin iş yükünün azalmasına xidmət etmişdir.

Yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə mütərəqqi Qaydalar hazırlanmış, müstəqil qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Çoxmərhələli imtahanlarda şəffaflıq və obyektivlik, o cümlədən bütün prosesin - sualların seçilməsi, çoxaldılaraq paylanması, nəticələrin yoxlanması və elan edilməsi, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, KİV nümayəndələrinin qarşısında keçirilməsi və onlayn rejimdə canlı yayımlanması, nüfuzlu beynəlxalq təsisatların da diqqətini cəlb etmişdir.

Bu prosesi bilavasitə izləyən Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ), habelə Avropa İttifaqı Azərbaycanda hakimliyə namizədlərin seçimini örnək kimi qiymətləndirmiş və digər dövlətlərə tövsiyə etmişdir.

Sözsüz ki, ədliyyə sisteminin inkişafı ölkəmizdə aparılan genişmiqyaslı islahatların və respublikamızın hərtərəfli tərəqqisinin məntiqi davamıdır. Belə ki, dövlət başçısının rəhbərliyi ilə son 15 ildə ardıcıl islahatlar aparılaraq ölkəmizin iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə artmış, yoxsulluq təxminən 10 dəfəyədək azalmışdır.

Ölkəmizin bilavasitə təşəbbüskarı olduğu qlobal enerji və nəqliyyat layihələri uğurla həyata keçirilir. Azərbaycan bu il 3-cü kosmik peykini orbitə buraxaraq dünyada sayı məhdud olan kosmik ölkələr sırasında mövqeyini daha da möhkəmlətmiş və iqtisadi rəqabət qabiliyyətliliyinə görə qabaqcıl ölkələr sırasında qərarlaşır. “Doing Business 2019” hesabatında ölkəmiz 190 dövlət arasında 25-ci yerə yüksəlmiş, qlobal səviyyədə ən islahatçı 10 ölkədən biri kimi müəyyən edilmiş, inkişaf etməkdə olan 80 ölkə arasında isə inklüziv inkişaf indeksinə görə 3-cü olmuşdur.

Xüsusilə Azərbaycanın Dünya İqtisadi Forumunun Qlobal rəqabətlilik hesabatında 2018-ci ildə iqtidara ictimai etimad kateqoriyası üzrə 137 ölkə arasında 20-ci pillədə olması xalq-iqtidar birliyinin bariz təzahürü olmuşdur.

Respublikamızın davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, mühüm sosial layihələrin, humanizm, tolerantlıq, multikulturalizm ideya və prinsiplərinin uğurla həyata keçirilməsində ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Bu il peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illiyi ilə bağlı ədliyyə işçiləri Fəxri xiyabana gedərək bu bayramı bizə bəxş edən ulu öndər Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirmiş, Şəhidlər xiyabanında şəhidlərimizin xatirəsini yad etmişlər.

Həmçinin Azərbaycan ədliyyəsinin keçdiyi şanlı tarixə nəzər salınır, gənclərlə görüşlər keçirilir, silsilə bayram tədbirləri, o cümlədən kütləvi idman yarışları, xeyriyyə aksiyaları, “açıq qapı” günləri, “dəyirmi masa” və yığıncaqlar təşkil olunur.

Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə “Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu” mövzusunda keçirilən beynəlxalq konfrans xüsusilə qeyd olunmalıdır. Xarici dövlətlərin ədliyyə nazirlərinin və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə keçirilən tədbir ədliyyə sisteminin inkişafı yolu və yaxşı təcrübələrin mübadiləsi üzrə faydalı müzakirələr aparılması baxımından olduqca əhəmiyyətlidir.

Eyni zamanda, nazirlik tərəfindən ədliyyənin 100 illik tarixinə dair xüsusi kitab, nazirliyin müasir fəaliyyətinə, o cümlədən hüquqi sahədə beynəlxalq əlaqələri əks etdirən müxtəlif dillərdə nəşrlər, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər hazırlanmışdır.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə dövlət başçısı cənab İlham Əliyevin ədliyyə və məhkəmə işçilərinə müraciəti, böyük bir qrup ədliyyə orqanları işçiləri və hakimləri ali xüsusi rütbələrə, fəxri adlara, orden və medallara layiq görməsi möhtərəm Prezidentin göstərdiyi diqqət və qayğının növbəti təzahürü olmuş, hər birimizdə böyük ehtiram hissi doğurmuşdur.

*Ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin qüdrətlənməsi və demokratik hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimiz cənab İlham Əliyevə yardımçı olmağı özlərinin vəzifə və vətəndaşlıq borcu sayırlar. Fürsətdən istifadə edib bütün ədliyyə işçilərini 22 noyabr peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edir, çətin və şərəfli işlərində müvəffəqiyyətlər arzulayıram.*

***Fikrət MƏMMƏDOV,***
***Azərbaycan Respublikasının ədliyyə naziri, I dərəcəli dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədri***

# Yüksəliş və quruculuq ünvanı

## Bu gün 69 yaşı tamam olan Sumqayıt Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində sürətlə inkişaf edir











Əvvəli 1-ci səh.

Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin ediləndə Sumqayıtda əsas etibarı ilə metallurgiya və kimya müəssisələri var idi. Bir il sonra məhz Heydər Əliyevin təşəbbüsü ilə bu şəhərdə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal müəssisələri istismara verildi. Ümumiyyətlə, 1969-82-ci illərdə ulu öndərin rəhbərliyi altında Sumqayıtda bir çox müəssisələr istifadəyə verilmişdir. Bunlardan Kompressorlar zavodunu, Üst trikotaj və Xovlu İplik fabriklərini, Süd və Yeyinti məhsulları kombinatlarını, 20-dən çox orta məktəbi, uşaq bağçalarını, Ü.Hacıbəyli adına "Kimyaçılar" mədəniyyət sarayını və başqa obyektləri misal göstərmək olar.

Məhz 70-ci illərdə əsaslı tikintinin geniş miqyas alması nəticəsində Sumqayıt nəhəng tikinti meydançasına çevrilmişdi. Şəhərə gələn qonaqlar, xarici nümayəndələr burada aparılan nəhəng quruculuq prosesinin miqyası və vüsətinə heyran qalırdılar. Dünyanın demək olar ki, əksər ölkələrinə ixrac olunan şəhər sənayesi məhsullarının keyfiyyəti və müəssisələrin əsaslı tikintisinin gedişi ilə maraqlanan, tez-tez məlumatlar alan ölkə rəhbəri Sumqayıtı daim öz nəzarəti altında saxlayır, onun ortaya çıxan bütün problemlərini operativ həll edirdi. Bu diqqət və qayğının nəticəsi idi ki, 70-ci illərdə Sumqayıtda hər il 80 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilirdi. Hazırda fəaliyyət göstərən istehsalat sahələrinin çoxu, 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız-hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz ümummilli liderin o dövrdəki məqsədyönlü siyasətinin bəhrələridir.

1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başladı. Onun istehsal etdiyi məhsullar ölkənin 700 şəhərinə ixrac olunurdu. Bütün bunlar ulu öndərin Sumqayıta olan münasibətini nümayiş etdirirdi. Azərbaycan imperiya tərkibində olmasına baxmayaraq bu cür inkişaf edirdi. Ən əsası respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Sakinləri isə yaradıcı əməkləri ilə şöhrət qazanır, ucalırdılar. Sumqayıt keçmiş Sovetlər Birliyində dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdı.

Sovet İttifaqı dağıldıqdan sonra iqtisadi əlaqələrin qırılması, xammal və satış bazarının olmaması, eləcə də zavod və fabriklərdəki avadanlıqların fiziki və mənəvi köhnəlməsi səbəbindən demək olar ki, əksər zavod və fabriklər öz fəaliyyətini dayandırmış və ya az güclə işləməyə başlamışdı. Bu proses əhalinin sosial durumunun aşağı düşməsinə gətirib çıxarmışdı. Ancaq ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, Sumqayıt sənayesi də özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. 1993-cü il dekabrın 18-də ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərimizdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, "Şəhidlər xiyabanı" kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdi. Ulu öndərin uğurlu və uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermiş, qurub yaratmağa yüksək həvəs, gələcəyə böyük inam yaranmışdır. Bundan sonra Heydər Əliyev 5 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bu səfərlər ulu öndərin Sumqayıta və sumqayıtlılara böyük diqqətinin təzahürü idi.

### Şəhərin yüksəlişinə yol açan 20 səfər

Ümummilli liderin bu şəhərlə bağlı qarşıya qoyduğu vəzifə bu idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin, yerli kadr potensialına söykənərək müasir müəssisələr açılsın. Ən vacibi isə Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın və yeni iş yerləri açılsın, Sumqayıt yenidən iqtisadi və kadr potensialı ilə seçilən bir şəhərə çevrilsin.

Son 15 ilin mənzərəsi göstərir ki, ulu öndər Heydər Əliyevin arzuları reallığa çevrilir. Çünki Sumqayıtın tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin əsas hədəflərindəndir. Bu gün Sumqayıt Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını duyur və hiss edir. Bunu Prezident İlham Əliyevin son 15 ildə Sumqayıta 20 dəfə səfər etməsi də göstərir. Dövlət başçısının hər səfəri şəhərin yüksəlişində yeni mərhələnin əsasını qoyub, yeni inkişaf planlanının həyata keçirilməsinə təkan verib.

Bu illərdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası nəticəsində ölkənin makroiqtisadi göstəricilərində şəhərimizin xüsusi çəkisi yuksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb.






### Modern sənaye mərkəzi

Sumqayıt müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarır və bu istiqamətdə inamla irəliləyir. Ona görə, əminliklə deyə bilərik ki, Sumqayıt Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir.

Son 10 ildə gücü 525 MVt olan Elektrik Stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı, Texnoil MMC mühərrik yağları istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış 13 zavodu, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları, "Aqrokimya Azərbaycan" MMC tərəfindən pestisidlər istehsalı zavodu, "SOCAR Polimer" layihəsi çərçivəsində polipropilen zavodu istifadəyə verilmişdir.

Noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında Prezident İlham Əliyev Sumqayıtın sənaye şəhəri kimi bundan sonra da uğurla inkişaf edəcəyini bildirib: "Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, Olimpiya Kompleksi, xəstəxana istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik".

Təsadüfi deyil ki, şəhərdə ümumi daxili məhsul buraxılışı 2003-cü ilə nisbətdə 2017-ci ildə 9,5 dəfə, sənaye məhsulunun həcmi 9,1 dəfə, əsas kapitala yönəldilmiş vəsait 20 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 20 dəfə artmışdır. Bu ilin yanvar-oktyabr ayları ərzində isə ÜDM buraxılışı 1,6 milyard manat, sənaye müəssisələrində məhsul istehsalı 1,1 milyard manat təşkil edib. Onu da qeyd edim ki, yeni müəssisələrin yaradılması nəticəsində Sumqayıtda 2003-2017-ci illər ərzində 61880-i daimi olmaqla, 78620 yeni iş yeri açılmışdır.

### Dünyanı heyran qoyan şəhər

Prezident İlham Əliyevin Sumqayıta hər səfəri zamanı verdiyi tövsiyə və tapşırıqların, sərəncamların icrası və həyata keçirilən genişmiqyaslı tədbirlər sənayedə olduğu kimi, həm də tikinti, abadlıq və quruculuq sahəsində də əsaslı dönüş yaradıb. Ölkə rəhbərinin tövsiyələri, tapşırıqları və dəstəyi sayəsində Sumqayıtda abadlıq, quruculuq, yaşıllaşdırma işləri, yeni sosial obyektlərin tikintisi və təmiri, şəhərin memarlıq və dizayn baxımından müasir görkəmini saxlamaq şərti ilə irimiqyaslı layihələr icra olunub. Xüsusilə Prezident İlham Əliyevin tapşırığı və qayğısı sayəsində şəhərdə 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən başlayaraq abadlıq, quruculuq, yaşıllaşdırma sahəsində irimiqyaslı ünvanlı layihələrin icrasına başlanılıb və qısa müddətdə uğurla başa çatdırılıb. Bunlardan biri şəhərin əsas giriş yolu olan Sülh küçəsi 4,2 kilometr məsafədə hər iki tərəfə genişləndirilərək 90 min kvadratmetrə çatdırılmasıdır. Sumqayıtın ikinci giriş yolu olan Sahil küçəsi də 7,5 kilometr uzunluğunda yenidən qurulub, yolun eni 13 metrə çatdırılıb. Corat qəsəbəsindən keçən hissədə sakinlərin istirahəti üçün park salınıb.

Sumqayıt Dövlət Dram Teatrı əsaslı təmirdən sonra istifadəyə verilmiş, müasir avadanlıqlarla təchiz edilmiş, 500 yerlik tamaşa, 100 yerlik akt zalları, iş otaqları, işıqlandırma sistemi müasir üslubda yenidən qurulmuşdur. Binanın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənmiş, iki fəvvarə və monitor quraşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin adını daşıyan parkda yenidənqurma işləri aparılıb, ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib, əhalinin istirahəti üçün hər cür şərait yaradılıb. Parkda yeni yaşıllıq zolağı salınıb, rəngli fəvvarələr kompleksi və Bayraq Meydanı tikilib və uşaqlar üçün əyləncə mərkəzi inşa olunub.

Heydər Parkında sahəsi 5 min kvadratmetr olan 4 mərtəbəli Heydər Əliyev Mərkəzi inşa edilib, önündə ulu öndərin ağ mərmərdən heykəli ucaldılıb. Mərkəzdə onun həyat və fəaliyyətini əks etdirən muzey, 420 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompüter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərir.

Parkda müasir memarlıq üslubunda sahəsi 2950 kvadratmetr olan 735 yerlik 3 mərtəbəli uşaq incəsənət məktəbi tikilib. Məktəbdə 60 sinif otağı fəaliyyət göstərir. Burada 700-dən çox şagird təhsil alır və 200-dən artıq müəllim çalışır. Yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 1000 kvadratmetr olan ikimərtəbəli şahmat məktəbi də tikilib və müasir avadanlıqla təchiz edilib.

Sumqayıt dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Şəhərdə son illərdə reallaşan ən möhtəşəm layihələrdən biri də Xəzərin sahilində uzunluğu 4,2 kilometr, sahəsi 106 hektar olan, əhalinin istirahəti üçün bütün şərait yaradılan, müasir tələblərə cavab verən dənizkənarı bulvardır. Ötən il Madriddə və Parisdə keçirilən "Global Trade Leaders Club"un forumlarında Sumqayıtın yeni salınmış bulvarı "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır.

Şahmat məktəbi, Yeni Azərbaycan Partiyasının Sumqayıt təşkilatının inzibati binası, Bayraq Muzeyi, "Asan xidmət" mərkəzi, Mərkəzi Bankın Ehtiyat Sistemi binası, 500 metr uzunluğunda tərsanə, şəhərin əsas giriş yolunda Bayraq Meydanı, Paraolimpiya və Olimpiya idman kompleksləri, əlillərin bərpa mərkəzi, şəhər prokurorluğunun binası da Sumqayıtın son illərdəki yeni ünvanlarıdır. Bunlardan başqa son illərdə Sumqayıtın Tarix muzeyi, Cümə məscidi, mərkəzi xəstəxana, "Kimyaçılar" Mədəniyyət Sarayı, 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin, 3 saylı Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları, 7650 şagird yerlik 8 məktəb binası, General M.Əsədov adına 1176 şagird yerlik gimnaziya əsaslı təmir edilib. Həmçinin əlillərin bərpa mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası tikilmiş, 600-dən artıq çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilmiş, 1660 şagird yerlik 5 məktəb binası, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbinin tədris korpusu tikilmişdir.

Prezident İlham Əliyevin yaxından köməyi sayəsində son illərdə istismar müddəti ötmüş 305 ədəd lift dəyişdirilərək elektron tipli liftlərlə əvəz olunmuş, 18 liftdə əsaslı, 54 liftdə cari təmir işləri aparılmışdır. 82 ədəd lift "onlayn" rejimdə işləyən intellektual idarəetmə sisteminə - Mərkəzləşdirilmiş Dispetçer xidmətinə qoşulmuşdur. Hazırda digər liftlərin də bu xidmətə qoşulması istiqamətində işlər aparılır.

Son səfərindən sonra Prezident İlham Əliyevin Sumqayıtda çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə 5 milyon manat, avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı ilkin olaraq 1,5 milyon manat ayırması şəhərimizdə abadlıq və quruculuq işlərinin sürətlə həyata keçirilməsinə yol açacaq. Sumqayıt ictimaiyyətinin nümayəndələri bütün bunlara görə, cənab Prezidentə sonsuz minnətdarlıqlarını bildirir, abadlıq və quruculuq işləri üçün yeni vəsait ayrılmasını şəhərimizin inkişafına diqqət və qayğısının təzahürü kimi qiymətləndirirlər.

Hazırda möhtərəm Prezidentin tapşırığı və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Sumqayıt şəhərində məskunlaşmış məcburi köçkünlər üçün 12-ci mikrorayonda 936 ailənin və Stansiya Sumqayıt yaxınlığında 1000 ailənin köçürülməsi üçün yeni yaşayış binaları inşa edilir.

Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə görülən işlər nəticəsində Sumqayıt həm gözəlləşib, həm də şəhərimizdə tamamilə yeni infrastruktur yaranıb. Hansı ki, bu infrastruktur uzun onilliklər sumqayıtlılara ən yüksək standartlar çərçivəsində xidmət edəcək. Cənab Prezidentin qayğısı və diqqəti isə bizi daha məsuliyyətlə və fədakarlıqla çalışmağa sövq edir. Bu xoş gündə dövlətimizin başçısını bir daha əmin edirik ki, qarşımızda dayanan vəzifələri bundan sonra da layiqincə yerinə yetirmək üçün var gücümüzlə çalışacağıq.

***Zakir FƏRƏCOV,***
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***










# Heydər Əliyev Fondunun Nizami Gəncəvi irsini təbliğ edən daha bir layihəsi - "Yeddi gözəl" sərgisi Moskvada açılıb










Noyabrın 20-də Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib.

Sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə keçirilir.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: "Bu gün biz "Yeddi gözəl" sərgisinin açılışını edirik. Sərginin konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin poeması və dünya şöhrətli bəstəkar Qara Qarayevin baleti əsasında qurulub. Bu gün siz miniatürləri, xalçaları və zinət əşyalarını görə biləcəksiniz. Ekspozisiya, həmçinin Azərbaycan klassik musiqisi, klassik rəqslər və müasir incəsənət elementləri ilə zənginləşdirilib. Sərgiyə gələn tamaşaçılar yeddi gözəl və Bəhram şah əfsanəsinin sehrinə dalacaqlar. "Yeddi gözəl" poeması Şərq poeziyasının ən yaxşı nümunələrindən biridir. Poemanın dərinliyi, fəlsəfi aləmi xalçalar, kitab miniatürləri proyeksiyaları, dekorativ tətbiqi sənət nümunələri və instalyasiyalar vasitəsilə təqdim olunur. "Yeddi gözəl" baletinə həsr olunmuş və bu gün tamaşaçılara təqdim olunan arxiv materialları çox qiymətli tarixi arayışlardır. Bu gün siz qədim afişalar, baletin proqramları, fotoşəkillər vasitəsilə informasiya əldə edə bilərsiniz. "Yeddi gözəl" sərgisinin açılışı olduqca əhəmiyyətlidir. Çünki dahi Nizaminin əsərləri Azərbaycan ədəbiyyatının böyük bir dövrünü əhatə edir.

Əziz dostlar, müddətsiz yaradıcılıq göylərin bizə göndərdiyi nemətdir. O, insana daha da yaxşı olmaqda, öz qəlbinin dərinliklərinə varmaqda və ən ali qüvvə olan sevgini özü üçün açmaqda kömək edir.

Mən bu imkanı yaratdığına görə Yelena Titovaya təşəkkürümü bildirmək istəyirəm. Sərgi üzərində işləyən hər kəsə təşəkkür edirəm. Bu gün bizimlə olduğunuz üçün hamınıza minnətdaram".

Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyinin direktoru Yelena Titova çıxış edərək bildirib ki, muzeyin Azərbaycandan olan həmkarları ilə çox yaxşı əlaqələri var. Heydər Əliyev Fondu və Azərbaycan Xalça Muzeyi ilə xüsusilə səmimi münasibətlərinin olduğunu diqqətə çatdıran Y.Titova deyib: "Yeddi gözəl" şərqsayağı zərif, dərin fəlsəfi mənaya və valehedici dizayna malik sərgidir. Sərgidə müasir texnologiyalar, zəngin tarix, rəssamların ustalığı əksini tapıb. Sərgi salonlarının əksəriyyəti Qara Qarayevin yaradıcılığına həsr olunub. Onun "Yeddi gözəl" baleti nadir əsərdir. Lakin sərgi təkcə balet haqqında deyil, onun konsepsiyası daha genişdir. Ekspozisiya böyük Azərbaycan eposu - XII əsr dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin poemasına əsaslanır".

Y.Titova sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, Azərbaycan Xalça Muzeyinin əməkdaşlarına və bu işdə əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Son aylarda Moskvada Azərbaycana həsr olunmuş bir neçə əhəmiyyətli tədbirin keçirildiyini xatırladan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib: "Bu yaxınlarda - oktyabr ayının ortalarında Moskva meriyası ilə üzbəüz mərkəzi meydanda "Azərbaycanın payız sovqatları" sərgisi açılmışdı. Beş gün ərzində sərgini 70 mindən çox adam ziyarət etdi. Dünən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin büstünün açılışı, Moskva Dövlət Universitetində "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Bu gün bu gözəl muzeydə, özü-özlüyündə muzey olan bu nadir binada "Yeddi gözəl" sərgisi açılır".

Tədbirlərin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edən diplomat deyib: "Bütün bu tədbirlər Heydər Əliyev Fondunun dəstəyi sayəsində ərsəyə gəlib. Mən, həmçinin bu tədbirlərin təşkilində fəal iştirakına və yardımına görə Leyla xanıma minnətdarlığımı bildirmək istəyirəm. Nəsiminin xatirə abidəsinə görə xüsusi təşəkkür edirəm. Bu abidə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) kimi bir universitetdə qoyulub. Universitetə gələn hər yeni nəsil Nəsimi haqqında daha çox məlumat əldə edəcək. Bugünkü tədbirə gəldikdə isə sərgi iki xalqın və ölkənin həyatında əlamətdar hadisədir. Mən sizin hamınıza xoş ovqat arzu edirəm ki, bu sərgi xatirələrinizdə qalsın".

Sərginin ekspozisiyasının konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin eyniadlı baleti əsasında qurulub. Layihədə Azərbaycan mədəniyyəti xalça, zərgərlik və miniatür sənəti, müasir incəsənət, klassik musiqi və rəqsin sintezində təqdim olunur.

Ekspozisiya Heydər Əliyev Fondu, Azərbaycan Xalça Muzeyi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatlarından ibarətdir. Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparır. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılır.

Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparacaq. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılacaq.

Sərgidə nümayiş olunan "Miniatür" instalyasiyasını Azərbaycan rəssamı Rəşad Ələkbərov XVI əsrə aid "Kitab oxuyan gənc" Təbriz miniatürü əsasında yaradıb. Kompozisiyanın ideyası hər bir ziyarətçini qədim nağıl və əfsanələr aləminə aparan illüziya portalının yaradılması üzərində qurulub. Burada tamaşaçıların gözü önündə Nizaminin poeması canlanır. "Kitab oxuyan gənc" miniatürünü I Şah Təhmasib dövründə səfəvi rəngkarlığının zirvəsi sayılan Sultan Məhəmmədin yaratdığı bildirilir və bu əsər Parisdə V.Veverin kolleksiyasında qorunur.

Qara Qarayevin Nizami Gəncəvinin poeması əsasında yazdığı "Yeddi gözəl" baletindən səhnələr, həmçinin həmin tamaşaya aid arxiv materialları da sərginin ekspozisiyasına daxildir. Ziyarətçi burada özünü balet məkanında görür: onu Nizami qəhrəmanlarını canlandıran balerinalar əhatə edir.

Sərgi 2019-cu il fevralın 3-dək davam edəcək.

Qeyd edək ki, Heydər Əliyev Fondu dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığının yaşadılması və dünyada tanıdılması istiqamətində bu günədək bir sıra layihələr həyata keçirib. Bunların sırasında Gəncədə Nizami Gəncəvi Muzeyinin yaradılmasını, Fransa və onun regionlarında şairə həsr olunan sərgi və konfransların təşkilini, Romada Nizami Gəncəvinin abidəsinin ucaldılmasını, Sankt-Peterburqda Nizami Gəncəvi bağının yaradılmasını, Nizami Gəncəvinin "Xəmsə"sinin yeni formatda - "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarının Azərbaycan dilində ilk dəfə bir kitab şəklində nəşr olunmasını və digər layihələri qeyd etmək olar.

# Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini dünya ölkələri ilə bölüşmək niyyəti yüksək qiymətləndirilib



Almaniyada səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Berlində bir sıra görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə müvəkkili, səfir Haydrun Tempel, din məsələləri üzrə müvəkkili, səfir Folker Berreshaym və Cənubi Qafqaz və Mərkəzi Asiya şöbəsinin diplomatı Aksel Bayerlə görüşüb.

Daha sonra Almaniya Bundestaqında xarici siyasət komitəsinin üzvü, hakim Xristian-Demokratlar/Xristian-Sosialist İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbellə görüş keçirilib.

Görüşlərdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyəti və bu məqsədlə beynəlxalq tədbirlər həyata keçirməsi yüksək qiymətləndirilib. Bu xüsusda, Berlində keçirilmiş "Dinlər və mədəniyyətlərarası əməkdaşlıqdan dialoqa doğru" konfransının uğurlu təşkil edildiyi, Almaniya və digər dünya ölkələrinin dini icmalarının, eləcə də siyasi, elmi və mədəni dairələrinin orada yüksək səviyyədə təmsil olunduqları bildirilib. Dövlət başçısı İlham Əliyevin dəstəyi ilə həyata keçirilən beynəlxalq tədbirlərin insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verdiyi vurğulanıb və bu qəbildən olan tədbirlərin davamlı surətdə keçirilməsinin əhəmiyyəti qeyd olunub.

Allahşükür Paşazadə multikulturalizm və dini tolerantlığın Azərbaycan xalqının milli ruhundan irəli gəlməklə yanaşı, həm də dövlət siyasəti olduğunu deyib. O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir müstəqil Azərbaycanın bugünkü daxili və xarici siyasətində bu dəyərlərin təşviqi, ölkəmizin etnik, dini və mədəni müxtəlifliyinin qorunub saxlanılması, eləcə də müxtəlif mədəniyyətlər və dinlər arasında körpülərin yaradılması xüsusi yer tutur. Şeyxülislam Azərbaycanın bu səylərini yüksək qiymətləndirdiyinə və dəstəklədiyinə görə Almaniya tərəfinə təşəkkür edib.

Görüşdə Azərbaycan nümayəndə heyəti, həmçinin dünyada vicdan azadlığının təmin olunması, dini radikalizmlə və ksenofobiya ilə mübarizə aparılması kimi mövzuları müzakirə edib, ölkəmizin bu sahələrdəki təcrübəsi və nailiyyətləri barədə məlumat verib. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb, torpaqlarımızın 25 ildən artıqdır ki, Ermənistanın işğalı altında olmasına baxmayaraq, ölkəmizin bu münaqişənin sülh yolu ilə həllinə çalışdığı vurğulanıb.

Azərbaycan nümayəndə heyətinə Prezident Administrasiyanın millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin deputatı Cavanşir Paşazadə daxil olub. Nümayəndə heyətini ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov müşayiət edib.

# DSX ilə Türkiyə Silahlı Qüvvələri arasında əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir




2018-ci ilin noyabr ayının 20-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Türkiyə Respublikasının Silahlı Qüvvələri arasında ikitərəfli əlaqələrin vəziyyəti yüksək qiymətləndirilmiş və əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır. General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi qeyd etmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin inkişafına ciddi önəm verərək həyata keçirdiyi dövlət siyasəti sayəsində qarşılıqlı əlaqələrin ən yüksək səviyyədə olmasını vurğulamışdır.

Söhbət əsnasında ölkəmizin dövlət sərhədindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ərazimizin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərdən qeyri-qanuni məqsədlərlə istifadə hallarının davam etdirilməsi qeyd olunmuşdur. Bununla yanaşı, qeyri-leqal miqrasiya, qaçaqmalçılıq, narkotiklərin daşınması və digər transsərhəd cinayətkarlıq fəaliyyətləri ilə mübarizədə həyata keçirilmiş tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və qazanılmış nailiyyətlər barədə məlumat verilmişdir.

Tərəflər arasında sərhəd mühafizəsinin möhkəmləndirilməsi, təcrübə və məlumat mübadiləsinin aparılması, birgə təlimlərin təşkili, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və digər maraq doğuran məsələlər barəsində müzakirələr aparılmışdır.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral da iştirak etmişdir.

Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

*"Azərbaycan"*

# Aleksandru GİBOİ: "Yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunur"

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyəti düşündürən qlobal problemlərin həlli yollarının tapılması istiqamətində səmərəli müzakirələrin aparılması baxımından çox mühüm platformadır. Dünyaya önəmli sülh və dostluq mesajları verilən bu forumun əhəmiyyəti ondan ibarətdir ki, burada humanitariyanın bir çox sahələri ilə yanaşı, media ilə bağlı mühüm məsələlərin müzakirəsi də diqqət mərkəzində olur. Bu nəcib təşəbbüsə görə Azərbaycan rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bu sözləri Rumıniyanın AGERPRES milli xəbər agentliyinin sabiq baş direktoru, Avropa Xəbər Agentlikləri Alyansının baş katibi, VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı Aleksandru Giboi AZƏRTAC-a müsahibəsində söyləyib.

Aleksandru Giboi deyib ki, forum çərçivəsində AZƏRTAC tərəfindən təşkil olunmuş "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyada medianın gələcəyi ilə bağlı çox mühüm məsələlər müzakirə olundu. Mən də bu sessiyada çıxış etdim. Dəvətə və işçi sessiyanın yüksək səviyyədə təşkilinə görə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkür edirəm.

A.Giboi deyib: "Forum yüksək səviyyədə keçdi. "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyanı isə Humanitar Forumun güzgüsü adlandırmaq olar. Fikir mübadiləsində iştirak etmək, dünya xalqlarının nümayəndələri ilə görüşmək, təcrübəmizi paylaşmaq son dərəcə vacibdir. Kommunikasiya hər hansı bir problemin həllində açar rolunu oynayır".

İşçi sessiyanın mövzusuna toxunan A.Giboi yalan informasiyadan müəyyən maraqlar üçün istifadə olunduğunu bildirərək deyib: "Feyk xəbərlər insanların həyatına, hətta dövlətlərin fəaliyyətinə təhlükə yaradır. Onların qarşısının alınmasında xəbər agentlikləri çox vacib rol oynayır. Bu möhtəşəm forum çərçivəsində medianın problemlərinə xüsusi yer ayrılması çox sevindiricidir".

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Azərbaycan qlobal sərmayələr üçün geniş imkanlar məkanıdır

## İlham Əliyevin yeni iqtisadi strategiyasına uyğun yaradılan müasir sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə də mühüm töhfə verirlər

*Əvvəli 1-ci səh.*

Bu sənaye parkını şəhər içində bir sənaye şəhəri adlandıran İlham Əliyev gələcəkdə parkın hüdudlarının daha da genişləndiriləcəyini və yeni rezidentlərin qəbul ediləcəyini söylədi.

Onu da əlavə edək ki, sənaye parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, gömrük rüsumundan azad olunur. Bu günədək sənaye parkının rezidentləri artıq 255 milyon manat məbləğində vergi və gömrük rüsumlarından azad olunublar.

### İldə 11 milyard ədəd 3 növdə filtrli siqaretlər buraxılacaq

Dövlət başçısının açılışını etdiyi zavodlara gəlincə isə deyə bilərik ki, "Tabaterra" QSC-nin Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikində il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edəcək.

Ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada "Tabaterra"nın hər biri 6 çeşiddə "Senate", "Kingston", "Argo" adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, "British American Tobacco", "Japan Tobacco International", "Imperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi.

Layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri açılıb.

### Azərbaycan tarixində ilk dəfə ferrosilisium və ferrosilikoman istehsal ediləcək

Prezidentin açılışını etdiyi əlvan metallar və ferroərintilər zavodunda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq.

Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvari hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır. İstehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcək.

### İstehsal ediləcək yeni məhsullar idxalı tam əvəz edəcək

Prezident İlham Əliyevin həmin gün işə saldığı inşaat kimyəviləri zavodu isə 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub.

Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir.

2016-cı ilin martında rezident kimi qeydiyyata alınan zavod İsveçrə və Türkiyə texnologiyaları əsasında yaradılıb. İlkin mərhələdə müəssisənin illik istehsal həcmi 40 min ton tikinti qatqılarıdır. Zavodun məhsullarının Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və İrana ixracı nəzərdə tutulur.

İnşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin yerli təmsilçisi kimi Sumqayıt Kimya Sənaye Parkının 100 faiz xarici kapitallı rezidentidir. İnvestisiya dəyəri 3,5 milyon dollar olan layihə çərçivəsində 60 nəfər daimi işlə təmin olunacaq. Hazırda tikinti məhsullarının istehsalında xammal kimi istifadə edilən "Sikament 300", "Sikament FF5" və "Sigunit L25" kimi maddələrin Azərbaycana illik idxalı təqribən 800-1000 ton təşkil edir. Bu maddələrin ölkəmizdə istehsal edilməsi idxalı əvəz etməyə imkan yaradacaq, məhsullarda xarici komponentlərdən istifadəni azaldacaq.

### Fasonlu tökmə və metallurgiya zavodları da tikiləcək

Müəssisələrin açılışı zamanı öz xeyir-duasını verən Prezident İlham Əliyev əminliklə vurğuladı ki, umumi investisiya dəyərləri 102,5 milyon dollar olan 3 zavod çox səmərəli işləyərək ölkə iqtisadiyyatına böyük töhfə verəcək. Çünki bu müəssisələr ən yüksək standartlara cavab verir və ölkənin sənaye potensialını böyük dərəcədə möhkəmləndirəcək.

Mərasimdə qeyd edilib ki, yaxın gələcəkdə ölkəmizdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni, fasonlu tökmə zavodunun tikintisi nəzərdə tutulur. Bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağmədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.

Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi də nəzərdə tutulur. Artıq Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb və tikinti ilə bağlı texniki işlər yekunlaşıb.

### Davamlı iqtisadiyyatın sənayeləşməsi daha da sürətlənib

Müstəqil Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş mühüm layihələrdən biri də modern sənayeləşmədir. Sənaye quruculuğu siyasəti yeni dünya trendlərinə uyğun müəyyənləşdirilib. Son illərdə yeni dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirib.

Bu ilin 10 ayında qeyri-neft ixracının 12 faiz, ümumi ixracın isə 37 faiz artması bir daha təsdiqləyir ki, ixrac artdıqca ölkənin iqtisadi vəziyyəti daha da yaxşılaşır.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, ölkə iqtisadiyyatının ümumi inkişafına da mühüm töhfələr verir.

Uğurlarımız beynəlxalq reytinq təşkilatlarının, Dünya Bankının, Dünya İqtisadi Forumunun hesabatlarında öz əksini tapır. Dünya Bankının sonuncu "Doing Business" hesabatında Azərbaycan demək olar ki, tarixi nailiyyət əldə edib. Ölkəmiz dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il isə Azərbaycan 57-ci yeri tutmuşdu. Yəni, böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir



Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə Monqolustanın müvafiq qurumu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri yerinə yetirməklə yanaşı, bu sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlar və digər dövlətlərin ixtisaslaşmış orqanları ilə qurulmuş qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daha da genişləndirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sahədə formalaşmış müsbət tendensiyanın davamı olaraq Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin baş direktoru Enkjarqal Kurelsukun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi müsbət təcrübə və nailiyyətlərlə tanış olmaq, o cümlədən ixtisaslaşmış antikorrupsiya qurumları arasında ikitərəfli münasibətlərin təsis olunması məqsədilə respublikamızda səfərdədir.

Səfər çərçivəsində Fəxri xiyabana gələn Monqolustan nümayəndə heyəti müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla yad edərək məzarları önünə əklil qoyub.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını və "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin baş direktoru Enkjarqal Kurelsukun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Prokurorluğunda olub.

Görüşdə baş prokuror Zakir Qaralov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa arasında mövcud olan qarşılıqlı etimad və dostluq münasibətlərinin xalqlarımız arasında dərin tarixi köklərə söykənən siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün platforma təşkil etdiyini xatırladaraq ölkələrimiz arasında ikitərəfli münasibətlərin sürətlənməsinə geniş imkanlar yaratdığını bildirib.

Baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Enkjarqal Kurelsuk rəhbərlik etdiyi təşkilatın Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirib.

Görüşdə ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərinin gələcək inkişafına inam ifadə edilib, hüquqi əlaqələrin dərinləşdirilməsi perspektivləri müzakirə olunub.

Monqolustan nümayəndə heyəti Baş Prokurorluğun Tarix Muzeyində Azərbaycan dövləti, onun hüquq sistemi, dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan islahatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən guşə və digər ekspozisiyalar ilə tanış olublar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilib.

Baş prokurorun müavini - Baş İdarənin rəisi Kamran Əliyev ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən hərtərəfli islahatlar, korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər, bu sahədə ixtisaslaşdırılmış qurumlar olan Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, habelə cinayət təqibi orqanı funksiyasını yerinə yetirən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müsbət təcrübəsi və əldə etdiyi uğurlar barədə ətraflı məlumat verib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə qarşılıqlı fəaliyyətin səmərəliliyindən bəhs olunub, tərəfləri maraqlandıran digər məsələlər müzakirə edilib. Həmçinin iki ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Tədbirin gündəliyinə uyğun olaraq noyabrın 21-də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidməti arasında korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Sənədi Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş İdarənin rəisi Kamran Əliyev və Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil İdarəsinin baş direktoru Enkjarqal Kurelsuk imzalayıblar.

İmzalanma mərasimində hər iki tərəf sənədin məlumat və təcrübə mübadiləsi baxımından əhəmiyyətini yüksək qiymətləndirib, memorandum çərçivəsində əməkdaşlığın gələcək istiqamətlərini müzakirə edərək korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etmək barədə razılığa gəliblər.

Nümayəndə heyəti Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında müasir proqram təminatı ilə təchiz edilmiş "161 - Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi, kriminalistika otağı, müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana ilə yaxından tanış olublar.

Qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirlərin əks olunduğu jurnallar təqdim edilib.

Səfər çərçivəsində qonaqlar, həmçinin həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dövlət xidmətlərinin əlaqələndirilmiş şəkildə "vahid məkan" prinsipi əsasında təqdim olunduğu "ASAN xidmət" modeli, məhkəmə və prokurorluq orqanlarının infrastrukturunun müasirləşdirilməsi istiqamətində aparılan işlərlə də tanış olublar.

5 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti və vətəndaşlara göstərilən xidmət növləri ilə ətraflı tanış olan nümayəndə heyəti dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların məmnunluğuna, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının istisna olunmasına, müasir texnologiyaların tətbiqinə, məmur-vətəndaş təmas nöqtələrinin minimuma endirilməsinə istiqamətlənmiş mərkəzlərin fəaliyyətini təqdirəlayiq hesab ediblər.

Nümayəndə heyəti Nərimanov Rayon Məhkəməsinin və Sumqayıt Şəhər Prokurorluğunun yeni inzibati binaları ilə tanış olub, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə aparılan genişmiqyaslı islahatları, hüquq mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işləri və əməkdaşlar üçün yaradılmış şəraiti yüksək qiymətləndiriblər.

Səfəri zamanı qonaqlar ölkəmizin tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən olan Heydər Əliyev Mərkəzi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə də yaxından tanış olub.

Paytaxtın müasir görünüşü nümayəndə heyətinin üzvlərində xoş təəssürat və böyük maraq doğurub.

Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizə sahəsində səylərin birləşdirilməsi və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə bundan sonra da beynəlxalq tərəfdaşlarla əməkdaşlığını davam etdirəcək. Bu baxımdan imzalanmış Anlaşma Memorandumu əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə müsbət töhfə verəcək.

# Tehranda nəşr edilən "Xudafərin" jurnalının xüsusi buraxılışı alim-publisist Teymur Əhmədova həsr olunub




İranın paytaxtı Tehranda Azərbaycan dilində nəşr olunan "Xudafərin" jurnalının 168-ci xüsusi buraxılışı "Respublika" qəzetinin baş redaktoru, Özbəkistandakı "Turan" Elmlər Akademiyasının akademiki, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, professor Teymur Əhmədovun həyat və yaradıcılığına həsr olunub.

AZƏRTAC xəbər verir ki, təsisçisi və baş redaktoru Hüseyn Şərqidərəcək olan jurnal hər sayında Azərbaycan ziyalılarına da geniş yer ayırır. Jurnal "Teymur Əhmədov fenomeni" sərlövhəli məqalə ilə açılır. Məqalədə deyilir ki, Teymur Əhmədov ömrünün 50 ilini Azərbaycan elminə və mətbuatına sərf edərək bütün fəaliyyəti dövrü ərzində milli köklərimizə sadiq qalıb. Teymur Əhmədov imzası geniş ədəbi ictimaiyyətin yaxşı tanıdığı mötəbər tədqiqatçı alimlərdən biridir.

Akademiklər Cəmil Quliyev, Budaq Budaqov, Yaşar Qarayev, yazıçı Qılman İlkin, şair Nəriman Həsənzadə və başqalarının vaxtilə T.Əhmədov haqqında yazdıqları oçerklər də jurnala daxil edilib. Jurnalın digər bölməsində isə elm və mədəniyyət xadimlərinin - Azərbaycanın böyük yazıçısı Mirzə İbrahimovun, Mirvarid Dilbazinin, Kamal Talıbzadənin, İsa Həbibbəylinin, Zəlimxan Yaqubun, Əli Vəkilin, Nizami Cəfərovun və başqalarının Teymur Əhmədov haqqında fikirləri dərc olunub. Həmçinin jurnalda professor Teymur Əhmədovun "Mirzə Fətəli Axundzadənin ədəbi prosesə təsiri" və "Əndəlib Qaracadaği Nəbati" adlı məqalələrinə də yer verilib. Həmçinin publisist Həqiqət Kərimovanın "İki əsrin salnaməçisi" və "Nəriman Nərimanovun yorulmaz tədqiqatçısı" sərlövhəli məqalələri də jurnalın bu nömrəsinə daxil edilib.

Dərgidə qeyd edilir ki, T.Əhmədovun məşğul olduğu sahələrdən biri də ədəbiyyatşünaslıqdır. Onun yazdığı və tərtib etdiyi əsərlər ədəbiyyatımızın tarixində çox əhəmiyyətlidir. Nəriman Nərimanovun ədəbi, elmi, ideoloji-siyasi fikri Teymur Əhmədovun tədqiqatları nəticəsində həqiqi dəyərini alıb. Bu barədə jurnalın oxucularına ətraflı məlumat verilir.

# *Vladimir SOLOVYOV:* "Rusiyalılar müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq"

Noyabrın 21-də "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzində Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovun ölkəmizə səfərinin yekunlarına həsr edilmiş mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında informasiya məkanında ikitərəfli əməkdaşlığın perspektivləri mövzusuna da toxunulub.

Rusiya Jurnalistlər İttifaqının sədri başçılıq etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, 83 bölməsi olan Rusiya Jurnalistlər İttifaqının sıralarında 70 mindən çox jurnalist var. Bu, ölkənin jurnalistləri cəmiyyətinin elitasıdır. Rusiyadakı bütün jurnalistlərin təqribən 10-12 faizi bu ittifaqın üzvləridir. Rusiya Jurnalistlər İttifaqının sədrinin sözlərinə görə, ölkədə söz azadlığının müdafiəsi, jurnalistlərin peşəkar səviyyəsinin yüksək qalması üçün çox iş görülür. Rusiya Jurnalistlər İttifaqı Beynəlxalq Jurnalistlər İttifaqının üzvü olaraq beynəlxalq aləmdə fəal iş aparır.




Vladimir Solovyov vurğulayıb ki, Azərbaycanda səfərdə olmasına və Prezident İlham Əliyevin onu qəbul etməsinə görə çox məmnundur. O, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu, Azərbaycanda Rusiya mədəniyyətinə, Rusiya KİV-inə böyük hörmət bəsləndiyini vurğulayaraq deyib: "Rusiyadakı oxucular, tamaşaçılar və dinləyicilər müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq".

V.Solovyov daha sonra deyib: "Noyabrın 19-da biz Azərbaycan Mətbuat Şurası ilə Rusiya Federasiyasının Jurnalistlər İttifaqı arasında Əməkdaşlıq haqqında Memorandum imzaladıq. Düşünürəm ki, bu, daha əhəmiyyətli, daha geniş əməkdaşlıq yolunda ilk addımdır".

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan və Rusiya jurnalistlərinin qarşılıqlı fəaliyyətinin və əməkdaşlığının vacib olduğunu qeyd edib, imzalanmış memorandumun əhəmiyyətindən danışıb.

# SOCAR "Türkmənistan-2018: neft və qaz" sərgisində iştirak edir

SOCAR Aşqabadda işə başlayan "Türkmənistan-2018: neft və qaz" sənaye forumu və sərgisində iştirak edir.

AZƏRTAC xəbər verir ki, sərgidə 30 ölkəni 50-dək neft-qaz şirkəti təmsil edir. Sərgidə "Petronas", "Total", "Dragon Oil", "Eni", "CNPC", "Liebherr", "Татнефть" kimi şirkətlər də öz stendlərini nümayiş etdirir. Sərgidə əsas diqqət yenilənən enerji mənbələri sahəsində eko-innovasiyalara və perspektivli inkişaflara, müəssisələrdə ekoloji təhlükəsizliyin yaxşılaşdırılmasına yönəldilib.

Forumda (OGT-2018) isə 40-dan çox ölkənin ən böyük neft-qaz şirkətlərinin 500-ə yaxın nümayəndəsi iştirak edir. Tədbirdə neft-qaz sənayesində, eləcə də metallurgiya, kimya, mühəndislik sahəsində, energetika sənayesində fəaliyyət göstərən şirkət və müəssisələrin nümayəndələri öz məhsullarını nümayiş etdirməklə yanaşı, əməkdaşlıq əlaqələrini genişləndirmək və işgüzar əlaqələrin səmərəliliyinin artırılmasını müzakirə edirlər. Forum çərçivəsində keçirilən plenar iclaslarda neft və qazın qlobal enerji bazarında tendensiyaları, istehsalı, emalı sahəsində beynəlxalq əməkdaşlıq və ixrac perspektivləri müzakirə olunur. Forum və sərgi noyabrın 23-dək davam edəcək.

## Dövlət başçısına minnətdarlıq

# Şəhid ailələrinə həmişə dövlət dəstəyi və böyük ehtiram olub

### *Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanı bunun daha bir təsdiqidir*

Ərazilərinin 20 faizdən çoxu Ermənistanın təcavüzkar siyasəti ilə işğala məruz qalmış Azərbaycan dövlətinin itirdikləri həmin ərazilərdəki maddi-mədəniyyət abidələri, yeraltı və yerüstü sərvətləri, onlardan öncə isə sinəsini düşmən gülləsinə gərərək, torpaqlarımızın müdafiəsində qəhrəmancasına dayanmış şəhid olan övladlarıdır.


Əli Atayev


Əvəz Paşayev

“Torpaq, uğrunda ölən varsa, Vətəndir!” Aforizmə çevrilmiş bu çağırışla ötən əsrin səksəninci illərinin sonundan erməni qəsbkarları ilə ölüm-dirim savaşına qalxan cəsur, qorxmaz, igid oğullar, müdrik atalar elan olunmamış müharibənin könüllüləri kimi ön cəbhəyə yollandılar. Vətən darda olanda onun keşiyini çəkən oğullar olub. Bu dəfə də ərən igidlərimizin başı yastıq, gözləri yuxu üzünə həsrət qaldı. Gəlin-qızlarımızın xınalı əlləri göylərə ucaldı: “...Tanrı sizi qorusun!” Gedənlərin gələnləri də oldu, qayıtmayanları da...

Vətənimizin hər bölgəsində al-qırmızı qərənfil libaslı Şəhidlər xiyabanı salındı, torpaq uğrunda canlarından keçən oğullar göstərdikləri igidliklərə görə dövlətimiz və xalqımız tərəfindən şərəflə yad edildi, ruhları əziz saxlandı, məzarları ziyarətgaha çevrildi.

Ümummilli lider Heydər Əliyevin qaçqın və məcburi köçkünlərin, eləcə də şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində yürütdüyü humanist siyasət beynəlxalq təşkilatların da sənədlərində öz əksini tapdı. Nümunəyə çevrilmiş həmin siyasətin bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi isə nəinki həmin kateqoriyaya aid olanlarda, bütövlükdə xalqımızda belə bir ümid və inamı formalaşdırıb ki, hansı yolla olursa-olsun, işğal altında qalan torpaqlarımız da azad ediləcək.

Təbii ki, ölkəmizin iqtisadiyyatının güclənməsi xalqımızın, o cümlədən Vətən uğrunda canlarından keçən şəhidlərimizin ailələrinin də maddi rifahının yaxşılaşdırılması deməkdir. Müntəzəm olaraq şəhid ailələrinə göstərilən diqqət və qayğının daha bir nümunəsi də “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanıdır. Həmin fərmana əsasən, 1997-ci il avqustun 2-dək ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik 11 min manat ödəmələr nəzərdə tutulub. Bu fərman bir daha təsdiq edir ki, dövlət başçısı şəhidləri nəinki unutmur, həm də onların müqəddəs ruhunu uca tutur, ailələrinə böyük ehtiram göstərir, sosial müdafiələrini gücləndirir.

Artıq yüzlərlə şəhid ailəsi həmin yardımı aldıqlarını bildirir və dövlət başçısına minnətdarlıqlarını ifadə edirlər.

Belə şəhid ailələrindən biri də Atayev Əli Yunis oğludur. Şəhid Əlinin anası Pakizə Atayeva Göygöl rayonunun ərazisində salınmış Murovdağ qəsəbəsində 30 ilə yaxındır ki, məcburi köçkün həyatı yaşayır. Dərdi yalnız şəhid oğlunun acı taleyi, nakam ömrü deyil, həm də doğulduqları Kəlbəcərin işğal altında qalmasıdır: “Oğlum Kəlbəcər üçün canından keçdi ki, o cənnət-misal yerləri azad etsinlər...”

Ana ötənləri xatırlamağa çalışır: “Nakam taleli balam 1969-cu ildə Kəlbəcər rayonunun Kilisə kəndində anadan olmuşdu, 1986-cı ildə Çaykənd orta məktəbini bitirdi. 1986-1988-ci illərdə Almaniyada hərbi xidmətdə minaatıcı dəstənin komandiri kimi tanınmışdı. Bakı İnşaat Texnikumunu da bitirmişdi. Yol idarəsində baş mühəsib işləyirdi. Ermənilərin Kəlbəcəri mühasirədə saxladığı illərdə Əli də könüllü olaraq rayonun müdafiəsinə qalxdı: Ağdaban, Narışlar, Söyüdlü sərhəd keşikçi məntəqələrində oldu. 1993-cü ildə Kəlbəcər batalyonunun tərkibində döyüşdü. 1994-cü il yanvar ayının 3-də Kəlbəcərin işğaldan azad edilməsi üçün başlanan “Murovdağ əməliyyatı”nda şəhid oldu”.

Həmişə qayğısını görən, hər ay qazının, suyunun, işığının pulunu ödəyən dövlətimizin daha da qüdrətlənməsini arzu edən Pakizə nənə deyir ki, hər cür şəraitimiz var, şükür Allaha: “İndi də eşitdik ki, dövlətimizin başçısı şəhid ailələrinə birdəfəlik 11 min manat yardım edir. Az puldi bəyəm?! Görün bir nə qədər humanist Prezidentimiz var! Mehriban xanım Əliyeva əsgər anasıdır! Tanrı bütün əsgərlərimizi qorusun, Prezidentimizin də balası onlardan biri. Ulu öndərimiz Heydər Əliyevi 1993-cü ilin aprelində Murovda haraylayanlardan biri də mən olmuşam. Murovdağdakı zülmləri görüb biz kəlbəcərli şəhid anaları, məcburi köçkünlər səslənirdik ki, gəlib dövlətimizi bu bəladan xilas etsin! Gəldi və özü ilə də ölkəmizə dinclik, əmin-amanlıq gətirdi. İnşaallah, torpaqlarımız da azad ediləcək! Güclü Ali Baş Komandanımız, qüdrətli ordumuz var”.

...Ağsuda 1949-cu ildə doğulsa da, işi ilə əlaqədar 1955-ci ildən Bakı şəhərində yaşayan Əvəz Paşayev də Vətənin başı üzərini qara buludlar alanda könüllü olaraq Qarabağa, erməni daşnakları ilə savaşa yollandı...

Həyat yoldaşı Püstəxanım Paşayeva deyir ki, 26 ildir dörd uşaqla ailə qayğısı ilə baş-başayam: “Əvəz döyüşlərə gedəndə uşaq deyildi - 43 yaşı var idi. 1992-ci ildə Füzuli istiqamətində, daha doğrusu, Kürd-Mahmudluda gedən döyüşlərdə ermənilərin payını yaxşıca vermişdi. Dörd aydan sonra Qubadlıya getdilər, orada da vəziyyət gərgin idi. Dörd ay döyüşdü. Həmin il oktyabrın 16-17-də şəhid oldu, amma meyitini çıxara bilməyiblər. Ayın 28-də vertolyotla götürüblər. Döyüşçü dostları danışırdılar ki, o, təcrübəsiz gənc əsgərlərimizi müdafiə edib, onları mühasirədən sağ-salamat çıxarsa da, özünü qoruya bilməyib...”

26 ildir ki, ailənin bütün qayğılarını öz çiyinlərinə almış Püstəxanım Paşayeva dövlət tərəfindən daim diqqət və qayğı hiss edib: “Əvəzin şəhid adının əbədiləşdirilməsi ailəmizə, onun balalarına böyük təsəllidir. Sabunçu rayonunun 2-ci Zabrat qəsəbəsindəki mədəniyyət evi Əvəzin adını daşıyır və həyətdə büstü də qoyulub. Eşitmişik ki, büstün qoyulduğu ərazidə istirahət parkı salınacaq. Bu qədər ehtiram var şəhidimizə. Dövlət başçısına minnətdarlığımı bildirirəm. Birdəfəlik müavinət isə bizi daha da duyğulandırdı. Belə qayğını ancaq bizim dövlət başçısı göstərə bilər. Axı, o, ilk dəfə prezident seçilərkən demişdir ki, mən hər bir azərbaycanlının prezidenti olacağam. Vədinə sadiq Prezident Lələtəpədə olduğu kimi, Qarabağda da qələbə bayrağımızı qaldıracaq, buna inanırıq və ona uğurlar diləyirik”.

Aprel döyüşlərini xatırladan şəhid ailəsinin başçısı qəti əmindir ki, Milli Ordumuz Qarabağı işğaldan azad edəcək. Bu, Ali Baş Komandanımız kimi, hər bir şəhid ailəsinin də müqəddəs arzusudur. Dövlət başçısının imzaladığı fərmana münasibətini bildirən ana sonda “Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı bu fərman onun humanist siyasətinin, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə göstərdiyi yüksək diqqət və qayğısının bariz nümunəsidir, buna görə cənab Prezidentə ailəmiz adından bir daha minnətdarlıq edirəm” - söylədi.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# Qayğı qəlbimizə məlhəmdir

Yaşadığımız həyat bizə hər şeyi öyrədir. Qarşılaşdığımız çətinlik, kədər bəzən bir mərhəmətlə yox olur.

Oğlum Eldar Novruzov 1975-ci ildə doğulmuşdu. O, hələ uşaqlıqdan öz qüruru ilə seçilirdi. Alpan kənd orta məktəbində təhsil aldığı illərdə hamı onu rəssam kimi tanıyırdı. Özü isə “Uzaq sahillərdə” filminə baxdıqca - mən də Mehdi kimi olacam - deyərdi. Hətta bəzi məktəb tədbirlərində qəhrəmanların rolunu oynamaqdan həzz alardı.

Orta məktəbi bitirdikdən sonra sənədlərini ali məktəbə verdi. Amma lazımi bal toplaya bilmədi. Əsgərlik yaşı çatanda hərbi xidmətə yola saldıq. Kənddə toy-bayram etdik. Döyüşdüyü cəbhədən həmişə xoş sorağı gələrdi. Bir dəfə xəbər aldıq ki, yaralanıb. Sonra məlum oldu ki, bu, bir başqasıdır. Xəbəri özü biləndə gülərək demişdi ki, vətən yolunda cəsurdan güllə də qaçır.

Amma 24 il əvvəl Eldar canı qədər sevdiyi vətən yolunda şəhidlik zirvəsinə yüksəldi. O zamandan bəri daimi olaraq dövlətimizin qayğısını görmüşük, hər yerdə hörmətimizi saxlayıblar. Eldarın bacı və qardaşının uşaqlarını müəllimlər tədbirlərdə önə çəkib. Hər dərs ili başlayanda ilk dərs şəhidlərə həsr olunub və oğlum onların sırasında yad edilib.

Ümumiyyətlə, şəhid ailələrinə dövlət tərəfindən göstərilən qayğı həmişə fərqli olub. Ölkə rəhbəri şəhid ailələrinə lazım olan bütün köməyi daim edir. Azərbaycan dövləti ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə hər zaman qayğı göstərib. Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli fərmanı da bunun bariz nümunəsidir. Dövlət başçısının fərmanına görə, 1997-ci il avqustun 2-dək respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsinə başlanılmışdır. Artıq bir neçə şəhid ailəsi bu məbləği almışdır. Buna görə Prezident İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk. Qayğı və diqqət yaralı könlümüzə ən böyük məlhəmdir.

***Əmirsultan NOVRUZOV, Quba rayonu, Alpan kəndi***

# Hər zaman dövlətin diqqətini hiss edirik

Vətən, ana, bayraq sevgisi hər kəsin ürəyində qərar tutan ən ülvi hisslərdir. Bu müqəddəs dəyərlər uğrunda candan keçməyə dəyər. Qarabağ savaşı başlayanda qardaşım Şaiq də, mən də yetkinlik yaşındaydıq. Könüllülər sırasında biz də döyüşlərə atıldıq. Böyüdüyümüz mühit, aldığımız tərbiyə ürəyimizdəki vətən sevgisini alınmaz qalaya çevirmişdi. Döyüşdən-döyüşə daha da mətinləşir, azğın erməni yaraqlılarına sarsıdıcı zərbələr vururduq. Ağdərə rayonunun Qlobus deyilən ərazisində gedən ağır döyüşlərdə qardaşım Şaiq qəhrəmanlıqla döyüşərək həlak oldu. Müharibənin öz qanunları var, heç kəs ölümdən sığortalana bilməz. Vətən uğrunda şəhid olmaq isə şərəfli ölümdür. Şəhidlik mənsub olduğun nəslə-kökə qürur verir ki, bu da çox böyük təsəllidir.

Mən özüm Qarabağ müharibəsi veteranıyam, ağır döyüş yolu keçmişəm. Hazırda müharibə veteranı kimi təqaüd alıram. Hər zaman dövlətin qayğısını üzərimizdə hiss edirik. Üz tutduğumuz dövlət qurumlarında şəhid ailəsi olduğumuza görə hörmət və ehtiramla qarşılanırıq. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fərmanına əsasən hər bir şəhid ailəsinə ayrılmış 11000 manatı birinci alanlar arasındayıq. Bu qayğıya görə ailəmizin minnətdarlığını dövlət başçısına çatdırmağı özümə borc bilirəm. Bu, şəhidin ailəsinə dövlətin növbəti yardımı kimi qiymətləndirilməli və minnətdarlıqla qarşılanmalıdır. Son günlər mətbuatda şəhid ailələrinə ayrılan yardımların gecikdirilməsi ilə bağlı yayılan məlumatlar doğrusu, bir vətəndaş olaraq məndə təəssüf hissi doğurur. Əslində, bu, belə deyil. Prezidentin hümanizminə yüksək dəyər verilməlidir. Şəhid ailələri bunu qiymətləndirir və daim onların sosial müdafiəsinin gücləndirilməsi üçün imzaladığı fərmanlara görə cənab İlham Əliyevə minnətdar olduqlarını bildirirlər.

***Faiq CAHANGİROV, Bərdə şəhəri, H.Z.Tağıyev küçəsi, ev 32***

## Ölkəmizi tanıyaq

# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

Ötən 4 gün ərzində Gəncə şəhəri, Göygöl və Şəmkir rayonları ilə tanış olan, tarixi abidələrə, turizm obyektlərinə və istehsal müəssisələrinə ekskursiya edən Abşeron, Binəqədi, Sabunçu, Nərimanov, Şuşa, Zəngilan, Neftçala, Salyan, Şirvan və İmişli məktəbliləri arasında intellektual oyun keçirilib.

“Ölkəmizi tanıyaq” layihəsinin sonuncu günü keçirilən oyunda məktəblilər biliklərini nümayiş etdiriblər.

Məlumat verilib ki, “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində ənənəvi olaraq təşkil edilən bu intellektual oyunun keçirilməsində əsas məqsəd şagirdlərin indiyədək qazandıqları bilikləri və onların dünyagörüşünü artırmaq, ən savadlı gəncləri aşkara çıxarmaqdır.

Sonra intellektual oyunlara start verilib. İki saat davam edən yarışda 42 komanda iştirak edib. Məktəblilər hər birinin tərkibində 6 nəfərin olduğu 6 qrupa bölünüblər. İştirakçılara “Ölkəmizi tanıyaq” layihəsinə uyğun olaraq məntiq, tarix, Azərbaycan filmləri, dünyagörüşü, abidələrimiz, dahi şəxsiyyətlər, dünyada baş verən maraqlı hadisələr, məktəbdə tədris olunan fənlər üzrə 24 sual verilib. Şəffaflığın təmin olunduğu yarış gərgin mübarizə şəraitində keçib.











Oyunun nəticələrinə görə, İmişli məktəbliləri birinci, Şirvan rayonunun şagirdləri ikinci, Neftçala məktəbliləri isə üçüncü yeri tutub. Qaliblərə kubok, medallar və sertifikatlar təqdim olunub.

***

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasında iştirak etdiyim üçün çox sevinirəm. Gəncə gözəl şəhərdir. Mən bu şəhəri və onun sakinlərini heç vaxt unutmayacağam. Çünki yoldaşlarımla birlikdə Gəncədə doyunca gəzdim, əyləndim, özümə yeni dostlar qazandım, həm də “Nə? Harada? Nə vaxt?” intellektual oyununun qalibi oldum. Komandanın kapitanı kimi məsuliyyətim böyük idi. Sualları tapmağımızda məktəbdə aldığımız bilik, bir də tur-aksiya zamanı verilən məlumatlar köməyimizə gəldi. Yarış gərgin, lakin maraqlı keçdi. Komandaların hamısı güclü idi. Lakin sonda turnirin kubokunu biz - İmişli məktəbliləri qazandı”.

Bu sözləri “Ölkəmizi tanıyaq” tur-aksiyanın iştirakçısı, İmişli rayonu Namiq Şirinov adına texniki fənlər təmayüllü 5 saylı məktəb-liseyin 10-cu sinif şagirdi Zəhra Əlizadə bildirib.

O deyib: “Hazırda əlaçıyam, eyni zamanda, 4-cü ixtisas qrupu üzrə imtahanlara hazırlaşıram. Bununla belə, tarixi çox sevirəm. Xüsusən, Azərbaycanın XX əsrə aid tarixini ətraflı öyrənmək istəyirəm. Çünki həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb. Cümhuriyyət qısa ömür yaşasa da, 70 ildən sonra müstəqilliyimizi bərpa etdik. Ölkəmizin müstəqilliyinin əbədi, dönməz və daimi olması üçün görülən işlər məni çox sevindirir. Biz yaxşı bilirik ki, ulu öndərin dediyi kimi, müstəqilliyi qoruyub saxlamaq, onu qazanmaqdan qat-qat çətindir”.

“Ölkəmizi tanıyaq” tur-aksiyasının Prezident İlham Əliyevin gənc nəslə, onların gələcək inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olduğunu vurğulayan məktəbli deyib: “Bizə belə bir şərait yaratdığı üçün dövlətimizin başçısına minnətdarıq. Komandamızın bu layihədə qazandığı uğura təhsil aldığımız məktəblərin müəllimləri və şagirdləri də sevinəcəklər. Əminəm ki, layihə çərçivəsində əldə etdiyimiz hər bir uğur gələcəkdə Vətənimizin adına qazanacağımız böyük qələbələrin başlanğıcıdır”.

***

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya iştirakçılarının Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiyası uğurla başa çatıb.

Abşeron, Binəqədi, Sabunçu, Nərimanov, Şuşa, Zəngilan, Neftçala, Salyan, Şirvan və İmişlidən olan məktəblilər noyabrın 21-də Gəncə şəhərindən yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Şagirdlər Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçiləri tərəfindən yola salınıblar.

Qeyd edək ki, 10 rayondan olan 400 məktəbli noyabrın 18-dən 21-dək Gəncə şəhərinin, eləcə də Göygöl və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib. Şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən həyata keçirilən “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində ölkəmizin regionlarına təşkil edilmiş maarifləndirici tur-aksiyaların növbəti mərhələsi başa çatıb.

Ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində cənub bölgəsinə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olublar.

Noyabrın 21-də tur-aksiyanın Bakının Suraxanı, Xəzər, Pirallahı və Qaradağ, eləcə də Xocalı, Qax, Mingəçevir, Zaqatala, Balakən, Kəlbəcər rayonlarının IX-XI sinif şagirdləri və onların müəllimləri yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Humanitar aksiyanın iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyət nümayəndələri yola salıblar.

Cənub bölgəsindən zəngin təəssüratla ayrılan məktəblilər ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

***

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyaların daha bir mərhələsi uğurla başa çatıb. Noyabr ayının 14-17 və 18-21 tarixlərini əhatə edən 10-cu tur-aksiyada 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından 3190 nəfər iştirak edib.

Ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərinin dərindən öyrənilməsi məqsədilə artıq beşinci ildir ki, təşkil edilən bu tur-aksiyalar Azərbaycan Prezidentinin yetişməkdə olan gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasına verdiyi böyük önəmin, göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Layihə çərçivəsində noyabrın 18-də Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya başlayan 10 rayonun - Ağdaş, Füzuli, Göygöl, Siyəzən, Tovuz, Quba, Qusar, Şabran, Xaçmaz və Xızı məktəblilərindən ibarət qruplar noyabrın 21-də ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Qəbələ şəhərindəki “Karvansaray” və “Qafqaz Sport” hotellərində qalan 400 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ, Şəki və Zaqatala rayonlarındakı görməli yerlərlə, muzeylərlə, tarixi məkanlarla yaxından tanış olublar.

Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzinə, “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinə, “Gilan Qida Şəhərciyi”nə, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nic qəsəbəsindəki “Cotari” Alban-udi kilsəsinə ekskursiyalar, Şəkidəki yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzi, “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğu, Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı, “ABAD” Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub. Tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzi, Tarix-Mədəniyyət Qoruğu, Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış olub, şəhərin görməli yerlərini gəziblər.

Tur-aksiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə “Yeni əsrin müqaviləsi” adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur.

Aksiya çərçivəsində məktəblilər arasında “Nə? Harada? Nə vaxt?” intellektual oyunu üzrə yarış da keçirilib. Oyunun nəticələrinə görə, Quba, Siyəzən və Xaçmaz məktəbliləri müvafiq olaraq ilk üç yeri tutublar. Qaliblərə kubok, medal və xatirə hədiyyələri təqdim olunub.

Məktəblilər respublikamızın şimal-qərb bölgəsindən zəngin təəssüratlarla ayrılıblar.

***

Prezident İlham Əliyevin tövsiyəsinə əsasən keçirilən “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində 400-dən çox şagirdin şimal bölgəsi ilə tanışlığı Xaçmaz şəhərində başa çatıb.

Şamaxı, İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ağsu, Qobustan və Yevlax məktəblərinin şagirdləri ekskursiyanın sonuncu günü muzeylər və parklar şəhəri adlanan Xaçmazın görməli yerləri ilə tanış olublar.

Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri şəhərin mərkəzindəki Heydər Əliyev Parkında qarşılanıb, buradakı Heydər Əliyev Mərkəzində olublar.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər muzeyinə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra məktəblilər ekskursiyalarını başa vuraraq, yaşadıqları şəhər və rayonlara yola düşüblər.

***AZƏRTAC***







## B İ L D İ R İ Ş

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu rəsmi internet saytının hazırlanması işinin satın alınması üzrə kotirovka sorğusu elan edir**

İddiaçılar kotirovka sorğusunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və 04 dekabr 2018-ci il saat 12:00-a qədər qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 172.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Anar Əsgərova müraciət etmək olar.**
**Telefon: (012) 433 63 65 (daxili: 230)**
**Fax: (012) 4323717**
**e-mail: info@edf.gov.az**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu mühasibatlıq proqramının satın alınması üzrə kotirovka sorğusu elan edir**

İddiaçılar kotirovka sorğusunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və 03 dekabr 2018-ci il saat 12:00-a qədər qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 172.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Anar Əsgərova müraciət etmək olar.**
**Telefon: (012) 433 63 65 (daxili: 230)**
**Fax: (012) 4323717**
**e-mail: info@edf.gov.az**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “Bakı Kristal Zalı” MMC fasad membranının xarici işıqlandırma sistemində led lampaların satın alınması üzrə təkliflər sorğusu elan edir**

İddiaçılar təkliflər sorğusunun predmetinə dair hazırlanmış təkliflər sorğusu üsulu ilə keçirilən müsabiqəyə dəvət formasını “Bakı Kristal Zalı” MMC-dən əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və bağlı zərfdə 23 noyabr 2018-ci il saat 15:00-a qədər qəbul olunur.

Zərflərin açılma tarixi: **26 noyabr saat 10:00.**

**Ünvan: Bakı Şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**
**Telefon: (012) 404 31 52 (daxili 210)**
**e-mail: info@crystalhall.az**

*Tender komissiyası*

**“Azərsu” ASC-nin daxili vəsaiti hesabına Cəmiyyətin balansında olan və uzun müddət istismar edilən içməli su magistral boru kəmərlərinin, kanalizasiya kollektorlarının, həmçinin şəhər daxilində tikililər altında qalan magistral kommunikasiya xətlərinin, diaqnostika işlərinin aparılması ilə bərabər, “BSK-1”, “BSK-2” Şollar su kəmərlərinin texniki vəziyyətinin tədqiqat işlərini aparan “RoboCam R200” əsaslı təmiri işlərinin satın alınması məqsədilə kotirovka sorğusu elan edir**

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 26 noyabr 2018-ci il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanında 27 noyabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

*Tender komissiyası*

**“Bakı Metropoliteni” QSC “Bakımetrolayihə” İnstitutu üçün kompüter avadanlıqlarının və Bənövşəyi xəttin “B-03” stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırılması işlərinin satın alınması üzrə**

***açıq tender elan edir***

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan, (Əlaqələndirici şəxs: Zakir Hacıyev telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. “Bakımetrolayihə” İnstitutu üçün kompüter avadanlıqlarının satın alnması.**

**LOT-2. “Bakı Metropoliteni” QSC-nin Bənövşəyi xəttinin “B-03” stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırma işlərinin satın alınması**

**İştirak haqqı - LOT-1 - 200 manat**
**LOT-2 - 300 manat**

| | |
|---|---|
| Hesab: | AZ98AZRT38050019440010268002 |
| VÖEN | 1402871431 |
| Bank: | AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı) |
| Kodu: | 501361 |
| VÖEN: | 9900006111 |
| M/H: | AZ02NABZ01350100000000022944 |
| S.W.İ.F.T: | AZRTAZ22 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 dekabr 2018-ci il** saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08 yanvar 2019-cu il** saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16 ünvanına, “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **09 yanvar 2019-cu il** saat 15:30-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**Bakı Şəhər İcra Hakimiyyəti “Yaşıl Teatr” Bakı Konsert Kompleksi 03 dekabr Beynəlxalq Əlillər Günü münasibətilə tədbirin keçirilməsi üzrə təkliflər sorğusu üsulu ilə satın alınmanı həyata keçirir.**

Maraqlanan şəxslər 492-46-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 26.11.2018-ci il tarixinə qədər qəbul olunur.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Azərişıq”ASC tərəfindən 31 oktyabr 2018-ci il tarixdə Müxtəlif mal-materialların və avadanlıqların satın alınması məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş “Tikinti-Təmir-Təchizat-Bərpa”, “Gatdigital” MMC, “Yurd-F” MMC şirkətləri ilə satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən keçirilmiş “Tədris Mərkəzi”nin və “N.Nərimanov” elektrik deposunun ərazisində yerləşən Avtomotonəqliyyat Kolonuna aid yük maşınlarının təmir sexinin havalandırma sisteminin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “Alten” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 16.11.2018-ci il tarixdə ƏDV daxil 130 248,07 manat (yüz otuz min iki yüz qırx səkkiz manat 07 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Kim Çon Yan İnterpolun direktoru seçildi



Cənubi Koreya nümayəndəsi Kim Çon Yan beynəlxalq polis təşkilatının - İnterpolun prezidenti seçilmişdir. Müvafiq qərar təşkilatın dünən Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş 87-ci Baş Assambleyasında qəbul olunmuşdur.

Bundan əvvəl həmin vəzifəyə Rusiya Daxili İşlər Nazirliyinin generalı Aleksandr Prokopçuk əsas favorit hesab edilirdi. Təşkilatın yeni başçısı bu vəzifədə bir müddət əvvəl vətəni Çində rüşvətxorluqda ittiham edilərək həbs olunmuş Men Xunveyi əvəzləyəcək.

Seçki ərəfəsində məlum olmuşdur ki, Prokopçukun təşkilatın başçısı vəzifəsinə seçilməməsi üçün ABŞ-ın bir qrup senatoru İnterpolun Baş Assambleyasının üzvlərinə təsir göstərmək xahişi ilə Prezident Donald Trampa müraciət etmişdi.

Prokopçuka qarşı bir sıra britaniyalı nazirlər də çıxmışdılar. Onların fikrincə, rusiyalının İnterpolun başçısı vəzifəsinə seçilməsi Solsberidə kimyəvi hücum nəticəsində zərərçəkənlərə təhqir olardı.

Bu məsələdə ən sərt mövqeyi Litva tutmuşdu. Bu ölkənin parlamentinin qəbul etdiyi qətnamədə deyilirdi ki, Prokopçuk İnterpolun başçısı seçilsə, respublika beynəlxalq təşkilatı tərk edəcək.

## Səudiyyə Ərəbistanı neft hasilatını rekord həddə çatdırdı

Səudiyyə Ərəbistanı bu ayın əvvəllərində gündə 10,8-10,9 milyon barel neft hasil edirdi. Bu barədə “Bloomberg” agentliyi xəbər verir.

Eyni zamanda, ayrı-ayrı günlərdə daxili və xarici ehtiyatlar hesabına gündə 11 milyon bareldən çox neft bazara çıxarılmışdır. Beləliklə, Ər-Riyad neft hasilatını rekord həddə çatdırmışdır.

Əvvəlki rekord 2016-cı ilin noyabrında gündə 10,72 milyon barel səviyyəsində idi. Ötən ilin yanvarında hasilat 9,8 milyon barelə düşmüşdü.

Səudiyyə Ərəbistanının məlumatına görə, ötən ay ölkə gündə 10,65 milyon barel neft hasil etmişdir. Ölkənin energetika naziri Xalid Falih bundan əvvəl bildirmişdi ki, noyabr ayında neft hasilatı oktyabrla müqayisədə artacaq.

## Əfqanıstanda partlayış zamanı ölənlərin sayı 50 nəfəri keçdi

Srağagün Əfqanıstanın paytaxtı Kabildə baş vermiş terror aktı nəticəsində həlak olanların sayı 50 nəfəri ötmüşdür. Bu barədə ölkənin Səhiyyə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, intiharçı-terrorçunun törətdiyi partlayış zamanı təxminən 80 nəfər yaralanmışdır. Onlardan çoxunun vəziyyəti ağırdır.

“TOLO News” telekanalı xəbər verib ki, intiharçı-terrorçu üstündəki partlayıcı qurğunu şəhərin mərkəzində yerləşən sarayda Məhəmməd peyğəmbərin mövludu gününə həsr olunmuş mərasim zamanı işə salmışdır.

## ABŞ rusiyalı hakerləri dövlət strukturlarına hücumda ittiham edir



“APT 28” (“Sofacy”, yaxud “Fancy Bear” kimi də tanınır) haker qrupu ABŞ-da yeni kiberhücumlar həyata keçirməkdə şübhəli bilinir. “Palo Alto Networks” IT şirkətinin hesabatına görə, oktyabrda və noyabrın əvvəllərində Rusiya ilə əlaqələndirilən hakerlər məktublar vasitəsilə zərərli sənəd yaymışlar. Bu barədə “Wired” qəzeti xəbər verir.

Hücumun hədəfi kimi bir sıra dövlət strukturları, o cümlədən Şimali Amerika, Avropa və postsovet ölkələrindəki strukturlar göstərilir. Amerikalı ekspertlərin fikrincə, “APT 28” şərti olaraq “Cannon” adlandırılan aşağı aşkarlanma riskli proqramdan istifadə etmişdir.

Bundan əvvəl ABŞ höküməti Rusiyanın hərbi kəşfiyyatı ilə əlaqələndirilən “Fancy Bear”ın Ukraynanın atom reaktorlarını yanacaqla təmin edən “Westinghouse” atom şirkətinə qarşı kiberhücumlar həyata keçirdiyini bildirirdi.

## XİN: “Paşinyanın azərbaycanlı girovlarla bağlı bəyanatı onun ümumbəşəri humanizm prinsiplərini rədd edən biri olduğunu göstərir”

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın mətbuat konfransında əsirlərin dəyişdirilməsi məsələsinə münasibət bildirərək erməni əsirliyində saxlanılan iki azərbaycanlı mülki şəxsin Azərbaycana qaytarılmasına qarşı çıxdığını bildirməsi ilə əlaqədar açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: “Beynəlxalq humanitar hüquqda münaqişə tərəflərinin razılığı əsasında əsir və girovların dəyişdirilməsi məsələsi öz əksini tapır və beynəlxalq təcrübədə bu kimi mübadilədən geniş istifadə olunur. Azərbaycan beynəlxalq hüququn müvafiq konvensiyaları, eləcə də humanizm prinsiplərindən çıxış edərək hər iki tərəfdə saxlanılan girovların dəyişdirilməsi təklifi ilə çıxış etdiyi halda, Paşinyan səsləndirdiyi bəyanatı ilə əslində, ölkəsinin üzvü olduğu Cenevrə Konvensiyaları və onun əlavə protokollarına zidd olaraq beynəlxalq öhdəliklərini kobudcasına pozduğunu etiraf etdi. Bu addım, həmçinin onun ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər zaman təşviq etdiyi humanitar fəaliyyətə məhəl qoymadığını göstərdi.

Ermənistanın baş naziri vəzifəsini icra edən Paşinyanın bu bəyanatı onun sivil davranışlardan tamamilə uzaq, sözdə sülh və barışıqdan bəhs edən, əməli olaraq isə ümumbəşəri humanizm prinsiplərini rədd edən biri olduğunu açıq şəkildə nümayiş etdirir.

Bu bəyanat Paşinyanın sələfi Serj Sarkisyandan qətiyyən fərqlənmədiyini göstərir”.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 27.02.2016-cı il tarixdə Yaqut Rəsul qızı Məmmədovanın adına Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, 24D saylı torpaq sahəsinə verilmiş Çıxarış (seriya RX № 0819489, qeydiyyat nömrəsi 1116009894) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi universitetin Zaqatala filialının direktoru, professor Orucəli Rzayevə əzizləri

**NİGAR TAĞIYEVA və HÜSEYN HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Xüsusi texnika və avadanlıqlar kafedrasının müdiri, professor Ələkbər Hüseynova qardaşı

**ƏBİLHƏSƏN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru və universitetin kollektivi Gülçöhrə Tağıyevaya və ailəsinə əzizləri

**NİGAR TAĞIYEVA və HÜSEYN HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, professor Vüsət Əfəndiyevə anası

**GÜLSƏFA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3469